# İMANI TEZ ANLAMAQ

# -1-

Biz Quranı yada salmaq üçün asanlaşdırdıq.
Amma heç bir yada salan varmı? (Qəmər surəsi, 17)

HARUN YAHYA
(ADNAN OKTAR)

# MÜNDƏRİCAT


1. Allahın varlığını necə anlayarıq?

2. Allahı necə tanıyarıq?

3. Yaradılış məqsədimiz nədir?

4. Nə üçün sınanırıq (imtahan oluruq)?

5. Allaha necə qulluq edə bilərik?

6. Din nə üçün lazımdır?

7. Din əxlaqını yaşamaq necə olar?

8. Din olmazsa əxlaq necə olar?

9. Din olmazsa ictimai sistem hara gedər?

10. Quran əxlaqına tabe olmağın cəmiyyətlərə nə kimi maddi və mənəvi faydaları olur?

11. Quran əxlaqına tabe olmağın ailəyə gətirdiyi faydaları nələrdir?

12. Quran əxlaqına tabe olmağın dövlət sisteminə gətirdiyi faydalar nələrdir?

13. Quran əxlaqına tabe olmağın incəsənətə gətirdiyi faydalar nələrdir?

14. Quran əxlaqına tabe olmağın təhsil sisteminə gətirdiyi faydalar nələrdir?

15. Quran əxlaqına tabe olmağın iş mühitlərinə gətirdiyi faydalar nələrdir?

16. "Allaha şərik qoşmaq" (şirk) nədir?

17. Bir şeyi "bütləşdirmək" nə deməkdir?

18. İnsan şirkdən necə xilas olar?

19. Allahın rizasının ən çoxunu seçmək nə deməkdir?

20. Qəti iman nə deməkdir?

21. Davranışlarımdan hansının Allah rizasına uyğun olduğunu necə anlaya bilərəm?

22. İnsanın ürəyində vicdanının xaricində bir səs vardırmı?

23. Necə görürük?

24. Maddənin "əsli ilə təmasda olmamaq" nə deməkdir?

25. Maddənin ardındakı sirr mövzusu nədir?

26. Maddi qarşılıqları olmayan hissləri həqiqi sanaraq aldana bilərikmi?

27. Bildiyimiz bütün maddi varlıqlar əslində hissdirsə, o zaman beynimiz nədir?

28. Hiss edən kimdir?

29. Əlaqədə, təmasda olduğumuz dünya, əslində ruhumuzun gördüyü hisslərdən ibarətdirsə, o halda bu hisslərin qaynağı nədir?

30. Allahın hər şeyi əhatə etməsi, bizə şah damarımızdan yaxın olması necə olur?

31. Allah sevgisi kafi deyilmi, mütləq Allahdan qorxmaq lazımdırmı?

32. Səmimi bir möminin Allah qorxusu necə olmalıdır?

33. Quranı hər oxuyan anlaya bilər

34. Quran möminlər üçün tək rəhbərdir

35. Quran hər dövrə xitab edər

36. Allah Quran ayələrini dəyişdirilmədən günümüzə qədər saxlamışdır

37. Quranın elmi möcüzələri nələrdir?

38. Qurandakı söz təkrarları və 19 möcüzəsi nələrdir?

39. Quranın gələcəyə istiqamətli verdiyi xəbərlər nələrdir?

40. Axirətin varlığını haradan bilirik?

41. Reinkarnasiya nə deməkdir?

42. Ölüm yox olmaqdırmı?

43. Ölüm anında nələr yaşanar?

44. Kainat da ölümlüdürmü?

45. Qiyaməti o günə qədər yaşamış hər kəs görəcəkmi; yoxsa yalnız o an yaşayanlar görəcək?

46. Haqq-hesab günündə necə bir sorğulama olacaq?

47. Haqq-hesab günündə insanlar bir-birlərinin günahlarını yüklənərmi?

48. Bir insan axirətdə həqiqətləri gördüyündə, etdiklərini düzəltmək

istəsə belə bir imkanı ola bilərmi?

49. Cəhənnəm necə bir yerdir?

50. Quran ayələrində cəhənnəmlə əlaqədar nələr bildirilmişdir?

51. Cənnət necə bir yerdir?

52. Cənnətə kimlər gedər?

53. Həqiqi yaxşılıq nədir?

54. Qurandakı sevgi anlayışı necədir?

55. Möminlərin həmişə birlikdə olmalarının səbəbləri nələrdir?

56. Allah, inananlara dünyada necə bir həyat vəd etmişdir?

57. Allaha necə dua edilər? Duanın müəyyən yeri, zamanı və ya şəkli vardırmı?

58. Allah hər duanı qəbul edərmi?

59. Allaha necə tövbə edilər? "Tövbə etdim" demək kifayətdirmi?

60. Allah bütün tövbələri qəbul edərmi?

61. "Necə olsa tövbə etdiyimdə Allah məni bağışlayacağına görə, hər şeyi edim sonra da tövbə edərəm "demək doğru düşüncə ola bilərmi?

62. Namaz niyə vacibdir?

63. Digər peyğəmbərlərə də namaz əmr edilmişdirmi?

64. Namaz hansı vaxtlarda fərz qılınmışdır?

65. Huşu içində namaz necə qılınar?

66. Dini yaşamağa başlayan insanın özündə nələri dəyişdirməsi lazımdır?

67. İslamı yaşamağa başladıqdan sonra keçmiş həyatımda etdiyim günahlardan ötrü Allah Qatında məsul olarammı?

68. İslam əxlaqını başqalarına da izah etmək lazımdırmı?

69. Allahın bəyəndiyi səbir necə olar?

70. Təvəkkül nə deməkdir?

71. Təqva nədir? Təqva sahibləri kimlərdir?

72. Allah Qatında üstünlük nəyə görədir?

73. Dərin düşünmə necə olur?

74. Din və elm bir-biriylə uyğundur

75. Allaha və dinə inanan elm adamları kimlərdir?

76. Allaha necə şükür edilməlidir?

77. Şeytan necə varlıqdır?

78. Şeytan insanlara necə təsir edər, onları hansı yollarla azdırmağa çalışar?

79. Şeytanın özünə aid müstəqil bir gücü vardırmı?

80. Şeytanın kimlər üzərində təsiri olmaz?

81. "Adamlıq dini" nədir?

82. Əksəriyyətin tətbiq etdiyi bir sistem mütləq doğrudurmu?

83. "Adamlıq dini" ni tərk etmək üçün nə etmək lazımdır?

84. Ağılla zəka arasındakı fərq nədir?

85. İnsanın ağlını örtən amillər nələrdir?

86. Quranda Allahın təkəbbürlənənləri sevmədiyi ifadə edilir, Qurana görə təkəbbürlənmək nə mənaya gəlir?

87. Quran əxlaqına görə təvazökar bir insan necə olmalıdır?

88. Niyyətimdən məsul olarammı?

89. Dünya həyatı aldadıcı bəzəkdir deyərkən tam olaraq nə nəzərdə tutulur?

90. İnsanların sahib olduqları acizliklərin hikmətləri nələrdir?

91. Quranda keçmiş qövmlərdən bəhs edilməsinin hikməti nədir?

92. Cinlərin yaradılış məqsədləri nədir?

93. Mələklər necə varlıqlardır?

94. Zamanı necə təyin edə bilərik?

95. Zamanın nisbi olması nə deməkdir?

96. Qədər nədir?

97. Allahın müəyyən etdiyi qədəri insanların dəyişdirməsi mümkün deyil.

98. Yenidən dirilmə necə olacaq?

99. Materialist fəlsəfə niyə keçərli deyil?

100. Kainat necə var oldu?

101. Materialistlər insan ruhunu necə açıqlayar?

102. Təkamül nəzəriyyəsi nəyi iddia edər?

103. Təkamül nəzəriyyəsinin canlıların meydana gəlməsi ilə əlaqədar iddiasının etibarlılığı vardırmı?

104. Təkamülü çürüdən digər dəlillər nələrdir?

105. Təkamül nəzəriyyəsi canlılığın dünya üzərində birdən ortaya çıxışını necə açıqlayar?

106. Təkamülçülərin xalqı aldatmaq məqsədiylə etdikləri saxtakarlıqlar nələrdir?

107. "İbtidai insan" anlayışı təkamülçü bir cəfəngiyatdır.

108. Canlılardakı mürəkkəb sistemlərin meydana gəlişi təkamüllə açıqlana bilərmi?

109. Təkamül nəzəriyyəsi, elmi baxımdan heç bir etibarlılığı olmadığı halda, niyə bəzi çevrələr tərəfindən bu qədər israrla müdafiə olunur?

# OXUCUYA

Bu kitabda və digər işlərimizdə təkamül nəzəriyyəsinin süqutuna xüsusi yer ayrılmasının səbəbi bu nəzəriyyənin hər cür din əleyhdarı olan fəlsəfənin təməlini meydana gətirməsidir. Yaradılışı və dolayısilə, Allahın varlığını inkar edən darvinizm 150 ildir ki, bir çox insanın imanını itirməsinə və ya şübhəyə düşməsinə səbəb olmuşdur. Buna görə də, bu nəzəriyyənin yalan olduğunu gözlər önünə gətirmək əhəmiyyətli imani bir vəzifədir. Bu əhəmiyyətli xidmətin bütün insanlığa çatdırılması isə zəruridir. Bəzi oxucularımız ola bilər ki, yalnız bir kitabımızı oxumaq imkanı tapa bilər. Bu səbəblə, hər kitabımızda bu mövzuya xülasə də olsa yer ayrılması uyğun hesab edilmişdir.

Qeyd edilməsi lazım olan başqa bir xüsus da bu kitabların məzmunu ilə əlaqədardır. Yazıçının bütün kitablarında imani mövzular Quran ayələri yönündə izah edilir və insanlar Allahın ayələrini öyrənməyə və yaşamağa dəvət edilirlər. Allahın ayələri ilə əlaqədar bütün mövzular oxucuda heç bir şübhə və ya sual buraxmayacaq şəkildə açıqlanmışdır.

Bu mövzuda istifadə edilən səmimi, sadə və səlis üslub isə kitabların hamı tərəfindən rahat başa düşülməsini təmin edir. Bu təsirli və sadə izah sayəsində kitablar "bir nəfəsə oxunan kitablar" ibarəsinə tam uyğun gəlir. Dini qəti şəkildə rədd edən insanlar belə bu kitablarda bildirilən həqiqətlərdən təsirlənir və yazılanların doğruluğunu inkar edə bilmirlər.

Bu kitab və yazıçının digər əsərləri oxucular tərəfindən şəxsən oxuna biləcəyi kimi, qarşılıqlı söhbət şəraitində də oxuna bilər. Bu kitablardan istifadə etmək istəyən bir qrup oxucunun, kitabları bir yerdə oxumaları mövzu ilə əlaqədar öz təfəkkür və təcrübələrini də bir-birlərinə ötürmək baxımından faydalıdır.

Bununla belə, yalnız Allahın razılığı üçün yazılan bu kitabların tanınmasında və oxunmasında iştirak etmək də böyük xidmətdir. Çünki yazıçının bütün kitablarında isbat və razı salıcı yön son dərəcə güclüdür. Bu səbəblə, dini izah etmək istəyənlər üçün ən təsirli üsul bu kitabların digər insanlar tərəfindən də oxunmasının təşviq edilməsidir.

Kitabların arxasına yazıçının digər əsərlərinin təqdimatının əhəmiyyətli səbəbləri vardır. Bu sayədə kitabı nəzərdən keçirən şəxs yuxarıda yazılan xüsusiyyətləri daşıyan və oxumaqdan xoşlandığını ümid etdiyimiz bu kitabla eyni xüsusiyyətlərə sahib daha bir çox əsərin olduğunu görər, imani və siyasi mövzularda faydalana biləcəyi zəngin bir qaynağın mövcudluğuna şahid olacaq.

Bu əsərlərdə digər bəzilərində görülən, yazıçının şəxsi qənaətlərinə və şübhəli qaynaqlara əsaslanan izahlara, müqəddəsata qarşı lazım olan ədəb və hörmətə diqqət yetirilməyən üslublara, şübhəli və həmçinin incidici yazılara rast gələ bilməzsiniz.

# YAZIÇI VƏ ƏSƏRLƏRİ HAQQINDA

Harun Yəhya təxəllüsündən istifadə edən yazıçı Adnan Oktar 1956-cı ildə Ankarada anadan olmuşdur. İbtidai və orta təhsilini Ankarada almışdır. Daha sonra İstanbul Memar Sinan Universitetinin İncəsənət fakültəsində və İstanbul Universitetinin Fəlsəfə bölməsində təhsil almışdır. 1980-ci illərdən bu yana imani, elmi və siyasi mövzularda bir çox əsər hazırlamışdır. Bununla yanaşı, yazıçının təkamülçülərin saxtakarlıqlarını, iddialarının əsassızlığını və darvinizmin qanlı ideologiyalarla olan qaranlıq əlaqələrini ortaya qoyan çox əhəmiyyətli əsərləri vardır.

Harun Yəhyanın əsərləri təxminən 30.000 şəklin olduğu cəmi 45.000 səhifəlik külliyyatdır və bu külliyyat 60 fərqli dilə tərcümə edilmişdir.

Yazıçının təxəllüsü inkarçı düşüncəyə qarşı mübarizə aparan iki peyğəmbərin xatirəsinə hörmət olaraq adlarını yad etmək üçün Harun və Yəhya adlarından götürülmüşdür. Yazıçı tərəfindən kitabların üz qabığında Rəsulullahın (səv) möhürünün olmasının simvolik mənası isə kitabların məzmunu ilə əlaqədardır. Bu möhür Qurani-kərimin Allahın son kitabı və son sözü, Peyğəmbərimizin (səv) xatəmül-ənbiya olduğunun rəmzidir. Yazıçı bütün yayımlarında Quranı və Rəsulullahın sünnəsini özünə rəhbər etmişdir. Bu surətlə, inkarçı düşüncə sistemlərinin bütün təməl iddialarını bir-bir ortadan qaldırmağı və dinə qarşı yönələn etirazları tam susduracaq son sözü söyləməyi əsas almışdır. Böyük hikmət və kamal sahibi olan Rəsulullahın möhüründən bu son sözü söyləmək niyyətinin duası olaraq istifadə edilmişdir.

Yazıçının bütün işlərindəki ortaq hədəf Quranın təbliğini dünyaya çatdırmaq, beləliklə, insanları Allahın varlığı, birliyi və axirət kimi təməl imani mövzular üzərində düşünməyə sövq etmək və inkarçı sistemlərin əsassız təməllərini və azğın tətbiqlərini gözlər önünə çəkməkdir.

Necə ki, Harun Yəhyanın əsərləri Hindistandan Amerikaya, İngiltərədən İndoneziyaya, Polşadan Bosniya-herseqovinaya, İspaniyadan Braziliyaya, Malayziyadan İtaliyaya, Fransadan Bolqarıstana və Rusiyaya qədər dünyanın əlavə bir çox ölkəsində sevilərək oxunur. İngilis, fransız, alman, italyan, ispan, portuqal, urdu, ərəb, alban, rus, boşnaq, uyğur, İndoneziya, Malay, benqal, serb, bolqar, Çin, Danimarka və İsveç dili kimi bir çox dilə tərcümə edilən əsərlər xaricdə geniş oxucu kütləsi tərəfindən izlənilir.

Dünyanın dörd tərəfində fövqəladə təqdir toplayan bu əsərlər bir çox insanın iman etməsinə, bir çoxunun da imanında dərinləşməsinə vəsilə olur. Kitabları oxuyub araşdıran hər kəs bu əsərlərdəki hikmətli, dolğun, asan aydın olan və səmimi üslubun, ağıllı və elmi yanaşmanın fərqində olar. Bu əsərlər sürətli təsir etmə, qəti nəticə vermə, etiraz və təkzib edilə bilinməyən xüsusiyyətləri daşıyır. Bu əsərləri oxuyan və üzərində ciddi şəkildə düşünən insanların artıq materialist fəlsəfəni, ateizmi və digər azğın görüş və fəlsəfələrin heç birini

səmimi olaraq müdafiə etmələri mümkün deyil. Bundan sonra müdafiə etsələr də, ancaq romantik inadla müdafiə edəcəklər. Çünki fikri dayaqları aradan götürülmüşdür. Dövrümüzdəki bütün inkarçı cərəyanlar Harun Yəhya külliyyatı qarşısında fikirlə məğlub olmuşlar.

Şübhəsiz, bu xüsusiyyətlər Quranın hikmət və ifadə təsirliliyindən qaynaqlanır. Yazıçı bu əsərlərə görə öyünmür, yalnız Allahın hidayətinə vəsilə olmağa niyyət etmişdir. Bundan başqa, bu əsərlərin çap və nəşrində hər hansı bir maddi qazanc güdülmür.

Bu həqiqətlər göz önünə gətirildikdə insanların görmədiklərini görmələrini təmin edən, hidayətlərinə vəsilə olan bu əsərlərin oxunmasını təşviq etməyin də çox əhəmiyyətli xidmət olduğu ortaya çıxır.

Bu qiymətli əsərləri tanıtmağın yerinə insanların zehinlərini bulandıran, fikri qarışıqlıq meydana gətirən, şübhə və tərəddüdləri aparmaq və imanı qurtarmaq üçün güclü və iti təsiri olmadığı ümumi təcrübə ilə sabit olan kitabları yaymaq isə əmək və zaman itkisinə səbəb olar. İmanı qurtarmaq məqsədindən çox, yazıçının ədəbi gücünü vurğulamağa yönələn əsərlərdə bu təsirin əldə edilə bilməyəcəyi məlumdur. Bu mövzuda şübhəsi olanlar varsa, Harun Yəhyanın əsərlərinin tək məqsədinin dinsizliyi yox etmək və Quran əxlaqını yaymaq olduğunu, bu xidmətdəki təsir, müvəffəqiyyət və səmimiyyətin açıq şəkildə göründüyünü oxucuların ümumi qənaətindən anlaya bilərlər.

Bilmək lazımdır ki, dünyadakı zülm və qarışıqlıqların, müsəlmanların çəkdiyi əziyyətlərin təməl səbəbi dinsizliyin fikri hakimiyyətidir. Bunlardan xilas olmağın yolu isə dinsizliyin fikirlə məğlub edilməsi, iman həqiqətlərinin ortaya qoyulması və Quran əxlaqının insanların qavrayıb yaşaya biləcəkləri şəkildə izah edilməsidir. Dünyanın gündən-günə daha çox büründüyü zülm, fəsad və qarışıqlıq mühiti diqqətə alındığında bu xidmətin mümkün qədər sürətli və təsirli şəkildə edilməsinin lazım olduğu aydındır. Əks halda, çox gec ola bilər.

Bu əhəmiyyətli xidmətdə öndərliyi üzərinə götürən Harun Yəhya külliyyatı Allahın izni ilə 21-ci əsrdə dünya insanlarını Quranda təsvir edilən hüzur, sülh, düzgünlük, ədalət, gözəllik və xoşbəxtliyə daşımağa vəsilə olacaq.

# İMANI TEZ ANLAMAQ
# -1-

## 1- Allahın varlığını necə anlayarıq?

Ətrafımıza baxdığımızda gördüyümüz bitkilər, heyvanlar, dənizlər, dağlar, insanlar və hətta bilmədiyimiz mikro aləmdəki canlı-cansız hər şey özlərini var edən üstün bir ağılın açıq-aşkar dəlilləridir. Eyni şəkildə bütün kainatda var olan tarazlıq, nizam, qüsursuz yaradılış yenə özlərini yoxdan var edən üstün bir elm sahibinin varlığını sübut edir. Məzh bu üstün ağılın və elmin sahibi Allahdır.

Biz Allahın varlığını, yaratdığı qüsursuz sistemlər, canlı-cansız varlıqların heyranedici xüsusiyyətlərindən anlayırıq. Bu qüsursuzluğa Quranda da diqqət çəkilmişdir:

**Yeddi göyü təbəqələr şəklində quran Odur. Sən Mərhəmətli Allahın yaratdığında qətiyyən bir uyuşmazlıq tapmazsan. Bir başını qaldırıb göyə diqqət yetir, heç onda bir çat görürsənmi? Sonra göz gəzdirib təkrar bax. Göz zəlil və yorğun halda özünə tərəf dönəcəkdir. (Mülk surəsi, 3-4)**

## 2- Allahı necə tanıyarıq?

Allahın üstün gücünü yenə kainatdakı qüsursuz yaradılış bizə göstərir. Ancaq əslində Allah bizə Özünü insanlara doğrunu göstərən rəhbər olaraq endirdiyi Quranda tanıtmışdır. Quranda Allahın bütün üstün sifətləri; ağlı, elmi, şəfqəti, mərhəməti, ədaləti, hər yeri əhatə edən olduğu, hər şeyi eşidən və görən olduğu, göylərin, yerin və onların arasında tək sahibi, tək İlahı olduğu, mülkün tək hakimi olduğu xəbər verilmişdir.

**O, Özündən başqa heç bir məbud olmayan, qeybi və aşkarı Bilən Allahdır. O Mərhəmətlidir, Rəhmlidir. O, Özündən başqa heç bir məbud olmayan, Hökmran, Müqəddəs, Pak, haqqı təsdiq edən, hər şeyi müşahidə edən, Qüdrətli, Qadir, Məğrur Allahdır. Allah onların Ona şərik qoşduqlarından ucadır. O, Xaliq, yoxdan Yaradan, Surətverən Allahdır. Ən gözəl adlar yalnız Ona məxsusdur. Göylərdə və yerdə olanların hamısı Onun şəninə təriflər deyir. O, Qüdrətlidir, Müdrikdir. (Həşr surəsi, 22-24)**

## 3- Yaradılış məqsədimiz nədir?

Yaradılış məqsədimizi Allah bizlərə Quranda belə bildirir:

**... İnsanları yalnız Mənə ibadət etsinlər deyə yaratdım. (Zəriyət surəsi, 56)**

Bu ayədə bizə xəbər verildiyi kimi, insanın yer üzündə mövcudluq məqsədi yalnız Allaha qulluq etmək, Ona ibadət etmək, Onun razılığını qazanmaqdır. İnsan dünyada olduğu müddət ərzində bu mövzuda sınanar.

## 4- Nə üçün sınanırıq (imtahan oluruq)?

Allah dünyada Özünə iman edənlərlə etməyənləri bir-birindən ayırmaq və iman edənlərdən də hansının daha gözəl davranışlarda olacağını müəyyən etmək üçün insanları sınayar. Buna görə bir insanın "mən iman etdim" deməsi kafi deyil. İnsanın yaşadığı müddət boyunca, Allaha olan imanı və bağlılığı, dindəki qərarlılığı qısacası, Allaha qulluqdakı səbri xüsusi olaraq yaradılan şərt və mühitlərdə sınanar. Allah bu həqiqəti bir ayəsində belə bildirir:

**Əməl baxımından hansınızın daha yaxşı olduğunuzu sınamaq üçün ölümü və həyatı yaradan Odur. O, Qüdrətlidir, Bağışlayandır. (Mülk surəsi, 2)**

## 5- Allaha necə qulluq edərik?

Allaha qulluq etmək, insanın bütün həyatını Allahın məmnuniyyətini, razılığını qazanmaq məqsədiylə davam etdirməsidir. Etdiyi hər işi Allahın razı olacağı ən gözəl şəkildə yerinə yetirməyə çalışması, yalnız Allahdan qorxub çəkinməsi və bütün düşüncələrini, sözlərini, hərəkətlərini bu məqsəd istiqamətində etməsidir. Allah Quranda yalnız Özünə qulluq etmənin insanın bütün həyatını əhatə etdiyinə bu ayəsiylə diqqət çəkmişdir:

**De ki: "Şübhəsiz ki, mənim namazım da, ibadətim də, həyatım və ölümüm də aləmlərin Rəbbi olan Allaha məxsusdur." (Ənam surəsi, 162)**

## 6- Din nə üçün lazımdır?

Allahın varlığına inanan bir insanın ilk etməli olduğu, özünə bir "heç ikən" can verən, yaşadan, yedizdirən, içizdirən, can sağlığı verən Yaradıcımız olan Allahın əmrlərini, məmnun olacağı şeyləri öyrənmək olmalıdır. Daha sonra da bütün həyatını Allahın əmrlərinə tabe olaraq və Allahın razılığını axtararaq keçirməlidir. Allahın razı olacağı əxlaqı, davranışları və həyat formasını bizə göstərən isə dindir. Allah Quranda dinə uyan insanların doğru bir yol üzərində olacaqlarını, digərlərinin isə azğınlığa düşəcəklərini xəbər vermişdir:

**Məgər Allahın, köksünü İslam üçün açdığı və Rəbbinin nura yönəltdiyi şəxs kafirlə eyni ola bilərmi? Qəlbi Allahın Zikrinə qarşı sərt olanların vay halına! Onlar həqiqətən azğınlıq içindədirlər. (Zumər surəsi, 22)**

## 7- Din əxlaqını yaşamaq necə olur?

Allaha inanan və Ona itaət edən insanlar, həyatlarını Allahın Qurandakı tövsiyələrinə uyğun olaraq təşkil edərlər. Din əxlaqını yaşayan insan vicdanının göstərdiyi doğrulara uyaraq

həyatını davam etdirər və içindəki mənfi səs olan nəfsinin pis olaraq əmr etdiyi hər şeydən imtina edər. Allah insanları dini yaşamaq fitrəti ilə yaratdığını da Quranda belə bildirir:

**Sən bir hənif kimi üzünü dinə tərəf çevir! Allahın insanlara – xəlq etdiyi şüurlu məxluq kimi verdiyi fitrət budur. Allahın yaratdığını heç cür dəyişdirmək olmaz. Doğru din budur, lakin insanların çoxu bunu bilmir. (Rum surəsi, 30)**

## 8- Din olmazsa əxlaq necə olar?

Din olmayan cəmiyyətlərdə insanlar hər cür əxlaqsızlığa meyilli vəziyyətə gəlirlər. Məsələn, dindar bir insan axirətdə hesabını verəcəyini bildiyi üçün qətiyyən rüşvət almaz, qumar oynamaz, qısqanclıq etməz, yalan danışmaz. Amma dinsiz bir insan bunların hamısını etməyə meyillidir. Bir insanın "mən dinsizəm, amma rüşvət almıram" və ya "mən dinsizəm, amma qumar da oynamıram" deməsi kafi olmaz. Çünki Allah qorxusu olmayan və axirətdə hesab verəcəyinə inanmayan bir insan, mühit və ya şərtlər dəyişdiyində bunlardan hər hansı birini asanlıqla edə bilər. "Dinsizəm, amma fahişəlik etmirəm" deyən bir insan fahişəliyin normal qarşılandığı bir yerdə fahişəlik edə bilər. Və ya rüşvət almadığını söyləyən bir insan əgər Allahdan qorxmursa "oğlum xəstədir, ölmək üzrədir, onun üçün rüşvət almaq məcburiyyətindəyəm" deyə bilər. Dinsizlikdə oğurluq belə bəzi mühitlərdə qanuni görülə bilər. Məsələn, belə kəslər özlərinə otellərdən, əyləncə yerlərindən dəsmal və ya dekorativ əşyalar almağı oğurluq saymaya bilərlər.

Halbuki, dindar bir insan belə bir əxlaqsızlıq göstərməz. Çünki Allahdan qorxar və Allahın, niyyətini də, düşüncələrini də bildiyini unutmaz, səmimi davranar və günahdan uzaq durar.

Dindən uzaq bir insan "Dinsizəm amma, bağışlayanam, intiqam və ya kin hissi duymaram" deyə bilər. Amma bir gün elə bir hadisə olar ki, hövsələdən çıxar və ən gözlənilməyəcək rəftarı göstərər. Bir insanı öldürməyə, yaralamağa çalışar. Çünki üzərində daşıdığı əxlaq, mühitlərə, şərtlərə, yaşanılan yerə görə dəyişən bir əxlaqdır.

Halbuki, Allaha və axirətə inanan bir adam şərtlər və şərait nə olursa olsun, gözəl əxlaq göstərməkdən qətiyyən güzəştə getməz. Əxlaqı "dəyişən" deyil, "sabit" olar. Allah dindar insanların üstün əxlaqını ayələri ilə xəbər vermişdir:

**O kəslər ki, Allaha verdikləri sözü yerinə yetirir və əhdi pozmurlar. O kəslər ki, Allahın qovuşdurulmasını əmr etdiyi şeyləri qovuşdurur (qohumluq və qardaşlıq əlaqələrini möhkəmlədir), Rəbbindən qorxur və pis haqq-hesabdan çəkinirlər. O kəslər ki, Rəbbinin Üzünü diləyərək səbir edir, namaz qılır, onlara verdiyimiz ruzidən gizli və aşkar xərcləyir və pisliyi yaxşılıqla dəf edirlər. Onlar üçün Axirət yurdu-Ədn bağları hazırlanmışdır. (Rad surəsi, 20-22)**

## 9- Din olmazsa ictimai sistem hara gedər?

Dinsiz bir mühitdə əvvəlcə ailə anlayışı ortadan qalxar. Ailəni meydana gətirən sədaqət, vəfa, bağlılıq, sevgi və hörmət kimi dəyərlər tamamilə yox olar. Unudulmamalıdır ki, ailə, cəmiyyətin təməlidir və əgər ailə çöksə cəmiyyət də çökər. Bu səbəbdən, dövlət və millət olmağın bir mənası qalmaz, çünki dövləti və milləti meydana gətirən bütün mənəvi dəyərlər yıxılmış olar.

Həmçinin, dinsiz cəmiyyətlərdə kimsənin kimsəyə hörmət, sevgi və mərhəmət duyğuları duyması üçün bir səbəb qalmaz. Bunun nəticəsində isə ictimai anarxiya meydana gələr. Zənginlər kasıblara, kasıblar zənginlərə kinli olar, şikəst və ya möhtac olanlara qarşı qəzəb meydana gələr. Fərqli qövmlərə qarşı təcavüzkar olar, işçilər müdirlərinə, müdirlər işçilərinə, ata oğula, oğul ataya qarşı təcavüzkarlaşar.

Daima qan tökülməsinin, bəzi ölkələrdəki daima gündəmə gələn cinayət xəbərlərinin səbəbi dinsizlikdir. Bu xəbərlərdə hər gün gözünü qırpmadan və çox adi səbəblərlə bir-birlərini öldürən şəxslərin xəbərləri verilir.

Halbuki, axirətdə hesabını verəcəyini bilən bir insan, silahı başqa bir insanın üzünə istiqamətləndirib onu öldürə bilməz. Allahdan qorxar və pis haqq-hesabdan çəkinər. Allah insanları fəsad törətməkdən Quranda belə məhrum etmişdir:

**Yer üzü islah olunduqdan sonra, orada fəsad törətməyin. Allaha qorxu və ümidlə yalvarın. Həqiqətən, Allahın mərhəməti yaxşılıq edənlərə yaxındır. (Əraf surəsi, 56)**

İntiharların bu qədər yayılmasının təməlində də dinsizlik vardır. İntihar edən əslində cinayət işləmiş olur.

Amma Qurana bağlı bir insan bunu qətiyyən etməz, belə bir düşüncəni bir an olsun ağlından belə keçirməz. İnanan bir insan ancaq Allah rizası üçün yaşayar və Allahın özünə dünyada verdiyi hər cür çətinlik və sıxıntı qarşısında səbir edər. Və bu səbrin qarşılığını həm dünyada, həm də axirətdə qat-qat çox alacağını unutmaz.

Dinsiz cəmiyyətlərdə oğurluq da çox geniş yayılar. Oğurluq edən adam əşyasını oğurladığı adama necə bir əziyyət verdiyini düşünməz. Qarşısındakı adamın 10 illik əməyini 1 gecədə alıb gedər, o adamın nə qədər zərər çəkmiş olacağını heç nəzərə almaz. Qarşısındakı adama acı verdiyi kimi özü də vicdan əzabı ilə acı çəkər. Əgər vicdan əzabı çəkmirsə bu, onun üçün daha da pisdir. Çünki belə bir insan hər cür əxlaqsızlıq edəcək bir halda deməkdir.

Dinsiz cəmiyyətlərdə qonaq qarşılama, insanların bir-birləri üçün fədakarlıqlar etmələri, həmrəylik, əliaçıqlıq kimi dəyərlər tamamilə ortadan qalxar. Hər şeydən əvvəl insanlar bir-birlərinə insan olaraq dəyər verməzlər, çünki bir-birlərini guya meymundan təkamülləşmiş varlıqlar olaraq görərlər. Bir insan, meymundan təkamül keçirdiyini düşündüyü bir insana xidmət etməz, onu qonaq etməz, ona gözəlliklər təqdim etmək istəməz. Bu düşüncəli insanlar bir-birlərinə dəyər verməzlər. Kimsə kimsənin sağlamlığını, dincliyini, rahatlığını düşünməz. İnsanlara bir zərər toxunmasından narahat olmaz, buna mane olmağa çalışmaz. Məsələn, xəstəxanalarda ölmək üzrə olan insanlar xərəyə uzun müddət buraxılar, onlarla heç maraqlanan olmaz. Və ya son dərəcə sağlam olmayan və natəmiz şərtlər altında işlədilən bir restoranın sahibi, orada yemək yeyən insanların sağlamlığına verəcəyi zərəri fikirləşməz. Ancaq öz qazanacağı pulun dərdinə düşər. Bunlar gündəlik həyatda tez-tez qarşılaşılan bir neçə nümunədir. Burada əhəmiyyətli olan məntiq, insanların ancaq bir mənfəət qarşılığında bir-birlərinə yaxşı davranmağa yanaşmalarıdır. Halbuki, Quran əxlaqında insanlar bir-birlərinə Allahın qulu olaraq dəyər verirlər. Yaxşılıq etmək üçün mənfəət nəzərə almadan, əksinə həmişə yaxşı işlər görüb xeyir işlərdə yarışaraq Allahın razılığını qazanmağa çalışırlar.

## 10- Quran əxlaqına tabe olmağın cəmiyyətlərə nə kimi maddi və mənəvi faydaları olar?

Quran əxlaqı, gözəl əxlaqın dərin, mənəviyyatlı, hüzur və güvən dolu mühitini meydana gətirər. Dövlətə və millətə böyük zərərlər verən anarxiya bəlası qəti olaraq son tapar. Çünki insanlar Allahdan qorxar, itaətsizlikdən, fitnə-fəsad törətməkdən şiddətlə çəkinərlər. Həmçinin, mənəvi dəyərlərə sahib kəslər dövlətə və millətə sahib çıxarlar və bu dəyərlər üçün hər cür fədakarlığı etməkdən çəkinməzlər. Bu əxlaqdakı insanlar daima ölkənin rifahı və xoşbəxtliyi üçün çalışarlar.

Quran əxlaqının yaşandığı bir cəmiyyətdə insanlar, bir-birlərinə qarşı son dərəcə hörmətli olar və hər kəs bir-birinin rahatlığını və təhlükəsizliyini qoruyar. Çünki İslam əxlaqında həmrəylik, birlik və bərabərlik çox əhəmiyyətlidir. Hər insan özündən əvvəl digər insanların rahatlığını və mənfəətini düşünməlidir. Quranda möminlərin bu əxlaqı belə bildirilir:

**Mühacirlərdən əvvəl Mədinədə yurd salmış, sonra da iman gətirmiş kimsələr öz yanlarına hicrət edənləri sevir, onlara verdiklərinə görə qəlblərində peşmançılıq hissi duymurlar. Hətta özləri ehtiyac içində olsalar belə, onları özlərindən üstün tuturlar. Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır. (Həşr surəsi, 9)**

Allah qorxusu ilə hərəkət edilən belə bir mühitdə hər kəs cəmiyyətin rifahı üçün çalışar, israf edilməz, həmrəylik, əməkdaşlıq və qarşılıqlı bir-birinin mənfəətini güdmə olar və bunun sayəsində də rifah səviyyəsi yüksək olan, zəngin bir cəmiyyət meydana gələr.

Belə bir cəmiyyətdə maddi istiqamətdən zənginliklə yanaşı, mənəvi istiqamətdən də zənginlik yaşanar. İnsanların hadisələr qarşısında meydana gətirdikləri qarışıqlıq halı, üsyankar rəftarlar tamamilə ortadan qalxar. Hər kəs təvəkküllü davranar və hər problemə ağıllı həll yolları gətirilər, hər hadisə sükunətlə həll edilər. Daim hüzur mühiti içində olan bir həyat davam etdirilər. Sevinc, səmimiyyət, sevgi, dostluq və qardaşlıq içində yaşanar.

## 11- Quran əxlaqına tabe olmağın ailəyə gətirdiyi faydalar nələrdir?

Quran əxlaqında ana və ataya qarşı hörmət vardır. Allah Quranda belə bildirir:

**Biz insana ata-anasının qayğısına qalmağı əmr etdik. Anası onu bətnində gündən-günə zəiflədiyinə baxmayaraq daşımışdır. Onun süddən kəsilməsi isə iki il ərzində olur. Mənə və valideynlərinə şükür et! Axır dönüş Mənədir. (Loğman surəsi, 14)**

Quran əxlaqının yaşandığı bir evdə dava, narahatlıq, dolanışıqsızlıq olmaz. Anaya, ataya və digər ailə fərdlərinə qarşı son dərəcə hörmətli bir rəftar göstərilər. Hər zaman müjdəli və sevincli bir mühitdə yaşanar.

## 12- Quran əxlaqına tabe olmağın dövlət sisteminə gətirdiyi faydalar nələrdir?

Allah Quranda itaət etməyi məqbul bir əxlaq olaraq göstərir. Quran əxlaqına sahib bir insan da qəti olaraq dövlətinə qarşı itaətli və hörmətli olar. Belə cəmiyyətlərdə hər kəs dövlətin və millətin rifahı üçün çalışar, dövlətə qarşı çıxmaz, əksinə maddi və mənəvi dəstək təmin edər.

Allahdan qorxan insanların meydana gətirdiyi cəmiyyətlərdə məhkəməlik hadisələr demək olar ki, heç olmaz. İndiki cəmiyyətlərdə yaşanan hadisələrin mində biri belə yaşanmaz.

Dövlət rəhbərliyi çox rahatlayar. Anarxiya, terror, fitnə-fəsad, cinayət kimi hadisələrlə məşğul olmaq məcburiyyətində qalmayacağı üçün dövlətin bütün gücü ölkənin daxildə və xaricdə inkişafı və güclənməsi üçün sərf edilər. Bunun nəticəsində də çox güclü bir dövlət yaranar.

## 13- Quran əxlaqına tabe olmağın incəsənətə gətirdiyi faydalar nələrdir?

Quran əxlaqına tabe olan insanlar bir-birlərinə dəyər verir və bir-birlərini hər istiqamətdən gözəl və estetik bir mühitdə yaşatmağa çalışırlar. Cənnətə duyulan həsrətdən ötrü dünya şərtlərindən maksimum istifadə edərək ən gözəl, ən təmiz, gözə, qulağa və bütün duyğulara ən gözəl şəkildə xitab edən mühitlər yaradılır. Bu səbəblə, incəsənət və estetika hər istiqamətdən çox inkişaf edər.

Dindar bir insanın vicdanı da təmizdir və bu səbəblə, ağlının üzərində hər hansı bir təzyiq olmaz, çox geniş düşünərək ortaya gözəl və unikal, təqliddən uzaq əsərlər çıxarar. Həmçinin, digər dindar insanları da məmnun etmək, onlara gözəlliklər təqdim etmək istəyi ilə işləyən insanlar, səmimi və şövqlü olarlar.

## 14- Quran əxlaqına tabe olmağın təhsil sisteminə gətirdiyi faydalar nələrdir?

Hər şeydən əvvəl Quran əxlaqını yaşamaq, uşaqlara və gənclərə yetkinlik, ağıl, əsil sevinc, rahatlıq və hüzur gətirər. Bəzi cəmiyyətlərdə gənclər arasında yayılmış olan, hissiz, laqeyd xarakter Qurana tabe olan gənclərdə görülməz. Son dərəcə mülayim, itaətli, geniş düşünən, fədakar, yaradıcı bir nəsil meydana gələr. Gəncliyin dinamizmi, həyəcanı, fədakarlığı həmişə xeyirli işlərə yönəldilər. Əhəmiyyətli bir iş və ağıl gücü meydana gələr. Belə bir mühitdə tələbələr yalnız sinif keçmək və ya cəzadan xilas olmaq üçün deyil, zövqlə və istəyərək dövlətə və millətə fayda gətirmək üçün təhsillərinə son dərəcə əhəmiyyət verərlər.

Məktəblərdə intizam hadisələri tamamilə ortadan qalxar. Çox dinc, konstruktiv və məhsuldar bir təhsil mühiti meydana gələr. Müəllimlər və şagirdlər arasında itaətə, hörmət və tolerantlığa əsaslanan bir əməkdaşlıq meydana gələr. Həmçinin tələbələr dövlətə, polisə qarşı da son dərəcə hörmətli və itaətkar olarlar, indiki vaxtda tez-tez qarşılaşılan şagirdlər arasında baş verən hadisələr heç yaşanmaz. Çünki belə bir şeyi tələb edən mühit meydana gəlməz.

## 15- Quran əxlaqına tabe olmağın iş mühitlərinə gətirdiyi faydalar nələrdir?

Quran əxlaqını yaşayan insanların olduğu cəmiyyətlərdə, iş yerlərində də qarşılıqlı anlayış, əməkdaşlıq və ədalət mühiti olar. İş sahibləri işçilərinin sağlamlıqları ilə məşğul olar, iş görülən mühiti sağlamlıq şərtlərinə ən uyğun hala gətirər. Çox uzun müddət eyni mühitdə

olacaqlarını düşünərək estetik və gözə xoş gələn məkanlar hazırlayar. Əməklərinin tam qarşılığını verər. Hər hansı bir işçisini qətiyyən zərər çəkmiş vəziyyətdə buraxmaz. Hər birinin ailəsinin həyat şərtlərindən xəbərdar olar. Son dərəcə vicdanlı davranaraq, onların hamiliyini boynuna götürər. Güclünün zəifi əzdiyi bir mühit əsla meydana gəlməz. Dedi-qodu, müvəffəqiyyətli birini qısqanaraq onun müvəffəqiyyətinə maneə olma kimi qeyri-əxlaqi rəftarlara da rast gəlinməz. İşçilərlə işə götürən arasında mənfəətə və bir-birini aldatmağa deyil, əməkdaşlıq və güvənə əsaslanan bir əlaqə olar. İşləyən insan iş yerinin hər cür mənfəətini güdər, "necə olsa pulunu müdir verir" deyərək israf etməz, edə biləcəyinin ən yaxşısını edər. Amma bu gözəl əxlaqından ötrü də zərər çəkmiş vəziyyətdə qalmaz, müdiri tərəfindən himayə edilər.

## 16- "Allaha şərik qoşmaq" (şirk) nədir?

Şirk, bir insanı, ya da hər hansı bir varlığı, bir anlayışı qiymətləndirmə, əhəmiyyət vermə, seçim etmə, üstün tutma baxımından Allahla bərabər və ya daha irəli səviyyədə görmək və bu səhv dünyagörüşüylə hərəkət etmək deməkdir. Allah Quranda bu vəziyyəti "Allahdan başqa ilah etmək" kimi müəyyən edər. Bir başqa sözlə, Allahın hər hansı bir sifətinə başqasının sahib olduğunu iddia etmək şirk qoşmaq deməkdir. Allah Quranda şirkin bağışlanılmayacağını xəbər vermişdir:

**Şübhəsiz ki, Allah Özünə şərik qoşulmasını bağışlamaz, bundan başqa daha kiçik günahları isə istədiyi kimsəyə bağışlayar. Allaha şərik qoşan kəs iftira atmaqla böyük bir günah etmiş olur. (Nisa surəsi, 48)**

## 17- Bir şeyi "bütləşdirmək" nə deməkdir?

"Bütləşdirmək" xalq arasında yalnız bəzi heykəllərə ibadət mənasıyla bilinir. Halbuki, bu anlayışın çox daha geniş bir mənası vardır və yalnız keçmiş dövrlərə aid deyil. Hər dövrdə Allaha şirk qoşan və başqa ilahlar qəbul edən, bütlərə tapınan cahil insanlar olmuşdur. Bir şeyi özünə bütləşdirmək insanın mütləq bütləşdirdiyi şey üçün "bu bir ilahdır, mən buna pərəstiş edirəm" deməsi və ya o varlığın qarşısında səcdə etməsi lazım deyil.

Bütləşdirmənin təməlində insanın, bir şeyi və ya bir kimsəni Allahdan üstün tutma səhvinə düşməsi durar. Buna nümunə olaraq da, bir kimsənin razılığını Allahın məmnuniyyətindən üstün tutması, bir kimsədən Allahdan qorxan kimi qorxmağı, ya da onu Allahı sevərcəsinə sevməyi verə bilərik.

Quranda Allah, insanların Allaha şərik qoşduqları bütlərin onlara bir fayda təmin edə bilməyəcəkləri belə bildirir:

**Siz Allahı qoyub ancaq bütlərə ibadət edir və yalan uydurursunuz. Şübhəsiz ki, Allahdan başqa ibadət etdikləriniz sizə ruzi verməyə qadir deyillər. Elə isə ruzini Allahdan diləyin, Ona ibadət edin və Ona şükür edin. Siz ancaq Ona qaytarılacaqsınız". (Ənkəbut surəsi, 17)**

## 18- İnsan şirkdən necə xilas olar?

İnsanın əvvəlcə Allahın tək ilah olduğunu, bütün gücün Ona aid olduğunu, Ondan başqa heç bir varlığın zərər və ya fayda təmin etməyə gücü çatmayacağını ürəkdən təsdiq etməsi lazımdır. Bu həqiqətləri qəti olaraq təsdiq edən insan, artıq yalnız Allaha qulluq edir və Ona heç bir şeyi ortaq qoşmur. Allah insanlara şirkdən xilas olmaq üçün tamamilə Özünə yönəlmələri lazım olduğunu söyləmişdir:

**Xeyr! Siz yalnız Onu çağıracaqsınız. Əgər Allah istəsə, Ona uzaqlaşdırması haqqında yalvardığınız bəlanı aradan qaldırar və şərik qoşduğunuz şeyləri unudarsınız. (Ənam surəsi, 41)**

Şirkdən təmizlənib, yalnız Allaha yönələn insanın yaşadığı əsaslı dəyişiklik, əvvəlcə ürəyində meydana gələr. Şirkdən xilas olan adam tamamilə fərqli bir dünyagörüşünə və məntiqə sahib olar. Əvvəllər öz istək və ehtiraslarına, ya da bəzi cahillik qaydalarına görə davam etdirdiyi həyatını artıq yalnız Allahın razılığına və məmnuniyyətinə görə davam etdirər.

## 19- Allahın rizasının ən çoxunu seçmək nə deməkdir?

Olduğunuz yer nəhəng bir sel fəlakəti ilə qarşı-qarşıya qalınca nə edərsiniz? Ən üst qata çıxaraq xilas edilməyi gözləyərsiniz, yoxsa sular yüksəldikcə qatları bir-bir çıxarsınız? Ən üst qata çıxarkən yavaş davranarsınız, yoxsa var gücünüzlə yuxarıya çatmağa çalışarsınız? Belə bir anda insanı xilas edəcək alternativlərdən ən sürətli nəticəyə çatdıracaq olanı seçmək heç şübhəsiz ki, ən ağıllı davranışdır. Bunun əksinə, bir seçim düşünülə bilməz. İnsan olduqca ən sürətli şəkildə ən üst qata çıxaraq bu işdə ən çox edə biləcəyini etmiş deməkdir. Məhz bu, "ən çoxunu seçmək" dir.

Mömin də əlindəki hər cür maddi və mənəvi imkanını, həyatının hər saatını, hətta hər saniyəsini Allahın razılığına uyğun bir şəkildə qiymətləndirər. Bunu edərkən qarşısına çıxan alternativlər arasında bir seçim etmək vəziyyətində qalsa, ağıl və vicdan istifadə edərək hərəkət edər. yəni Allahın razı olacağı şəkildə davranar. Bu şəkildə Allahın rizasının ən çoxuna uyğun hərəkət etmiş olar. Allahın rizasını güdərək bir iş etmək, Allahın razılığının ən çoxuna uyğun hərəkət etməkdir. Allah Quranda belə bildirmişdir:

**Şübhəsiz ki, iman gətirib yaxşı işlər görənlər isə; Biz həqiqətən ən gözəl davranışda olanın mükafatını əsirgəmirik. (Kəhf surəsi, 30)**

## 20- Qəti iman nə deməkdir?

Bir insan əlini oda uzatdığında yanacağını bilər, bundan heç bir şübhəsi yoxdur. "Görəsən həqiqətən yanarmı?" kimi bir düşüncəyə qapılmaz. Bu adam atəşin əlini yandıracağına qəti bir məlumatla inanır deməkdir. Quran ayələrində isə "qəti olaraq iman" dan bu şəkildə bəhs edilir:

**Bu Quran insanlar üçün açıq-aydın bir dəlil, qəti inananlar üçün isə doğru yol göstəricisi və mərhəmətdir. (Casiyə surəsi, 20)**

Qəti olaraq iman, yuxarıda od nümunəsində olduğu kimi qəti bir əminliklə, heç bir şübhə duymadan, o an ətrafında gördüyü, danışdığı şeylər qədər həqiqət olduğuna əmin olaraq Allahın varlığına, təkliyinə, qiyamət gününə, cənnətin və cəhənnəmin varlığına iman etmək deməkdir. Qəti məlumata əsaslanan bir iman, insanın hər hərəkətini, həyatının hər anını yalnız Allahı razı edəcək şəkildə keçirəcək bir vicdana yönəldir.

## 21- Davranışlarımdan hansının Allah rizasına daha uyğun olduğunu necə anlayaram?

Allah Özündən qorxan insanın vicdanına hər zaman mütləq ən doğru olanı ilham edər. Allah bir ayədə belə bildirir:

**Ey iman gətirənlər, Allahdan qorxsanız, sizə doğrunu səhvdən ayıran bir nur və anlayış (furqan) verər, günahlarınızın üstünü örtüb sizi bağışlayar. Allah böyük fəzl sahibidir. (Ənfal surəsi, 29)**

Həmçinin unutmamaq lazımdır ki, ümumiyyətlə insanın ürəyində ilk duyduğu səs doğrunu səhvdən ayırd etməsini təmin edən vicdanının səsidir və Allahın razı olacağı rəftar ilk duyulan səsin söylədiyidir. Məhz Allahdan qorxan insanlar da, vicdanlarının səsini dinləyərək doğrunu taparlar.

## 22- İnsanın ürəyində vicdanının xaricində bir səs vardırmı?

İnsanın vicdanının səsindən sonra gələn digər alternativlərin hamısı vicdanı basdırmağa çalışan "nəfsin səsi" dir. Nəfs insanı var gücü ilə doğru olandan saxlayıb, ona pis olanı etdirməyə çalışır.

Bunu çox açıq şəkildə etməyə bilər. Bir insana məqbul gələ biləcək bəzi bəhanələr irəli sürə bilər, "bundan bir şey olmaz" dedirdə bilər. Allah bu həqiqəti Quranda belə bildirir:

**And olsun nəfsə və onu yaradıb kamilləşdirənə, ona günahları və Allahdan qorxmağı təlqin edənə! Nəfsini günahdan təmizləyən uğur qazanmışdır.(Şəms surəsi, 7-9)**

Ayədə də bildirildiyi kimi, insana həm pisliklər, həm də bu pisliklərdən çəkinmək ilham edilir. İnsan isə bunlardan hansına uyğun gələcəyi mövzusunda sınanar.

## 23- Necə görürük?

**Allah sizi analarınızın bətnindən heç nə anlamadığınız bir halda çıxartdı, sizə qulaq, göz və ürək verdi ki, bəlkə şükür edəsiniz (Nəhl surəsi, 78)**

Görmə hadisəsi çox mərhələli şəkildə reallaşır. Görmə əsnasında hər hansı bir cisimdən gələn işıq seli, gözün önündəki büllurdan qırılaraq keçir və gözün arxa tərəfindəki retinaya tərs olaraq düşər. Buradakı hüceyrələr tərəfindən elektrik siqnalına çevrilən görmə siqnalları sinir vasitəsilə beyinin arxa hissəsindəki "görmə mərkəzi" adı verilən kiçik bir bölgəyə çatarlar. Bu elektrik siqnalı bir sıra əməliyyatdan sonra beyindəki bu mərkəzdə görüntü olaraq qəbul edilir. Yəni görmə əslində beyinin arxasındakı kiçik, işığın heç bir şəkildə daxil ola bilmədiyi, qapqaranlıq bir nöqtədə yaşanır.

İnsan, "görürəm" deyərkən, əslində gözünə gələn xəbərdarlıqların elektrik siqnalına çevrilərək beynində meydana gətirdiyi "təsiri" görür. Yəni "görürəm" deyərkən, əslində beynindəki elektrik siqnallarını seyr edər.

Oxuduğunuz kitab da, üfüqə baxdığınızda gördüyünüz ucsuz-bucaqsız mənzərə də bu kiçik yerdə meydana gəlir. Bu həqiqət, digər duyğularımızla əldə etdiyimiz hisslər üçün də keçərlidir.

## 24- Maddənin "əsli ilə təmasda olmamaq" nə deməkdir?

Dünya ilə əlaqədar bütün məlumatlarımız bizə beş duyğu vasitəsi ilə çatır. Yəni biz gözümüzün gördüyü, əlimizin toxunduğu, burnumuzun iylədiyi, dilimizin daddığı, qulağımızın eşitdiyi dünyanı tanıyırıq. Ancaq bu gün bir çox elm sahəsində aparılan tədqiqatlar, hisslərimizin yalnız elektrik siqnallarının beynimizdə yaratdığı təsir olduğunu söyləyir. Buna görə xarici dünyadakı insanların, rənglərin, sahib olduğumuz hər şeyin yalnız beynimizə çatan surəti ilə təmasda oluruq.

Məsələn, bir meyvəni düşünək: Meyvənin dadı, qoxusu, görünüşü, sərtliyi ilə əlaqədar elektrik siqnalları sinirlərimiz vasitəsiylə beynimizə çatar və orada meyvəni meydana gətirər. Əgər beyinə çatan siqnallarda bir fasilə olsa, meyvəylə bağlı hisslər də ortadan qeyb olar. Buradan da anlayırıq ki, bizim meyvə olaraq qəbul etdiyimiz şey, əslində beynimizə çatan hisslərin toplusudur. Meyvə xaricdə vardır, ancaq biz meyvənin xaricdəki halını heç bir zaman bilmərik. Yəni, bu "hisslər toplusu" nun xaricimizdə var olan əsli ilə heç bir şəkildə təmasda ola bilmərik. Çünki heç bir zaman beynimizin xaricinə çıxma, bu hisslərdən başqa bir şeylə təmasda olma imkanımız yoxdur.

## 25- Xarici dünyanın əslinə çata bilərikmi?

Xarici dünyanın əslinə heç bir zaman çata bilmərik. Həyatımız boyunca yalnız zehnimizə çatan elektrik siqnalları ilə təmasda olduğumuza görə, biz yalnız zehnimizdəki hissləri bilirik. Tanıdığımız tək dünya, zehinimizin içində olan, orada çəkilən, səsləndirilən və rənglədirilən, qısacası zehinimizdə meydana gələn bir dünyadır.

## 26- Yuxumuzu da zehinimizdə yaşamırıqmı?

Bəli, yuxularımız bu mövzunu anlamaq üçün çox yaxşı bir nümunədir. Yuxuda tamamilə həqiqət kimi görünən hadisələr yaşayar, insanlar, obyektlər, mühitlər görərik. Amma bunların hamısı yuxuda vardır və bir hissdən başqa bir şey deyil. "Yuxu" kimi "real dünya" da zehində yaşanır. Yuxuda zehindəkilərin xaricində heç bir şey yoxdur, həqiqi dünyada isə xaricdə var olan maddənin əslinə heç bir zaman çata bilmərik, sadəcə zehnimizdə qəbul edilən halını bilirik.

## 27- Bütün maddələrin yalnız qəbuluyla təmasda isək, o zaman beynimizdəki nədir?

Beynimiz də qolumuz, ayağımız və ya başqa hər hansı bir obyekt kimi maddi dünyanın bir parçası olduğuna görə, onun da yalnız qəbuluyla təmasda olarıq. Bu mövzunu daha yaxşı açıqlamaq üçün yuxu ilə əlaqədar bir nümunə verə bilərik: Bir yuxu gördüyümüzü düşünək. Yuxuda xəyali bədənimiz olacaq. Xəyali bir qolumuz, xəyali bir gövdəmiz, xəyali gözümüz, xəyali beynimiz. Yuxu əsnasında bizə "harada görürsən?" kimi bir sual soruşulsa verəcəyimiz cavab "beynimdə görürəm" olacaq. Amma ortada həqiqi beyin yoxdur. Yalnız xəyali bədən, xəyali bir kəllə və xəyali beyin var. Yuxumuzdakı görüntünü görən iradə isə yuxudakı xəyali beyin deyil, ondan daha "dərin" varlıqdır.

## 28- Hiss edən kimdir?

İnsanlara bu günə qədər qəbul edənin beyin olduğu öyrədilmişdir. Halbuki, beyini analiz etdiyimizdə qarşımıza digər canlı orqanlarda olan zülal və yağ molekullarından fərqli bir şey çıxmaz. Yəni beyin dediyimiz ət parçasında, görünüşləri seyr edəcək, şərh edəcək, şüuru meydana gətirəcək, qısacası "mən" dediyimiz şeyi yarada biləcək bir şey yoxdur.

Bu nöqtədə qarşımıza çıxan həqiqət açıqdır: Görən, eşidən və hiss edən varlıq, maddə kənarında bir varlıqdır. Bu varlıq "canlı" dır və nə maddə, nə də görüntü deyil. Bu varlıq bədən görüntümüzdən istifadə edərək qarşısındakı hisslərlə təmasda olur.

Məhz bu varlıq "ruh" dur. Allah Quranda belə bildirir:

**Sənə Ruhdan soruşarlar; de ki: "Ruh Rəbbimin əmrindəndir, sizə elmdən yalnız az bir bilik verilmişdir." (İsra surəsi, 85)**

## 29-Təmasda olduğumuz dünya, həqiqətdə ruhumuzun gördüyü hisslər isə, o halda bu hisslərin qaynağı nədir?

Bu suala cavab verərkən diqqət edilməliolan həqiqət budur; biz maddəni yalnız xəyalımızda görərik, çöldəki əsli ilə heç vaxt təmasda ola bilmərik. Maddə bizim üçün bir qavrayış olduğuna görə, "süni" bir şeydir. Yəni bu qavrayışın bir başqa güc tərəfindən edilməsi, daha açıq bir ifadəylə yaradılması lazımdır. İçində yaşadığımız maddi kainatı yaradan və daima yaratmağa davam edən üstün bir Yaradıcı vardır. Necə ki, o Yaradıcı bizə endirdiyi kitab yolu ilə Özünü, kainatı və bizim nə səbəblə var olduğumuzu izah edər. O Yaradıcı Allah, kitabının adı isə Qurandır.

Göylərin və yerin, sabit və qərarlı olmadığı, Allahın yaratmasıyla var olduqları və O yaratmağı dayandırdığında yox olacaqları bir ayədə belə ifadə edilir:

**Həqiqətən, Allah göyləri və yeri tərpənməsinlər deyə, tutub saxlayır. Əgər tərpənsələr, Ondan başqa onları heç kəs tutub saxlaya bilməz. Həqiqətən də, O, Həlimdir, Bağışlayandır. (Fatir surəsi, 41)**

## 30- Allahın hər şeyi əhatə etməsi, bizə şah damarımızdan yaxın olması necə olur?

Maddi varlıqlar Allahı görə bilməzlər, amma Allah, Öz yaratdığı maddəni hər şəkliylə görər. Yəni biz Allahın varlığını gözlərimizlə qavraya bilmərik. Amma Allah bizim daxilimizi, xaricimizi, baxışlarımızı, düşüncələrimizi tam olaraq əhatə etmişdir. Onun məlumatı xaricində, tək bir söz söyləyə bilmərik, hətta tək bir nəfəs belə ala bilmərik.

Allahın bizə göstərdiyi hissləri seyr edərkən, yəni həyatımızı yaşayarkən də bizə ən yaxın olan varlıq, Allahın Özüdür. Quranda yer alan **"And olsun ki, insanı Biz yaratdıq və nəfsinin ona nə vəsvəsə etdiyini də Biz bilirik. Biz ona şah damarından daha yaxınıq."** (Qaf surəsi, 16) ayəsinin sirri də bu həqiqətdə gizlidir. Bir insan öz bədəninin əsli ilə təmasda olduğunu zənn etdiyində və gördüyü hər anın zehnində reallaşdığını düşünmədiyində, bu əhəmiyyətli həqiqəti qavraya bilməz. Çünki "özü" zənn etdiyi yer beynidirsə, çölü olaraq qəbul etdiyi yer özünə 20-30 sm kimi müəyyən uzaqlıqda olar. Amma maddənin yalnız beynindəki surətiylə təmasda olduğunu qavradığında, artıq xarici, daxili, uzaq, yaxın kimi anlayışlar mənasızlaşar. Allah özünü əhatə etmişdir və ona "sonsuz yaxın" dır.

## 31- Allah sevgisi kafi deyilmi, mütləq Allahdan qorxmaq lazımdırmı?

Qurana görə olan həqiqi sevgi özü ilə hörməti və Allahın bəyənmədiyi şeylərdən çəkinməyi də gətirir. Yalnız sevginin kafi olacağını müdafiə edən insanların həyatlarına və hərəkət tərzlərinə baxdığımızda bu mövzuda zəif davrandıqlarını görərik. Halbuki, səmimi olaraq Allahı sevən bir insan hər şeydən əvvəl Onun əmrlərində son dərəcə dəqiqlik göstərər, çəkindirdiyi şeylərdən şiddətlə çəkinər, gözəl gördüyü rəftarlara yönələr. Sevgisini, həyatının hər anında Rəbbimizin razılığını axtararaq, Ona olan dərin hörməti, etibarı, itaətkarlığı və sədaqəti ilə göstərər.

Bu diqqətliliyin bir nəticəsi olaraq, Allahın razılığını itirməkdən, əzabına uğramaqdan da şiddətlə qorxar. Yoxsa yalnız şifahi olaraq sevgi iddiasında olmaq, lakin Allahın sərhədlərini aşaraq düşüncəsiz bir həyat sürmək, şübhəsiz səmimiyyətdən son dərəcə uzaq bir davranışdır. Allah Quranda Özündən qorxub çəkinməyi əmr etmişdir:

**Tövbə edərək Ona üz tutun, Ondan qorxun, namaz qılın və şərik qoşanlardan olmayın! (Rum surəsi, 31)**

## 32- Səmimi bir möminin Allah qorxusu necə olmalıdır?

Allahın varlığını bilən, Onu üstün sifətləriylə tanıyan hər insan Allahdan şiddətlə qorxar. Çünki Allah sonsuz şəfqət və mərhəmət sahibidir, ancaq bununla bərabər Qahhar (qəhr edən), Həsib (hesab görən), Muazzib (əzab verən), Muntəkim (intiqam alan), Saik (cəhənnəmə aparan) sifətlərinin də sahibidir. Buna görə müsəlmanlar Allahdan içləri titrəyərək qorxar, Onun əzabından əmin oluna bilməyəcəyini bilərlər. Etdikləri hər işin haqq-hesabının soruşulacağının şüurunda olduqları üçün Allahın məmnun olmayacağı bir rəftar göstərməkdən şiddətlə çəkinərlər. Amma bunu da qeyd etmək lazımdır ki, burada bəhsi keçən qorxu, dinsiz cəmiyyətlərdə yaşanan klassik qorxudan tamamilə fərqli, möminə hüzur verən, onu hərəkətə

keçirən, Allahı razı etmə mövzusunda şövqləndirən bir qorxudur. Allah möminlərə bunu əmr etmişdir:

**Nə qədər bacarırsınızsa Allahdan qorxun. Peyğəmbərə qulaq asıb itaət edin və malınızdan öz xeyriniz üçün xərcləyin. Nəfsinin tamahından qorunanlar nicat tapanlardır. (Təğabun surəsi, 16)**

## 33- Quranı hər oxuyan anlaya bilər.

Allah Quranı bütün insanlara yol göstərici rəhbər olaraq endirmişdir, məhz bu səbəblə, Quran son dərəcə aydın və açıqdır. Allah Quranın bu **xüsusiyyətini "... Sizə Allahdan bir nur və açıq-aşkar bir Kitab gəldi"** ayəsiylə xəbər vermişdir. (Maidə surəsi, 15) Bir başqa ayədə isə Quran üçün belə deyilir:

**Biz onu (Quranı) açıq-aşkar ayələr nazil etdik; Şübhəsiz ki, Allah istədiyini doğru yola yönəldər. (Həcc surəsi, 16)**

Qurandakı hikmətləri görmək və Quranın üstün xüsusiyyətlərini qavraya bilmək üçün Quranı oxuyan adam yüz faiz səmimi olmalı və həmişə vicdanına uyğun düşünməlidir.

Ancaq bunu da qeyd etmək lazımdır ki, müsəlmanlar öz şəxsi şərh və düşüncələrinə görə Qurandan hökm çıxarmaqdan şiddətlə çəkinməlidirlər. Bu mövzularda cavab axtaran kəslərin böyük Əhli Sünnə alimləri tərəfindən hazırlanmış ilmihallara (dinin əsaslarına) müraciət etməsi ən doğru davranış olacaq.

## 34- Quran və Peyğəmbərimiz (s.ə.v)-in sünnəti möminlər üçün tək rəhbərdir.

Quran bir mömінin ömrü boyunca müraciət edəcəyi yeganə rəhbərdir. Allah Peyğəmbərimiz (s.ə.v)-in xanımlarına xitab olaraq endirdiyi bir ayəsində **"evlərinizdə oxunan Allahın ayələrini və hikməti xatırlayın ..." (Əhzab surəsi, 34)** deyə buyuraraq, bütün möminləri Quranı oxuma mövzusunda təşviq etmişdir. Bu ayədən də aydın olduğu kimi, möminlər evlərində Quran oxuyur və ayələri də yaddaşlarında saxlayırlar. Ancaq əhəmiyyətli olan Quran ayələrinin oxunaraq hamısının həyata keçirilməsi və böyük bir dəqiqliklə tətbiq olunmasıdır.

Quranın necə tətbiq olunduğunu görmək üçünsə ən doğru qaynaq Peyğəmbərimiz (s.ə.v)-in həyatı və tətbiq etdikləri, yəni sünnəsidir.

## 35- Quran hər dövrə xitab edər.

Allah Quranı bütün aləmlərə və bütün zamanlara bir yol göstərici olaraq endirmişdir. Bir ayədə belə deyilir:

**Bu, insanlar üçün bir açıqlama, doğru yolu göstəricisi və öyüd-nəsihətdir. (Ali İmran surəsi, 138)**

Allah, Quranda keçmiş hadisələrdən nümunələr verir ki, tarix boyunca yaşayan bütün insanlar bu hadisələrdən ibrət alsınlar və eyni səhvləri təkrarlamasınlar. Quranda izah edilən hadisələrin hər birinin bənzərlərinə isə indiki vaxtda da rast gəlmək mümkündür.

## 36- Allah Quran ayələrini təhrif olmadan günümüzə qədər saxlamışdır.

Quranı Allah qorumuşdur və 1400 ildir heç bir dəyişiklik olmadan günümüzə qədər gəlmişdir. Allah bu həqiqəti ayələriylə bizə bildirir:

**Şübhəsiz ki, Zikri Biz nazil etdik, əlbəttə, Biz də onu qoruyacağıq. (Hicr surəsi, 9)**

**Rəbbinin kəlamı həm doğruluq, həm də ədalət baxımından tamamlanmışdır. Heç kəs Onun kəlmələrini dəyişə bilməz. O, Eşidəndir, Görəndir. (Ənam surəsi, 115)**

Allahın bu vədləri inanan insanlar üçün kifayətdir. Lakin bunların xaricində Allah, Qurana bəzi elmi və riyazi möcüzələr qoyaraq da, onun Haqq Kitab olduğunu bizə göstərmişdir.

## 37- Quranın elmi möcüzələri nələrdir?

Quran 1400 il əvvəl vəhy olmasına baxmayaraq, o dövrdə qətiyyən bilinməyən, indiki vaxtda elmin və texnologiyanın son imkanları istifadə olunaraq kəşf olunmuş bir çox elmi həqiqəti insanlara bildirir. Quranın bu xüsusiyyətləri, onun Allah Qatından endirilmiş olduğunu son dərəcə açıq olaraq göstərir. Bu möcüzələrdən bəziləri bunlardır:

Kainatın daim genişləməsi XX əsrin ən əhəmiyyətli kəşflərindən biri olaraq xarakterizə edilir. Ancaq Allah bu həqiqəti bizə 1400 il əvvəl Quranın Zəriyət surəsinin 47-ci ayəsində bildirmişdir:

**Biz göyü qüdrətlə yaratdıq və Biz onu genişləndiririk.**

Göy cisimlərinin hesablanmış bir orbit üzərində hərəkət halında olduqları bundan əsrlər əvvəl Quranda belə xəbər verilmişdir:

**Gecəni, gündüzü, günəşi və ayı da yaradan Odur. Onların hər biri öz orbitində üzür. (Ənbiya surəsi, 33)**

Quranda Günəş və Aydan bəhs edən ayələrin ərəbcəsi araşdırıldığında maraqlı bir xüsusiyyət gözə dəyər. Ayələrdə Günəş üçün "sirac" (lampa) və ya "vahhac" (par-par parlayan,

yanıb alovlanan) sözləri istifadə edilmişdir. Ay üçünsə "munir" (işıqlandırıcı, işıqlı) anlayışı vardır. Həqiqətən də Günəş öz içindəki nüvə reaksiyaları nəticəsində böyük bir istilik və işıq saçarkən, Ay yalnız Günəşdən aldığı işığı əks etdirir. Ayələrdə bu fərq belə keçər:

**Məgər Allahın yeddi göyü təbəqə-təbəqə necə yaratdığını görmürsünüz? Ayı bir nur, günəşi də çıraq etmişdir. (Nuh surəsi, 15-16)**

Quranda küləklərin "döllləndirici" xüsusiyyətindən Hicr surəsinin 22-ci ayəsində belə bəhs edilir:

**Biz küləkləri dölləndirici (buludlarda su əmələ gətirən, bitkiləri tozlandıran bir vasitə) kimi göndərdik, göydən yağmur yağdırıb onu sizə içirtdik ... (Hicr surəsi, 22)**

Bəhs edilən ayədə keçən "**dölləndirici**" sözünün ərəbcə qarşılığı həm bitkilərin, həm də buludların döllənməsi mənasını daşıyır. Necə ki, müasir elm, küləklərin hər iki funksiyaya da sahib olduğunu göstərmişdir.

Başqa bir Quran möcüzəsinə bir ayədə belə diqqət çəkilir:

**O, göyləri və yeri bir həqiqət kimi yaratmışdır. O, gecəni gündüzə bürüyür, gündüzü də gecəyə bürüyür ... (Zumər surəsi, 5)**

Ayədə gecənin və gündüzün bir-birini bürüməsi üçün "**təkvir**" feli istifadə edilir. Bu fel dilimizdə "dairəvi bir şeyin üzərinə bir şey sarımaqdır" dır. Məsələn, ərəb lüğətlərində "başa sarıq sarma" kimi yumru cisimləri ehtiva edən hərəkətlər üçün bu söz istifadə edilir. Bu ayə, dünyanın forması mövzusunda qəti bir məlumat ehtiva edir. Ancaq və ancaq Dünyanın yumru olması vəziyyətində bu ayədə ifadə edilən fel reallaşa bilər. Yəni Vll əsrdə endirilən Quranda, dünyanın dairəvi olduğuna işarə edilmişdir.

## 38- Qurandakı söz təkrarları və 19 möcüzəsi nələrdir?

Quranda 19 sayının ayələrin içinə şifrəli bir şəkildə yerləşdirilmiş olması və bəzi sözlərin təkrar sayları kimi rəqəmsal möcüzələr də vardır.

Quranda təkrarlanan sözlər: Quranda bir-biriylə əlaqədar bəzi sözlər eyni sayda istifadə edilmişdir. Məsələn;

"Yeddi göy" ifadəsi 7 dəfə keçir.

"Dünya" və "axirət" sözləri 115 dəfə təkrarlanır.

"Gün (yəvm)" tək olaraq 365 dəfə keçərkən, çoxluq yəni "günlər (əyyam və yəvməyn)" sözləri 30 dəfə təkrarlanır. "Ay" sözünün təkrar sayı isə 12-dir.

"İman" və "küfr" sözləri Quran boyunca 25 dəfə təkrarlanır.

"De" sözlərini saydığımızda çıxan nəticə 332. "Dedilər" sözünü saydığımızda da eyni rəqəmi görürük.

"Şeytan" sözü 88 dəfə keçir. "Mələk" sözünün təkrar sayı da 88-dir.

**Quranda 19 möcüzəsi:**

Müddəssir surəsində **"Onun üzərində on doqquz vardır."** (Müddəssir surəsi, 30) ayəsiylə diqqət çəkilən 19 sayı Quranın bəzi ayələrinə şifrələnmişdir. Məsələn;

"Bəsmələ" 19 hərfdir.

Quran 114 surədən ibarətdir və 114 isə 19-un 6 qatıdır.

Quranın ilk vəhy edilən ayələri 96-cı surənin ilk 5 ayəsidir və bu ayələrin ümumi söz sayı 19-dur.

Son vəhy edilən surəsi olan Nəsr, cəmi 19 kəlmədən ibarətdir.

Vəhy edilən ilk surə 19 ayəyə malikdir.

Quranda keçən bütün sayları (təkrarlar nəzərə alınmadan) topladığımızda çıxan sayı; 162.146 yəni 19x8534-dür.

(Ətraflı məlumat üçün bax: www.Kuranmucizeleri.com)

## 39- Quranın gələcəyə istiqamətli verdiyi xəbərlər nələrdir?

Quranda həmçinin ayələrin riyazi olaraq araşdırılmasıyla əldə edilən başqa bir möcüzə daha vardır: Əbcəd hesabı.

Bu hesab üsulu, çox köhnə tarixlərə qədər uzanan və Quran nazil olmamışdan əvvəl çox istifadə olunan yazı şəklidir. Ərəb, fars və türk tarixində keçən bütün hadisələr, hərflərə rəqəm dəyəri verilərək yazılır və beləcə hər hadisənin tarixi də qeydə alınmış olurdu. Bu tarixlər, hər istifadə edilən hərfin xüsusi rəqəm dəyərlərinin cəmlənməsi ilə əldə edilirdi.

Əbcəd üsuluyla, Quranda keçən bəzi ayələr araşdırıldığında, bu ayələrin mənalarını uyğun olaraq bəzi tarixlərə uyğun gəldiyini görərik. Ayələrdə bəhs edilən hadisələrin, əbcəd hesablarıyla əldə edilən tarixlərdə reallaşdığını gördükdə isə, bəhs edilən ayələrdə hadisə ilə bağlı gizli bir işarə olduğunu anlamış olarıq. Diqqət çəkici əbcədlərə Qurandan verə biləcəyimiz bir neçə nümunə belədir:

### Hz. Məhəmməd (s.ə.v)-ə vəhyin başlanğıc tarixi

**Bu Kitab Qüdrətli və Müdrik Allahdan nazil edilmişdir (Zumər surəsi, 1)**

... Kitab Allahdandır ...

Miladi: 610 (vəhyin başlanğıc tarixi)

### İstanbulun fəthi

Bilindiyi kimi İstanbul dünyanın ən gözəl şəhərlərindən biridir və bu əbcəd dəyəri də son dərəcə diqqət çəkicidir.

**Səba qəbiləsinin yaşadığı yerdə nişanə – biri sağda, digəri də solda olan iki bağça var idi. Onlara: "Rəbbinizin ruzisindən yeyin və Ona şükür edin. Budur gözəl diyar və Bağışlayan Rəbb!" – deyilmişdi (Səba surəsi, 15)**

... Gözəl bir diyar ...

HİCRİ: 857, miladi: 1453

Aya çıxış tarixi

**Saat (qiyamət) yaxınlaşdı və ay bölündü. (Qəmər surəsi, 1)**

... Saat və ay yarıldı ...

HİCRİ: 1390 MİLADİ: 1969

## 40- Axirətin varlığını haradan bilirik?

Allah hal-hazırda insanları yalnız hissləri ilə təmasda olduqları, əslini bilmədikləri bir dünyada yaşadır. Bir hisslər toplusu olan bu dünyanı, bu cür qüsursuz və möhtəşəm bir yaradılışla, dərinliyi olan, üçölçülü, rəngarəng, parlaq görünüşlərlə var edən Allah, şübhəsiz ki, bundan çox daha gözəlini də yaratmağa qadirdir.

Allah insanın beynində indi necə bir dünya görünüşü yaradırsa, ölümünün ardından da fərqli bir ölçüyə keçirərək, fərqli bir mühitin görünüşünü göstərəcək. Məhz insana göstərilən o ölçü, axirət olacaq.

## 41- Reinkarnasiya nə deməkdir?

Reinkarnasiya əsli olmayan batil inancdır. Dini inancı olmayan insanların şüur altında "öldükdən sonra yox olma narahatlığı"nın bir nəticəsi olaraq, ya da dini inancı zəif olan insanların öldükdən sonra axirətə getmə qorxularının bir nəticəsi olaraq ortaya çıxmışdır. Hər iki sinif üçün də öldükdən sonra təkrar dünyaya gəlmək özlərinə görə cazibədar bir vəziyyətdir.

Halbuki, Qurandakı bir çox ayədə insanın imtahan edildiyi tək bir dünya həyatının olduğu vurğulanır. Həmçinin, ayələrdə ölümdən sonra dünyaya dönüş olmadığı da bildirilir. Bir ayədə insanın yalnız bir dəfə öləcəyi belə xəbər verilir:

**Onlar orada ilk ölümdən başqa heç bir ölüm dadmayacaqlar. Allah onları Cəhənnəm əzabından qorumuşdur (Duxan surəsi, 56)**

## 42- Ölüm yox olmaqdırmı?

Ölüm insanlar üçün yox olmaq deyil, əbədi olan, həqiqi olan axirət yurduna bir keçiddir. Ölümlə birlikdə dünya mühiti və bu mühitdə olan bədənlə əlaqə kəsilir. İnsanın bədəni ilə ruhunun əlaqəsi kəsilib, ruhu axirətdəki görünüşlərlə təmasda olmağa başladıqda, yəni insan öldükdə, gözünün önündəki pərdə qalxar və ölümün sandığı kimi bir yoxluq olmadığını anlayar. Hər gün yuxudan oyanaraq günə başladığı kimi, öldükdən sonra da dirilərək axirət həyatını yaşamağa başlayır. " **Dirildən də, Öldürən də Odur. O, bir şeyin olmasını istədikdə ona ancaq: "Ol" – deyir, o da olur.** " (Mömin surəsi, 68) ayəsiylə xəbər verildiyi kimi, insanların axirətə keçişi Allahın tək bir "Ol" deməsiylə olar.

## 43- Ölüm anında nələr yaşanır?

**Yoxsa günah qazananlar onları həyatda olduğu kimi, ölümlərindən sonra da iman gətirib yaxşı işlər görənlərlə eyni tutacağımızı güman edirlər? Nə pis mühakimə yürüdürlər! (Casiyə surəsi, 21)**

İnsanın ölümünün necə baş verdiyi Quranda təfərrüatlı olaraq təsvir edilmişdir. Quranda təsvir edilən ölüm, bədənin tibbi cəhətdən ölümündən fərqlidir. Quranda ölüm anında öləcək adam tərəfindən görünən, amma digər insanlar tərəfindən görünməyən bəzi hadisələrin reallaşdığı xəbər verilir.

Məsələn, Allahın varlığını təqdir edə bilməmiş, inkarçı bir insan, yuxusu əsnasında rahat bir şəkildə ölmüş kimi görünə bilər. Halbuki, əslində o anda başqa bir aləmə keçən ruhu, böyük ağrılar içində ölümü dadır. Ya da tam tərsinə, acı çəkdiyi sanılan bir möminin ruhu, əslində ayələrdə bildirildiyi kimi bədənindən mələklər tərəfindən gözəlliklə alınr.

İnkarçılarla iman edənlərin ölümləri əsnasında yaşadıqları hadisələr də bir-birindən tamamilə fərqlidir. Ayələrdə inkarçıların ölüm anında;

-Arxalarına və üzlərinə vurularaq canlarının alınacağından,

-Şiddətli sarsıntılar hiss edəcəklərindən,

-Mələklərin əbədi əzablarını müjdələyəcəklərindən,

-Canlarının bədənlərindən parçalanarcasına çıxarılacağından bəhs edilir.

Möminlərin isə;

-Ruhları bədənlərindən yumşaq bir şəkildə çəkilib alınacaq.

-Mələklər tərəfindən gözəlliklə və salamla qarşılanacaqlar.

-Mələklər cənnətlə müjdələyərək canlarını alacaq.

## 44- Kainat da ölümlüdürmü?

Allah Quranda kainatdakı bütün yaradılmışların xaricində kainatın da ölümünün olduğunu bildirir. Bütün heyvanlar ölər, bitkilər ölər, insanlar ölər. Planetlər də ölər, ulduzlar və Günəş də ölər. Bütün maddi varlıqlar qiyamətlə birlikdə ölər, yox olar. Kainatın ölümü olan qiyamət,

insanın daha əvvəl heç qarşılaşmadığı qədər böyük bir hadisədir. Quranda qiyamət günü belə bildirilir:

**O: "Qiyamət günü nə vaxt olacaq!" – deyə rişxəndlə soruşur.**

**Gözlər bərələ qalacağı,**

**ay tutulacağı**

**və günəşlə ayın qovuşacağı zaman –**

**o gün insan deyəcəkdir: "Hara qaçaq?**

**Xeyr, o gün pənah aparılacaq yer tapılmayacaq.**

**O gün qayıdış ancaq sənin Rəbbinə olacaqdır.**

**O gün insana əvvəllər etdiyi və sonraya saxladığı əməlləri barədə xəbər veriləcəkdir. (Qiyamət surəsi, 6-13)**

## 45- Qiyaməti o günə qədər yaşamış hər kəs görəcək, yoxsa yalnız o an yaşayanlar görəcək?

Qiyamət Surun üfürülməsiylə birlikdə başlayır. Böyük bir sarsıntı və qulaqları partladarcasına gələn bir gurultuyla birlikdə yer üzündəki bütün insanlar qorxunc bir fəlakətlə qarşılaşacaqlarını anlayarlar. Yer və göy parça-parça edilər və bütün maddi kainat ölər. Yer üzündə canlı heç bir varlıq qalmaz. Sur ikinci dəfə üfürülməsiylə birlikdə insanlar dirilirlər və məzarlarından çıxarlar. (Zumər surəsi, 68)

Bu dirilişdən sonra baş verən hadisələrə yaradılmış olan bütün insanlar şahid olarlar.

Ancaq Allah qiyamət gününün qorxusundan möminləri təhlükəsizlik və dhüzur içində tutacağını bildirmişdir:

**Hər kim yaxşı əməllə gəlsə, ona daha yaxşısı (Cənnət) verilər. Onlar o gün dəhşətli qorxu hissindən uzaq olarlar. (Nəml surəsi, 89)**

## 46- Hesab günündə necə bir sorğulama olacaq?

Hesab günündə hər kəs tək başına sorğu-sual olunacaqdır. Hesab günü insana dünya həyatı boyunca etdiyi hər şey, heç bir şey əksiklik olmadan göstəriləcək." **...Bir xardal dənəsi ağırlığında olsa da, bir qayanın içində, yaxud göylərdə və ya yerin dibində olsa da, Allah onu aşkar edər. Həqiqətən, Allah Lətifdir, Xəbərdardır.** (Loğman surəsi, 16) ayəsində də bildirildiyi üzrə insanın etdiyi heç bir şey gizli qalmayacaq. Bir insan dünya həyatında etdiklərini unuda bilər, ancaq Allah heç unutmaz və hesab günündə insanın önünə gətirər. Hesab günündə hər kəsin əlinə əməl dəftərləri verilər. Eyni zamanda insanların yaxşılıqlarını və pisliklərini ölçən həssas tərəzilər də ortaya qoyulmuşdur və bu hesabda zərrə qədər belə kimsəyə bir haqsızlıq edilməz. Hesab əsnasında insanın eşitmə və görmə duyğuları və dəriləri əleyhinə şahidlik edəcək və dünya həyatında etdiklərinə şahid olanlar da şahid olaraq gətiriləcəklər. İnkarçılar çətin sorğu-sualdan sonra cəhənnəmə göndəriləcəklər.

Möminlər üçün isə asan bir hesab olacaq və sorğu-sualdan sonra sevinc və qurtuluşun coşğusuyla cənnətə girəcəklər.

## 47- Hesab günündə insanlar bir-birlərinin günahlarını yüklənə bilərmi?

Allah Quranda bizə, hesab günündə hər kəsin öz etdiklərindən sorğuya çəkiləcəyini bildirmişdir. Dünyada etmiş olduqları, hər kəsə tək-tək göstəriləcək və Allahın icazəsi istisna olmaqla heç kim digərinə kömək edə bilməyəcək. Allah bu həqiqəti Quranda belə xəbər verir:

**Heç bir günahkar başqasının günah yükünü daşımaz. Yükü ağır olan kimsə öz yükünü daşımaq üçün başqasını köməyə çağırsa və çağırdığı kimsə yaxın qohumu olsa belə, o yükdən heç nə daşınmaz... (Fatir surəsi, 18)**

## 48- Bir insan axirətdə həqiqətləri gördüyündə, etdiklərini düzəltmək istəsə belə bir imkanı ola bilərmi?

O gün heç bir şey üçün bərpa etmə imkanı yoxdur. Ölümdən sonra iman etmək heç kimə qurtuluş verməyəcək. İnkarçılar ayələrdə də bildirildiyi üzrə hesab günündə özlərindən hər istənilən etmək üçün yalvaracaqlar, ancaq onlardan artıq heç bir şey qəbul olunmaz. Dünyaya geri dönüb saleh əməllər etməyi arzu edəcəklər, ancaq bu istəkləri də rədd ediləcək. Səhvlərini düzəltmə imkanı qalmadığını anladıqlarında isə inkarçıları dözülməz bir peşmanlıq bürüyəcək. Burada yaşanan çarəsizlik və peşmanlıq duyğusu isə, dünyadakı heç bir şeyə bənzəməz. Çünki inkarçılar sonsuza qədər Allahın diləməsi xaricində, ən kiçik bir qurtuluş ümidləri olmadan cəhənnəm əzabı yaşayacaqlarını anlayacaqlar:

**Odun üzərində dayandırıldıqları vaxt onların: "Kaş ki, bizi dünyaya qaytaraydılar! Onda biz Rəbbimizin ayələrini yalan saymayıb möminlərdən olardıq" – dediklərini görəydin! Xeyr! Əvvəllər gizlətdikləri günahlar onlara aşkar oldu. Əgər onlar geri qaytarılsaydılar, yenə də özlərinə qadağan olunmuş şeylərə qayıdardılar. Şübhəsiz ki, onlar yalançıdırlar. Onlar dedilər: "Dünya həyatımızdan başqa bir həyat yoxdur və biz dirildilməyəcəyik!" Onları Rəbbinin qarşısında dayandırılarkən bircə görəydin! Allah deyəcəkdir: "Məgər bu dirilmə həqiqət deyilmi?" Onlar: "Əlbəttə, Rəbbimizə and olsun ki, bu həqiqətdir!" – deyəcəklər. O buyuracaqdır: "Elə isə inkar etdiyinizə görə dadın əzabı!" (Ənam surəsi, 27-30)**

Belə olmaqla birlikdə Allahdan bir rəhmət olaraq Peyğəmbərimiz (s.ə.v)-in belə bir hədisi də vardır:

Hz. Peyğəmbər (s.ə.v) belə buyurdu: "Qəlbində zərrə qədər iman olan kimsə atəşə girməyəcəkdir." Əbu Səid deyir ki: "Kim (bu xəbərin ifadə etdiyi həqiqətdən) şübhəyə düşsə bu ayəni oxusun:" Şübhəsiz ki, Allah zərrə qədər zülm etməz ... "(Nisa surəsi, 40) (Tirmizi, Sıfatu Cehennem 10, (2601))

## 49- Cəhənnəm necə bir yerdir?

Cəhənnəm inkarçılar üçün hər cür çətinlik, çətinlik və əzab yaşandığı və bunların sonsuza qədər də tükənmədiyi bir yerdir. Quranda cəhənnəm üçün belə deyilir:

**Həqiqətən, Cəhənnəm kafirlər üçün pusquda dayanıb gözləyir. O, həddi aşanların qayıdacağı yerdir. Onlar orada əsrlər boyu qalacaqlar. Onlar orada nə bir sərinlik, nə də sərinlədirici içki dadacaqlar. İçdikləri yalnız qaynar su və irin olacaq – Törətdikləri əməllərinə uyğun bir cəza kimi. (Nəbə surəsi, 21-26)**

## 50- Quran ayələrində cəhənnəmlə əlaqədar nələr bildirilmişdir?

Quran ayələrində cəhənnəmdə tam mənasıyla bir həyat olduğu xəbər verilir. Ancaq bu həyat hər cür alçaldılmaların, zəlilliyin, səfilliyin, fiziki və psixoloji əziyyətlərin yaşandığı bir həyatdır.

İnsanın dünya həyatında sahib olduğu meyarlar, cəhənnəm əzabını tam olaraq qavramağa yetərli deyil. İnkarçılar cəhənnəmdə hər istiqamətdən, maddi-mənəvi böyük bir əzab yaşayarlar. Üstəlik, bu əzabda heç bir fasilə və ya yüngülləşmə olmaz. Ayələrdə belə deyilir:

**Xeyr! Bu, alovu şölələnən Oddur – başın dərisini sıyırıb çıxaran bir od. O od çağırır haqqa arxa çevirəni, ondan üz döndərəni və mal-dövlət yığıb saxlayanı. (Məaric surəsi, 15-18)**

## 51- Cənnət necə yerdir?

Cənnət Allahı çox sevən, Allahdan qəlbən qorxan, çox səmimi olan, Quran ayələrinə tabe olan, Allahın əmrlərini yerinə yetirən, həyatını Onun rizası üçün keçirən insanların sonsuza qədər yaşayacaqları, istədikləri hər şeyə sahib olaraq xoşbəxtlik içində həyat sürəcəkləri bir yerdir. Cənnətdə insan, ağlına gələn hər cür gözəlliyə dilədiyi anda sahib ola biləcək, dilədiyini dilədiyi anda edə biləcək. İnsan nəfsinin arzu edəcəyi və zövq alacağı hər şey və daha çoxu cənnətdə mövcuddur. Ayələrdə inananların görəcəyi gözəl qarşılıq belə xəbər verilmişdir:

**Ey qullarım! Həmin gün sizə qorxu yoxdur və siz heç kədərlənməyəcəksiniz də.**

**Siz ayələrimizə iman gətirib müsəlman olmusunuz.**

**Siz də, zövcələriniz də fərəhlə Cənnətə daxil olun!**

**Onlar üçün qızıl sinilər və piyalələr dolandırılacaqdır. Orada nəfslərin istədiyi və gözlərə xoş gələn hər şey olacaqdır. Siz orada əbədi qalacaqsınız.**

**Xeyirxah əməllərinizin nəticəsi kimi varis olduğunuz Cənnət budur. (Zuxruf surəsi, 68-72)**

## 52- Cənnətə kimlər gedir?

**... Allah onların qəlbinə iman salmış və onları Öz tərəfindən bir ruhla dəstəkləmişdir. Allah onları ağacları altından çaylar axan Cənnət bağlarına daxil**

**edəcəkdir. Onlar orada əbədi qalacaqlar. Allah onlardan razıdır, onlar da Allahdan razıdırlar. Onlar Allahın firqəsidirlər. Həqiqətən, məhz Allahın firqəsi nicat tapanlardır. (Mücadilə surəsi, 22)**

Yuxarıdakı ayədə Allahın cənnəti vəd etdiyi möminlərin digər bəzi xüsusiyyətləri Quranda belə bildirilmişdir:

**İman gətirib yaxşı işlər görənlər (Bəqərə surəsi, 25)**

**Allahdan qorxub pis əməllərdən çəkinənlər (Ali İmran surəsi, 15)**

**qəzəblərini boğanlar (Ali İmran surəsi, 134)**

**Onlar bilə-bilə etdiklərinə görə israr etməzlər. (Ali İmran surəsi, 135)**

**Allaha və Onun Elçisinə itaət edənlər (Nisa surəsi, 13),**

**Namaz qılan, zəkat verən, elçilərə inanıb, onlara yardım edənlər, (Maidə surəsi, 12)**

**Doğru danışanlar (Maidə surəsi, 119)**

**Gözəl davranışlarda olanlar (Yunis surəsi, 26)**

**Rəbbinə qəlbləri razı olaraq bağlananlar (Hud surəsi, 23)**

**Əmanətlərinə və əhdlərini riayət edənlər (Muminun surəsi, 8)**

**Tövbə edənlər (Məryəm surəsi, 60)**

**Namazlarını (diqqətlə) qoruyanlar (Muminun surəsi, 9)**

**Xeyirlərdə yarışanlar (Fatir surəsi, 32)**

**Təqva sahibi olanlar (Məhəmməd surəsi, 15)**

**Könüldən Allaha yönəlib boyun əyənlər (Qaf surəsi, 32)**

**Görmədikləri halda Rəhmana qarşı içləri titrəyərək qorxu duyanlar və içdən Allaha yönəlmiş qəlblə gələnlər (Qaf surəsi, 33)**

## 53- Həqiqi yaxşılıq nədir?

Cəmiyyət içində insanların müəyyən etdiyi bir "yaxşılıq" anlayışı vardır. Yolda gördüyü dilənçiyə pul verən, insanlara həmişə gülər üz göstərən, kiçik işlərə köməkçi olmağa çalışan insanlar "yaxşı insan" olaraq müəyyən olunarlar. Əlbəttə bunlar gözəl və yaxşı davranışlardır, ancaq Allahın məmnun olacağı yaxşılıq məhdud bir anlayış deyil. Səmimi olaraq iman edən və bütün həyatını Allahın razı olacağı şəkildə yaşayan insan həqiqətən "yaxşı insan"dır. Allah həqiqi yaxşılığın nə olduğunu bir ayəsində belə açıqlamışdır:

**Yaxşı əməl üzünüzü məşriqə və məğribə tərəf çevirməyiniz deyildir. Lakin yaxşı əməl sahibləri Allaha, Axirət gününə, mələklərə, kitablara, peyğəmbərlərə iman gətirən, sevdiyi malı qohum-əqrəbaya, yetimlərə, kasıblara, müsafirlərə, dilənənlərə və kölələrin azad edilməsinə sərf edən, namaz qılıb zəkat verən, əhd bağladıqda**

**əhdlərini yerinə yetirən, sıxıntı və xəstəlik üz verdikdə, habelə döyüşdə səbir edən şəxslərdir. Onlar imanlarında doğru olanlardır. Müttəqi olanlar da elə məhz onlardır. (Bəqərə surəsi, 177)**

## 54- Qurandakı sevgi anlayışı necədir?

Quran əxlaqının yaşanmadığı cəmiyyətlərdə, insanların bir-birlərinə sevgi və hörmət bəsləmələri üçün çox daha fərqli dəyərlər var. Eyni mədəniyyəti paylaşmaq, mövqe sahibi olmaq, gözəl olmaq, dəbli geyinmək kimi. Əlbəttə bu tərz dünyəvi dəyərləri əsas alan bir sevgi, həqiqi sevgi deyil. Hörmət də həqiqi hörmət deyil. Çünki qarşı tərəf bu imkanları itirdiyində, çox şiddətli olduğunu iddia etdikləri sevgi də bir anda yox olar. Ancaq möminlərin əsil məqsədi Allahın məmnuniyyətidir. Allaha olan sevgilərindən ötrü Allahın yaratdıqlarına qarşı da bir sevgi və məhəbbət hiss edərlər. Bu sevgiləri isə, əksikləriə, çətinliklərlə, yoxluqlarla azalmaz, maddi dəyərlərə görə şəkillənməz. Allahın məmnun olmadığı əxlaqdan da qətiyyən zövq almazlar və ya belə pis əxlaqı yaşayan adama qarşı ürəklərində bir yaxınlıq hiss etməzlər. Bu vəziyyət Quranda belə bildirilir:

**Allaha və Axirət gününə iman gətirən elə bir camaat tapa bilməzsən ki, onlar Allaha və Onun Elçisinə düşmən olanlarla – öz ataları, oğulları, qardaşları, qohum-əqrəbaları olsalar belə-dostluq etsinlər ... (Mücadilə surəsi, 22)**

## 55- Möminlərin həmişə birlikdə olmalarının səbəbləri nələrdir?

Allah Quranın bir çox ayəsində möminlərin birlikdə olmalarını, dünya həyatını istəyərək möminlərdən başqa istiqamətə yönəlməmələrini əmr edir. Həmçinin bir ayədə möminlərin dağılıb ayrılmaması da əmr edilir:

**Hamınız Allahın ipindən möhkəm yapışın və parçalanmayın! Allahın sizə olan nemətini xatırlayın ki, siz bir-birinizə düşmən idiniz, O, sizin qəlblərinizi birləşdirdi və Onun neməti sayəsində bir-birinizlə qardaş oldunuz. Siz odlu bir uçurumun lap kənarında idiniz. O, sizi ondan xilas etdi. Allah Öz ayələrini sizə beləcə bəyan edir ki, bəlkə doğru yola gələsiniz (Ali İmran surəsi, 103)**

Həyatını Qurana görə yaşayan bir insan əlbəttə ki, Allahın bütün əmrlərinə tabe olduğu kimi bu əmrlərə də tabe olmaqla borcludur. Möminlərlə birlikdə olmaq isə hər insan üçün böyük bir gözəllik və dəstəkdir. Məsələn, hz. Musa Allah özünə peyğəmbərlik vəzifəsini verdikdən sonra qardaşı hz. Harunu da yanına köməkçi olaraq istəmişdir. Möminlər həmişə bir-birlərinə Allahı xatırladarlar, bir-birlərini pisliklərdən və ya səhvlərdən çəkindirərlər, hər mövzuda bir-birlərinə dəstəkçi və köməkçidirlər. Həmçinin bütün insanlar içində ən gözəl əxlaqa sahib, daim vicdanlı davranan insanlar möminlərdir. Bu səbəbdən, onların olduğu yerlər ən etibarlı, ən dinc mühitlərdir.

## 56- Allah inananlara dünyada necə həyat vəd etmişdir?

Allaha iman edən insanların axirətdəki həyatları kimi dünyadakı həyatları da gözəlliklərlə doludur. Allah yaxşılıq edənləri dünyada da qarşılığının çox veriləcəyini ayələrində müjdələmişdir:

**Mömin olaraq yaxşı iş görən kişi və qadınlara, əlbəttə, gözəl həyat bəxş edəcək və etdikləri ən yaxşı əməllərə görə onları mütləq mükafatlandıracağıq (Nəhl surəsi, 97)**

## 57- Allaha necə dua edilər? Duanın müəyyən bir yeri, zamanı və ya şəkli vardırmı?

Allaha dua etmənin müəyyən bir yeri, şəkli və ya zamanı yoxdur. Allah bizə şah damarımızdan daha yaxındır və hər ağlımızdan keçəni, hər düşündüyümüzü, zehnimizi, hər şeyimizi bilir və görür. Bu səbəblə hər an, yolda gedərkən, bir işi edərkən, yemək yeyərkən, oturanda da, ayaq üstə olanda da- Allaha dua ilə yönələ bilər, Ondan yardım istəyə bilərik. Allah dua edən adamın rəftarının necə olmalı olduğunu isə Quranda belə bildirir: **"Rəbbinizə yalvara-yalvara və için-için dua edin ..."** (Əraf surəsi, 55) Əsil əhəmiyyətli olan, duanın, yalnız Allaha yönələrək edilməsi və səmimi olmasıdır.

## 58- Allah hər duanı qəbul edərmi?

Allah Özünə səslənən hər kəsin çağırışını duyar və cavab verər. Bu həqiqəti, "**Qullarım Məni sənə soruşacaq olsa, şübhəsiz ki, Mən (onlara) yaxınam. Mənə dua etdiyi zaman dua edənin duasına cavab verərəm ...**" (Bəqərə surəsi, 186) ayəsiylə xəbər vermişdir.

Allah Quranda "çətinlik və ehtiyac içində" Özünə dua edənin duasını qəbul edəcəyini bildirir. Bu, bir insanın dua etdiyi şeyi səmimiyyətlə, səmimi olaraq istədiyinin göstəricisidir.

Ancaq bunu unutmamaq lazımdır ki, insanlar hər zaman özləri üçün xeyirli və gözəl olanı təsbit etməyə bilərlər. Bizim özümüz üçün xeyir sandığımız şey bizim üçün xeyir olmaya bilər. Allah bizim bilmədiklərimizi bildiyi, hər şeyi nəzarət altında tutduğu üçün, bəzən belə duaları qəbul etməyib, zamanı gəldiyində daha xeyirlisini bizə verə bilər. Həmçinin, insan tələskən yaradılmışdır və bəzən istədiklərinin dərhal reallaşması mövzusunda da tələsik davranar. Ancaq Allah duaya verəcəyi qarşılığı təxirə sala bilər. Uca Allahın təqdiri hər zaman ən gözəlidir və mütləq xeyirlidir. Hər vəziyyətdə insan gözəl bir səbirlə səbir etməlidir.

## 59- Allaha necə tövbə edilir? "Tövbə etdim" demək kifayətdirmi?

İnsanın işlədiyi günahlarından və ya səhvlərindən ötəri səmimi olaraq Allaha tövbə etdiyini söyləməsi, Allahdan bağışlanma istəməsi və bir daha təkrarlamamağa niyyət etməsi kifayətdir. Allah belə bildirir:

**Hər kim haqsızlıq etdikdən sonra tövbə edib əməllərini islah etsə, şübhəsiz ki, Allah onun tövbəsini qəbul edər. Həqiqətən, Allah Bağışlayandır, Rəhmlidir. (Maidə surəsi, 39)**

## 60- Allah bütün tövbələri qəbul edərmi?

Allah səmimi olaraq edilən və insanın səmimi olaraq səhvini təkrarlamamağa niyyət etdiyi, tövbəsinin ardından rəftarını düzəltdiyi hər tövbələri qəbul edər. Günahın böyük və ya kiçik olması kimi bir ayrı-seçkilik olmaz. Əhəmiyyətli olan qəti olaraq o rəftarı düzəltməyə qərar verməkdir. Allahın tövbə ilə əlaqədar hökmü belədir:

**Allah ancaq o kəslərin tövbələrini qəbul edir ki, onlar avamlıqları üzündən pis iş gördükdən sonra tezliklə tövbə edirlər. Allah onların tövbələrini qəbul edər. Həqiqətən, Allah Biləndir, Müdrikdir. (Nisa surəsi, 17)**

## 61- "Necə olsa tövbə etdiyimdə Allah məni bağışlayacağına görə, hər şeyi edim sonra da tövbə edərəm" demək doğru bir düşüncə ola bilərmi?

Bu, bir çox insanın yalnışa düşdüyü son dərəcə səmimiyyətsiz bir düşüncədir. Allah bütün qəlbləri, qəlblərdəki gizlinin gizlisini bilir. Allah ancaq etdiyindən səmimi olaraq peşmanlıq duyan və rəftarını qəti olaraq düzəldən insanın tövbəsini qəbul edəcəyini bildirmişdir. "Necə olsa Allah məni bağışlayar" deyərək günaha girənlər axirətdə hər etdiklərindən ötrü sorğulanacaqlar və bir qarşılıq görəcəklər.

**Günah işlər görməkdə davam edənlərdən birinə ölüm gəldiyi zaman: "Mən indi tövbə etdim!" – deyənlərin də, kafir kimi ölənlərin də tövbəsi qəbul deyildir. Biz onlar üçün ağrılı-acılı bir əzab hazırlamışıq. (Nisa surəsi, 18)**

## 62- Namaz niyə vacibdir?

İmandan sonra gələn ən əhəmiyyətli ibadətlərdən olan beş vaxt namaz, möminlərə həyatları boyunca davam etdirmələri əmr edilmiş, vaxtları təyin olunmuş bir ibadətdir.

İnsan hər unutmağa və qəflətə düşməyə uyğun bir varlıqdır. İradəsini istifadə etməyib özünü gündəlik hadisələrin axışına qapdırsa əsil diqqətini verməli və ağlında tutmalı olan mövzulardan uzaqlaşar. Allahın hər istiqamətdən özünü əhatə etdiyini, hər an özünü izlədiyini, eşitdiyini, etdiyi hər şeyin hesabını Allaha verəcəyini, ölümü, cənnətin və cəhənnəmin varlığını, qədərdən kənarda heç bir hadisənin meydana gəlməyəcəyini, qarşılaşdığı hər şeydə, hər hadisədə bir xeyir olduğunu unudar. Qəflətə düşərək, həyatının əsil məqsədini xatirindən çıxara bilər.

Gündə beş vaxt qılınan namaz isə, bu unutqanlıq və qəfləti yox edər, möminin şüurunu və iradəsini canlı tutar. Möminin daima Allaha yönəlib dönməsini təmin edər və Yaradıcımız olan Allahın əmrləri istiqamətində həyat yaşamasına köməkçi olar. Namaz qılmaq üçün Allahın hüzurunda dayanan mömin, Rəbbimiz ilə güclü bir mənəvi əlaqə qurar. Namazın insana Allahı xatırlatdığı və insanı hər cür pislikdən çəkindidiyi bir ayədə belə bildirilir:

**Kitabdan sənə vəhy olunanları oxuyub namaz qıl. Həqiqətən, namaz çirkin və yaramaz işlərdən çəkindirir. Allahı yada salmaq isə ibadətlərin ən əzəmətlisidir. Allah nə etdiklərinizi bilir. (Ənkəbut surəsi, 45)**

## 63- Digər peyğəmbərlərə də namaz əmr edilmişdirmi?

Namaz ibadəti, başda peyğəmbərlər olmaq üzrə bütün iman edənlərə fərz qılınmış bir ibadətdir. Tarix boyunca insanlara göndərilmiş olan peyğəmbərlər qövmlərinə Allahın fərz buyurduğu bu ibadəti təbliğ etmişlər, özləri də həyatları boyunca bu ibadəti ən gözəl və ən doğru şəkildə tətbiq edərək bütün möminlərə nümunə olmuşlar. Quranda, peyğəmbərlərə namaz qılmalarının əmr edilməsi, onların bu ibadətə verdikləri əhəmiyyət, bu ibadəti yerinə yetirməkdə və qorumaqda göstərdikləri qətiyyət, qövmlərinə namaz qılmağı əmr etmələri ilə əlaqədar bir çox ayə yer alır. Bu ayələrdən bəzi nümunələr belədir:

- Hz. İbrahim üçün:

**Ey Rəbbim! Məni də, nəslimdən olanları da namaz qılan et! Ey Rəbbimiz! Duamı qəbul elə! (İbrahim surəsi, 40)**

- Hz. İsmayıl üçün:

**Kitabda İsmayılı da xatırla! Həqiqətən, o öz vədinə sadiq idi. O, bir elçi və peyğəmbər idi. O öz ailəsinə namaz qılmağı, zəkat verməyi əmr edirdi. O, Rəbbinin rizasını qazanmışdı. (Məryəm surəsi, 54-55)**

- Hz. Musa üçün:

**Həqiqətən, Mən Allaham, Məndən başqa heç bir tanrı yoxdur; Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl. (Taha surəsi, 14)**

Mömin qadınlara nümunə olaraq göstərilən hz. Məryəmə də namaz qılması əmr edilmişdir:

**Məryəm, öz Rəbbinə itaət et, səcdə qıl və rükuya gedənlərlə birlikdə rükuya get. (Ali İmran surəsi, 43)**

Allahın sözü olan hz. İsa da eyni əmri almışdır:

**Körpə dil açıb dedi: "Həqiqətən də, mən Allahın quluyam! O mənə Kitab verdi və məni peyğəmbər etdi. Harada oluramsa olum, məni mübarək etdi və nə qədər ki sağam, mənə namaz qılıb zəkat verməyi əmr etdi. (Məryəm surəsi, 30-31)**

## 64- Namaz hansı vaxtlarda fərz qılınmışdır?

Quranda, namazın möminlərə vaxtları müəyyən bir ibadət olaraq fərz qılındığı bildirilir. Ayədə belə buyrulur:

**Namazı bitirdikdən sonra ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edin. Təhlükə sizdən sovuşduqda isə, namazı lazımi qaydada qılın. Çünki namaz möminlərə müəyyən olunmuş vaxtlarda vacib edilmişdir. (Nisa surəsi, 103)**

Namaz vaxtları, "səhər", "günorta", "əsr", "axşam" və "şam" olmaq üzrə beş vaxtdan ibarətdir. Namaz vaxtları bir çox Quran ayəsində açıq şəkildə bildirilmişdir. Bunlardan biri belədir:

**Onların dediklərinə səbir et. Günəş doğmamışdan və batmamışdan əvvəl Rəbbini həmd-səna ilə təriflə, gecənin bəzi saatlarında və gündüzün iki başında Ona tariflər de ki, bəlkə razı qalasan. (Taha surəsi, 130)**

Allahın vəhy və ilhamı Quranı ən yaxşı anlayan və təfsir edən Peyğəmbərimiz (s.ə. v) də beş vaxt namazın gün ərzindəki başlanğıc və bitmə zamanlarını möminlərə təsvir etmişdir. Namaz vaxtlarının bildirildiyi hədis-i şəriflərdən biri İbn-i Abbasın bildirdiyi hədisi-şərifdir:

Rəsulullah buyurdu ki: "Rəsulullah (əleyhissalatu vəssalam) buyurdular ki:"Cəbrayıl (əleyhissalam) mənə, Beytullahın yanında, iki dəfə imamlıq etdi. Bunlardan birincidə zöhrü, kölgə ayaqqabı bağı qədərkən qıldı. Sonra, əsri hər şey kölgəsi qədər ikən etdi. Sonra axşamı günəş batdığı və oruclunun orucunu açdığı zaman qıldı. Sonra işanı, üfüqdəki işıqlıq (şəfəq) itdikdə etdi. Sonra səhəri şəfəq söküldükdə və orucluya yemək haram olduğu vaxtda qıldı. İkinci səfər zöhrü, dünənki əsrin vaxtında hər şeyin kölgəsi özü qədər olduqda qıldı. Sonra əsri, hər şeyin kölgəsi özünün iki misli olduqda qıldı. Sonra axşamı, əvvəlki vaxtında qıldı. Sonra işanı gecənin üçdə biri bitdikdə qıldı. Sonra səhəri, yer üzü ağardıqda etdi. Sonra Cəbrayıl (əleyhissalam) mənə yönəlib: "Ey Məhəmməd Bunlar səndən əvvəlki peyğəmbərlərin (əleyhimussalatu vəssalam) vaxtıdır. Namaz vaxtı da bu iki vaxt arasında qalan zamandır!" dedi. "

İstər Quran ayələri, istər Peyğəmbərimiz (s.ə.v)-in səhih hədisləri, istərsə də İslam alimlərinin şərhləri ilə, namazın beş vaxt olduğu sabit və müzakirə edilməz bir həqiqətdir.

Beş vaxt namaz fərz, vacib və sünnətləriylə 40 rükətdən ibarətdir. Bu rükətləri namaz vaxtlarına görə paylaşımı isə aşağıdakı kimidir:

- Səhər namazı: 2 rükət sünnət, 2 rükət fərz
- Zöhr namazı: 4 rükət ilk sünnə, 4 rükət fərz, 2 rükət son sünnət
- İkindi namazı: 4 rükət sünnət, 4 rükət fərz
- Axşam namazı: 3 rükət fərz, 2 rükət sünnət
- İşa namazı: 4 rükət ilk sünnə, 4 rükət fərz, 2 rükət son sünnət, 3 rükət vitr namazı

## 65- Huşu içində namaz necə qılınır?

Huşu, "hörmət dolu qorxu" mənasını verər. Namazı huşu içində qılmaq isə Uca Rəbbimizin hüzurunda Onun heybət və əzəmətini qəlbimizdə hiss edərək, Ona hörmət dolu bir qorxu bəsləyərək bu ibadəti yerinə yetirməkdir. Namazda Aləmlərin Rəbbi olan Allahın hüzurunda dayandığının şüurunda olan bir mömin, əlbəttə ki, bu güclü heybət və qorxunu içində yaşayacaq və Allaha bu qorxusu və hörməti ölçüsündə yaxınlaşacaqdır.

Namaz ibadətini layiqincə yerinə yetirmək istəyən bir mömin huşuya maneə törədən şeylərə qarşı tədbir almalı, namazda lazım olan diqqət və konsentrasiyanı təmin etmək üçün maksimum səy göstərməlidir.

Rəbbimiz, Öz hüzurunda dayandığımızda, yalnız Onu anmağımızı, Onu ucaltmağımızı və bütün nöqsanlardan münəzzəh tutaraq Onu tək olduğuna inanmağımızı buyurur. Bunun üçün Əhli Sünnənin ittifaqla qəbul etdiyi namaz dualarının namazda oxunması lazımdır. Namaz qılmaq Rəbbimizi könüldən ucaltmaq üçün böyük bir fürsətdir. Necə ki, ayədə Allah Özünü zikr üçün namaz qılınmasını buyurur:

**Həqiqətən, Mən Allaham, Məndən başqa heç bir tanrı yoxdur; Mənə ibadət et və Məni xatırlamaq üçün namaz qıl. (Taha surəsi, 14)**

## 66- Din əxlaqını yaşamağa başlayan insan özündə nələri dəyişdirməlidir?

Din əxlaqını yaşamağa başlayan insanın Allahın əmrlərini tətbiq etmək, ibadətlərini yerinə yetirmək xaricində özündə edəcəyi ən əhəmiyyətli dəyişiklik daima vicdanına uyaraq gözəl əxlaqlı yaşaması olacaq. Hər insanın dini tanımadan əvvəl alışdığı bir xarakteri və bir həyat şəkli ola bilər. Ancaq din əxlaqını yaşamağa başladığında yaxşı olan xasiyyətlərini Allahın razılığı üçün davam etdirməli, Qurana uyğun gəlməyən tərəflərini isə dərhal tərk edərək Quran əxlaqını qəbul etməlidir. (www.Kuranahlaki.com)

Möminlərin arasında ayrı dünya görüşləri və ya həyat şəkilləri, fərqli baxış bucaqları olmaz. Tək meyar Quran və sünnədir və nümunə alınacaq kəslər də, başda Peyğəmbərimiz (s.ə.v) olmaq üzrə Allahın Quranda nümunə olaraq göstərdiyi elçilər və saleh möminlərdir.

## 67- İslamı yaşamağa başladıqdan sonra keçmiş həyatımda etdiyim günahlardan ötrü Allah Qatında məsul olarammı?

Bir insan xəbərdarlıq edilmədən əvvəl din mövzusunda məlumatsız sayılır, nəyin doğru, nəyin səhv olduğunu həqiqi mənada bilə bilməz. Bu səbəblə, bir daha eyni günahlara və xətalara dönməmək üzrə tövbə edib, Allahdan bağışlanma diləsə, hər hansı bir məsuliyyəti qalmayacaq. Allah Qatında əhəmiyyətli olan, səhv etməkdə və günah işləməkdə təkid etməməkdir. Allah, inananlara bunu Quranda belə müjdələmişdir:

**İman gətirərək yaxşı əməl işlədənlərin, əlbəttə ki, təqsirlərindən keçərik və onları etdikləri əməllərdən daha üstün olanı ilə mükafatlandırarıq. (Ənkəbut surəsi, 7)**

## 68- İslam əxlaqını başqalarına da izah etmək lazımdırmı?

Allah bütün insanları İslam dinini yaşamaqla məsul etmişdir. Dinin varlığından xəbərdar olan hər insan, axirətdə Qurana uyub əməl etmədiyinə görə hesab verəcək. Buna görə Allahın əmr etdiyi din əxlaqını yaşayan insanların, Quranın gərəyi olan gözəl əxlaqı digər insanlara da izah etməsi, onları doğru olana çağırması, insanlara yaxşılığı tövsiyə etməsi və onları pisliklərdən uzaqlaşdırması lazımdır. Allah Quranda insanlara belə əmr etmişdir:

**Qoy sizin içərinizdən xeyrə çağıran, yaxşı işlər görməyi buyuran və pis əməlləri qadağan edən bir camaat çıxsın. Məhz onlar nicata qovuşanlardır. (Ali İmran surəsi, 104)**

## 69- Allahın bəyəndiyi səbir necə olar?

Quranda insanın Allah üçün səbir etməsi bildirilmişdir. Bir ayədə Rəbbimiz, "**Rəbbin üçün səbir et"** (Müddəssir surəsi, 7) şəklində əmr etmişdir. İnsanın Allahın razılığını qazanmaq üçün göstərdiyi gözəl əxlaqda, etdiyi xeyirli işlərdə ən əhəmiyyətli xüsusiyyətlərindən biri səbirdir.

Ancaq, səbir ilə "dözüm" anlayışlarını bir-birindən ayırmaq lazımdır. Dözüm, xoşa gəlməyən, acı verən çətinliyə dözməkdir. Halbuki, Quranda nəzərdə tutulan səbir, mömin üçün çətinlik qaynağı deyil. Mömin, Allahın razılığını qazanmaq üçün səbir edər, bu səbəbdən səbrindən ötrü bir çətinliyə qapılmaz, əksinə mənəvi bir həzz duyar.

Həmçinin səbir, Quranda izah edilən bütün mömin xüsusiyyətlərini də əhatə edən bir xüsusiyyətdir. Çünki bir insan; təvazökar, comərd, fədakar, itaətkar ola bilər, lakin bu xüsusiyyətləri davam etdirmə mövzusunda səbir göstərsə, bunların həqiqi bir dəyəri olar. Yəni səbir, digər bütün mömin xüsusiyyətlərini qiymətli və etibarlı edən bir xüsusiyyətdir.

## 70- Təvəkkül nə deməkdir?

Təvəkkül, yer üzündəki bütün hadisələrin Allahın idarəsində reallaşdığını, O diləmədən heç kəsin ona fayda və ya zərəri olmayacağını bilən insanın, Allaha güvənməsidir. Möminlər Allahın hər şeyə qadir olduğunu, Onun tək bir "Ol" deməsiylə hər şeyin reallaşmasının mümkün olduğunu bilirlər və qarşılaşdıqları çətinliklərdə əsla ümidsizliyə düşməzlər. Nə şərtlər altında olursa olsun, Allahın özlərinə mütləq kömək edəcəyini, dünyada və axirətdə asanlıq diləyəcəyini bilirlər. Bundan qaynaqlanan daxili hüzur və sevinc içərisində həyatlarını davam etdirərlər.

Möminin üzərinə düşən, hadisələr qarşısında yalnız Allahın istədiyi reaksiyaları vermək, nəticəsini isə Allahdan gözləməkdir. Ayələrdə, yalnız inananların qavraya bildiyi bu böyük sirr belə ifadə edilir:

**... Allahdan qorxana, Allah çıxış yolu göstərər və ona təsəvvürünə gətirmədiyi bir yerdən ruzi bəxş edər. Kim Allaha təvəkkül etsə, Allah ona kifayət edər. Allah Öz əmrini yerinə yetirəndir. Allah hər şey üçün bir ölçü qoymuşdur. (Talaq surəsi, 2-3)**

## 71- Təqva nədir? Təqva sahibləri kimlərdir?

Təqva; Allahın əmrlərinə və tövsiyələrinə əməl etməkdir; düşüncə və davranışlardan çəkinmək və qorunmaqdır. Quranda Allahın hökmlərinə qəti olaraq iman edən və bu mövzuda güzəştə getmədən qərarlı olan möminlər "təqva sahibləri" olaraq xarakterizə edilər. Allah bir ayəsində; **"... Azuqə, şübhəsiz azuqənin ən xeyirlisi təqvadır. Ey ağıl sahibləri, Məndən qorxun."** (Bəqərə surəsi, 197) deyərək təqvanın əhəmiyyətini bildirir.

## 72- Allah Qatında üstünlük nəyə görədir?

Allah qatındakı üstünlük, bir insanın irqinə, malına, mövqeyinə, gözəlliyinə və ya sahib olduğu hər hansı bir şeyə görə deyil, yalnız Allaha olan yaxınlığına, yəni təqvasına görədir. Bir ayədə belə xəbər verilir:

**Ey insanlar! Biz sizi kişi və qadından yaratdıq. Sonra bir-birinizi tanıyasınız deyə, sizi xalqlara və qəbilələrə ayırdıq. Şübhəsiz ki, Allah yanında ən hörmətli olanınız Ondan ən çox qorxanınızdır. Həqiqətən, Allah Biləndir, Xəbərdardır. (Hucurat surəsi, 13)**

## 73- Dərin düşünmək necə olur?

Allaha iman edənlərin ən əhəmiyyətli xüsusiyyətlərindən biri, Allahın yaratdığı dəlilləri görə bilməməkdir. Mömin ətrafındakı hər incəlikdə Allahın qüdrətini və sənətini görər, Onu zikr edər və Ona yaxınlaşmağa yol tapar. Möminlərin bu xüsusiyyəti Quranda belə izah edilir:

**O kəslər ki, ayaq üstə olanda da, oturanda da, uzananda da Allahı yad edir, göylərin və yerin yaradılması haqqında düşünür və deyirlər: "Ey Rəbbimiz! Sən bunları əbəs yerə xəlq etməmisən. Sən pak və müqəddəssən. Bizi Odun əzabından qoru! (Ali İmran surəsi, 191)**

Allah, Quranın bir çox yerində "düşünmürsünüzmü", "düşünənlər üçün dəlillər vardır" ifadələriylə möminlərə dərin düşünməyin əhəmiyyətini vurğulayır. Düşünüləcək mövzular isə sonsuzdur. Mömin, kainatdakı fövqəladə nizam, yer üzündəki canlılar, bunların sahib olduğu qüsursuz sistemlər, insanın başına gələn hər hansı bir hadisə, Allahın dayanmadan yaratdığı nemətlər, inkarçılara verilən bəlalar, cənnət, cəhənnəm, sonsuzluq kimi bir çox mövzu üzərində düşünər və Allahın varlığını, ucalığını, sonsuz ağlını daha yaxşı təqdir edər.

## 74- Din ilə elm bir-biriylə uyğundur.

Din qətiyyən elmlə ziddiyyət təşkil etməz. Elm, Allahın sənətini görmə elmidir. Dini və elmi yaradan Allahdır, bu səbəbdən, ikisinin arasında bir uyğunsuzluq və ya ziddiyyət olması mümkün deyil. Allahın 1400 il əvvəl yer üzünə nazil etdiyi Quranda bəzi elmi şərhlər mövcuddur və bunlar ancaq XX əsrin texnologiyası ilə kəşf edilən bəzi elmi həqiqətlərdir. Dinin elmlə ziddiyyət təşkil etdiyi iddiası, Allahı inkar edənlərin insanlara öz ağıllarına görə din mövzusunda şübhə vermək üçün ortaya atdıqları bir yalandır.

## 75- Allaha və dinə inanan elm adamları kimlərdir?

Elmi tədqiqatlar aparan insanların çoxu kainatdakı bütün varlıqlarda olan son dərəcə kompleks quruluşları, qüsursuz nizamı, hər varlıq arasındakı uyğunlaşmanı şəxsən öz gözləriylə və bütün təfərrüatlarıyla görürlər. Bu insanların Allahın varlığını və böyüklüyünü anlamaları mütləqdir. Quranda **"...Allahdan Öz bəndələri içərisində ancaq alimlər “içləri titrəyərək-qorxar...""**(Fatir surəsi, 28) ayəsiylə də bu həqiqətə diqqət çəkilir.

Allahın ehtişamlı yaratmasının açıq-aşkar dəlillərini gördüklərinə baxmayaraq vicdanlarının səsini dinləməyən və inkarda israrlı olan bəzi elm adamları isə böyük bir yanılma içindədirlər. Bu kəslərin bəhs edilən bu mövqelərinin qaynağı idealogiyalarıdır.

Keçmişdə və indiki vaxtda bir çox məşhur elm adamı Allaha və dinə olan inancları və bağlılıqları ilə tanınır. Bu elm adamlarından bəziləri bunlardır: Eynşteyn (Einstein), Nyuton (Newton), Paskal (Pascal), Qaliley, Maks Plank (Max Planck), Faradey (Faraday), Kelvin, Maksvel (Maxwell), Kepler, Uilyam Tomson (William Thompson), Robert Boyl (Robert Boyle), Lona Uilyam Petti (Iona William Petty), Maykl Faradey (Michael Faraday), Qreqori Mendel (Gregory Mendel), Luis Paster (Louis Pasteur), Con Dalton (John Dalton), Bleyz Paskal (Blaise Paskal), Con Rey (John Ray) ...

Yenə dövrümüzdə də bir çox elm adamı Allahın varlığını təsdiq edir, hətta elmi Allahı tanımağın bir yolu olaraq görürlər. İnsan Genomu Layihəsinin rəhbərlərindən Frensis Kolins (Francis Collins) və uzun illər ateist olmasına baxmayaraq sonradan iman etdiyini açıqlayan filosof Antoni Flu (Anthony Flew) bunlardan bəziləridir.

(http://www.imanedenbilimadamlari.com/)

## 76- Allaha necə şükür edilməlidir?

Allahın verdiyi bütün nemətlərə şükür etmək əhəmiyyətli bir ibadətdir. Ancaq şifahi olaraq şükür etməklə, Allahın verdiyi nemətləri Allahın məmnun olacağı şəkildə, israf etmədən, xeyir və gözəllik üçün istifadə etmək də feli bir şükür olacaq. Həmçinin, insanın Allahdan gələcək hər şeyə möhtac olduğunu bilməsi, sahib olduğu heç bir şeyin özünə aid olmadığını, Allahın özünə verdiyini unutmaması və bunlar üçün həmişə şükür etməsi lazımdır. Quranda belə bildirilir:

**Allahın sizə verdiyi halal və pak ruzilərdən yeyin və əgər Allaha ibadət edirsinizsə, Onun nemətinə şükür edin. (Nəhl surəsi, 114)**

## 77- Şeytan necə varlıqdır?

Şeytan Allahın yaratdığı cinlərdən biridir. Allah ilk insan olan hz. Adəmi yaratdıqdan sonra bütün mələklərə Adəmə səcdə etmələrini əmr etmişdir. İçlərindən yalnız şeytan Allahın əmrinə, təkəbbür göstərdiyi üçün, itaət etməmiş və belə demişdir:

**... İblis dedi: "Ey Rəbbim! Sən məni yoldan çıxartdığına görə, mən də yer üzündə onlara pis işləri gözəl göstərib onların hamısını azdıracağam. (Hicr surəsi, 39)**

Allahın hüzurundan qovulan şeytan, bütün insanları Allahın yolundan azdırmaq və onların hamısını yoldan çıxartmaq üçün Allahdan qiyamətə qədər müddət istəmişdir. Şeytan özünə verilən bu müddət içərisində insanları Allah yolundan azdırmağa çalışacaq və bunun üçün hər yolu sınayacaq. Bu səbəblə, şeytan, hər insanın axirəti üçün ən əhəmiyyətli təhlükədir və hər insanın ən böyük düşmənidir.

## 78- Şeytan insanlara necə yanaşar, onları hansı yollarla azdırmağa çalışar?

Allah Quranda, "**Vəsvəsə verənin, Allahın adı çəkiləndə isə hövlündən geri çəkilən şeytanın şərindən. O şeytan ki, insanların ürəklərinə vəsvəsə salır,**" (Nas surəsi, 4-5) ayəsiylə şeytanın qəlblərə gizlicə vəsvəsə verdiyindən söz edir. Bu, şeytanın ən hiyləgər üsuludur. Bir çox insan zehnindəki düşüncələrin şeytandan olduğunu anlaya bilməz. Bunların hamısını öz düşüncələri zənn edər. Məsələn, dini yeni öyrənən bir adam şeytanın əhəmiyyətli bir hədəfidir. Bu adama dini çətinmiş kimi göstərə bilər. Və ya öz etdiklərinin onsuz da kifayət qədər olduğunu, daha çoxunu etməsinə gərək olmadığını söyləyə bilər. Bu adam isə bunların doğru olduğu yalnışlığına qapıla bilər. Və ya şeytan insanlara qorxu, narahatlıq, gərginlik, hüzursuzluq kimi mənfi hisslər verər, onların gücünü azaltmağı hədəfləyər. Yaxşılıq və xeyirli iş etmələrini, sağlam düşünmələrinə maneə törətməyə çalışar. Bütün bunların şeytandan olduğunu bilərək, Allaha sığınmaq və şeytanın təlqinlərinə heç bir zaman qulaq verməmək lazımdır.

Həmçinin unudulmamalıdır ki, dünyadakı bütün pisliklərin, müharibələrin, qırğınların, əxlaqsızlıqların kökündə şeytanın insanlar üzərindəki təsiri vardır.

## 79- Şeytanın özünə aid müstəqil bir gücü vardırmı?

Şeytan mövzusunda qəti olaraq bilinməli olan ən əhəmiyyətli nöqtə budur: Şeytanın özünə aid bir gücü yoxdur. Bütün digər varlıqlar kimi onu da Allah yaratmışdır və Allahın idarəsindədir. Allahın diləməsi xaricində heç bir şey edə bilməz. Şeytan insanları azdırma vəzifəsini Allahın izni ilə davam etdirir. Bu şəkildə, Allah insanları imtahan etmək üçün yaratdığı dünya həyatında kimlərin şeytana uyacağını, kimlərinsə uymayacağını sınayır. Allah bu həqiqəti belə bildirir.

**Halbuki o, bu insanlar üzərində ixtiyar sahibi deyildi. Biz ancaq axirətə inananla ona şəkk gətirən kimsələri ayırd etmək üçün şeytana belə bir fürsət verdik. Sənin Rəbbin hər şeyi mühafizə edəndir. (Səba surəsi, 21)**

## 80- Şeytanın kimlər üzərində təsiri olmaz?

Şeytanın səmimi möminlər üzərində heç bir təsiri olmaz. Allah bu həqiqəti Nəhl surəsinin 99-cu və 100-cü ayələrində belə bildirir:

**Şübhəsiz ki, şeytanın, iman gətirib yalnız öz Rəbbinə təvəkkül edənlər üzərində heç bir hökmranlığı yoxdur. Onun hakimiyyəti yalnız onu özünə dost tutanlar və Allaha şərik qoşanlar üzərindədir. (Nəhl surəsi, 99-100)**

## 81- "Adamlıq dini" nədir?

**Onlar cahiliyyə dövrünün hökmünümü istəyirlər? Qəti inanan bir camaat üçün Allahdan daha yaxşı hökm verən kim ola bilər? (Maidə surəsi, 50)**

Dünya üzərində ideologiyası, fəlsəfəsi, dünya görüşü nə olursa olsun, haqq dindən uzaqlaşmış bütün insanların tabe olduqları ortaq bir batil "din" vardır. Haqq dinin yaşanmadığı cəmiyyətlərin hamısında yaşanan, bu batil dindir. Bəhs edilən cəmiyyətlərdəki insanlar dünyaya gəldikləri andan etibarən ətraflarından aldıqları uzun təlqinlərin nəticəsində, bu batil dinin təqdim etdiyi dəyər mühakimələrini, qaydaları, düşüncə şəkillərini mənimsəyirlər. Məhz bu dinin adı "Adamlıq dini" dir.

Adamlıq dinini yaşayan insanların ən əsas xüsusiyyəti Allahın razılığını deyil, içində yaşadıqları cəmiyyətin razılığını hədəf alaraq və həyatlarını bu hədəf istiqamətində yönləndirmələridir.

Adamlıq dinini yaşayan cəmiyyətlərin insanlardan ən əhəmiyyətli istəkləri "adam olmaq" dır. "Adam olmaq" ifadəsiylə nəzərdə tutulan isə, cəmiyyət tərəfindən ümumi qəbul edilmiş bir mədəniyyətə, rəftara və anlayışa sahib olmaq, məqbul olaraq tanıdılan müəyyən qəlibləri üzərində daşımaqdır. (Bu mövzu ilə əlaqədar baxın. Harun Yəhya, Adamlıq Dini)

## 82- Çoxluğun tətbiq etdiyi sistem mütləq doğrudurmu?

Allahın dinindən uzaq yaşayan cəmiyyətlərdəki ümumi qənaət çoxluğun hər zaman haqlı olacağı istiqamətindədir. Halbuki bu, insanların gəldiyi tamamilə yanlış bir nəticədir. Allah bizə Quranda **"... insanların əksəriyyəti iman gətirən deyildir."** (Yusif surəsi, 103) deyə xəbər vermişdir. Və yenə ayələrində bu iman etməyən çoxluğa uyanların da zərər içində olacağını bildirmişdir.

**Əgər sən yer üzündə olanların əksəriyyətinə itaət etsən, onlar səni Allah yolundan azdırarlar. Onlar ancaq zənnə qapılır və ancaq yalan uydururlar. (Ənam surəsi, 116)**

Bütün bunlardan anlayırıq ki, hər dövrdə inananlar azlıq, Allahın dinindən uzaq olanlar isə çoxluğu təşkil edəcək. Və bu vəziyyət Allaha iman edən və cəmiyyətin təqdim etdiyi "Adamlıq dini"ndən uzaq yaşayan insanların qiymətini qat-qat artıracaq.

## 83- "Adamlıq dini" ni tərk etmək üçün nə etmək lazımdır?

Allahı inkar təməli üzərinə qurulmuş bu sistemdən xilas olmağın yolu əvvəlcə yalnız Allahın razılığını axtarmaq, Onun Quranda təqdim etdiyi əxlaqı və həyat tərzini əskiksiz olaraq həyata keçirməyə çalışmaqdır. Bütün həyatını Quran ayələri istiqamətində təşkil edən insan, təbii olaraq cahil cəmiyyətin təqdim etdiyi pis əxlaqdan və çirkin rəftarlardan da uzaqlaşar.

## 84- Ağılla zəka arasındakı fərq nədir?

Ağıl, yalnız möminlərin sahib olduğu əhəmiyyətli bir xüsusiyyətdir. Ancaq cəmiyyətdə bilinən ağıl anlayışı ilə Quran əxlaqını yaşamağın gətirdiyi ağıl bir-birindən çox fərqlidir. Quranda bəhsi keçən ağıl, zəkadan tamamilə fərqli bir anlayışdır. Zəka bir insanın bioloji olaraq sahib olduğu beyinin gücüdür. Zəka nə artar, nə azalar. Ağıl isə Allahdan qorxub çəkinən təqva sahibi möminlərə Allah Qatından böyük bir nemət olaraq verilər. Və insanın təqvası ölçüsündə sahib olduğu ağıl səviyyəsi də artar.

Ağıl sahibi insanın ən diqqətə çarpan xüsusiyyətləri, Allahdan qorxub çəkinməsi, daima vicdanına uyması, hər hadisəni, gördüyü hər şeyi Qurana görə qiymətləndirilməsi və hər an Allahın razılığını axtarmasıdır. Bir insan dünyanın ən ağıllı, ən savadlı, ən mədəni insanı belə olsa əgər bu xüsusiyyətlərə sahib deyilsə, "ağlı" olmayacaq və bir çox həqiqəti görə bilməyəcək, anlayış qabiliyyətindən məhrum qalacaq. Allah ağılsızlığın necə bir bəla olduğunu belə bildirmişdir:

**Şübhəsiz ki, Allah yanında canlıların ən pisi haqqı anlamayan karlar və lallardır. (Ənfal surəsi, 22)**

Ağıl sahibi insan eyni zamanda uzaqgörəndir, hər zaman yerində və məqsədəuyğun qərarlar verər, daima hadisələrin əsasını qavraya bilər, görünməyən tərəfini görə bilər. (http://www.gercekakil.com/)

## 85- İnsanın ağlını örtən amillər nələrdir?

İnsanın qəlbini və ağlını qapalı tutan şeylər, insanın ehtirasları və eqoist hissləridir. Məsələn, gələcək qorxusu, qısqanclıq, pula və maddi dəyərlərə qarşı duyulan ehtiraslı istəklər, romantiklik kimi şeylər insanı məşğul edər, ağlını örtər. Əsil düşünməli olan mövzuları; Allahın böyüklüyünü, yaradışındakı mükəmməlliyi düşünə bilməyən hala gətirər. Allah qurtuluşun ancaq nəfsin ehtiraslarından xilas olmaqla mümkün olacağını xəbər vermişdir:

**Nəfsinin tamahından qorunan kimsələr nicat tapanlardır (Həşr surəsi, 9)**

## 86- Quranda Allahın təkəbbürlənənləri sevmədiyi ifadə edilir, Qurana görə təkəbbürlənmək nə mənaya gəlir?

Qurana görə lovğalanan insanın ən diqqətə çarpan xüsusiyyəti, sahib olduğu hər şeyi ona Allahın verdiyini unutması və bunlarla öyünüb, özünü cahil şəkildə üstün görməsidir. Bu mövzudakı əhəmiyyətli bir yanılma, öyünərək Allaha qarşı təkəbbürlənən insanların həmişə düşüncəsiz xarakterli kəslər olduğunun düşünülməsidir. Halbuki, bir insanın gözəlliyini özündən bilməsi və bunun təsirində olması, qazandığı müvəffəqiyyətlərlə öyünməsi, özünü həmişə yetərli görməsi və heç bir zaman "görəsən daha vicdanlı ola bilərəmmi?" deyə düşünməməsi, qürur və təkəbbür içində olması, təkəbbürlənməyin nümunələrindəndir. Bu səbəblə, hər insan bundan şiddətlə çəkinərək, Allaha qarşı aciz və möhtac olduğunu, sahib olduğu hər şeyi, diləsə Allahın əlindən alıb yox edə biləcəyini düşünməlidir. Allah belə insanların sonunu bizə xəbər vermişdir:

**Ona: "Allahdan qorx!" – deyildikdə, lovğalıq onu daha da günaha sürükləyər. Ona Cəhənnəm kifayət edər. Ora nə pis yataqdır!** (Bəqərə surəsi, 206)

## 87- Quran əxlaqına görə təvazökar insan necə olmalıdır?

Təkəbbürlənmənin əksinə təvazökar insan, sahib olduğu hər şeyi ona Allahın bir nemət və sınaq olaraq verdiyini bilir. Aciz və möhtac bir insan olduğunun, Allahın diləməsi xaricində heç bir şeyə güc çatdıra bilməyəcəyinin fərqindədir. Bu səbəblə, hər zaman Allaha dönüb yönələn, hər nemətə şükür edən bir insandır. Allah möminlərin təvazökar rəftarını tərifləmişdir:

**O Rəhman olan Allahın qulları, yer üzü üzərində alçaq könüllü olaraq gəzərlər ... (Furqan surəsi, 63)**

## 88- Niyyətimdən məsul olarammı?

Hər insan niyyətindən məsuldur. Allah bunu, **qəlbinizin qərəzinə (qəsdən içdiyiniz andlara) görə cəzalandıracaqdır.** (Bəqərə surəsi, 225) ayəsiylə xəbər vermişdir. Görülən hər işdə niyyət, Allahın razılığını qazanmaq olmalıdır. Edilən bir iş xeyir kimi görünə bilər, ancaq əgər edilən işdə insanların təqdiri və ya dünyəvi bir qarşılığı gözlənilirsə, bu iş Allah Qatında qəbul edilməyəcəkdir.

## 89- Dünya həyatı aldadıcı bəzəkdir deyərkən tam olaraq nə nəzərdə tutulur?

İnsanların içinə düşdükləri və düşünmədikləri ən əhəmiyyətli yanılmalardan biri, dünya həyatını tək və həqiqi həyatları zənn etmələridir. Halbuki, dünya Allahın insanları sınamaq üçün yaratdığı keçici bir məkandır. Həqiqi olan ölümdən sonrakı həyatdır. Bu səbəbdən, tez keçən və çox qısa olan dünya həyatında insanları cəzb edən, onları özünə qapdırıb başlarını qatan hər şey "aldadıcı bir bəzək"dir. **Qadınların, uşaqların, yığın-yığın qızıl-gümüşün, yaxşı cins atların, mal-qaranın və əkin yerlərinin verdiyi zövqlərə olan istək insanların gözünə gözəl göstərilmişdir. Bunlar, dünya həyatının keçici zövqüdür, gözəl qayıdış yeri isə**

**Allah yanındadır** (Ali İmran surəsi, 14) ayəsində göründüyü kimi, Allah insanları bu aldadıcı bəzəyə qarşı xəbərdar edir və əsil gözəl yerin Allah Qatında olduğunu xatırladır.

## 90- İnsanların sahib olduqları acizliklərin hikmətləri nələrdir?

İnsanlara verilmiş bir çox fiziki zəiflik vardır. Əvvəlcə insan həm bədənini, həm də ətrafını təmiz saxlamaq, diqqətlə qulluq etmək məcburiyyətindədir. Bu qulluq üçün ayırdığı vaxt həyatının olduqca böyük bir hissəsini əhatə edir. Ancaq insan nə qədər təmizlik və qulluq edirsə etsin bu, müvəqqətidir. Dişini fırçalayan insan bəlkə 1 saat sonra heç fırçalamamış kimi olur. Duş qəbul edən bir insan yayda 1-2 saat sonra heç duş qəbul etməmiş kimi hala gələ bilər.

Burada əhəmiyyətli olan fiziki acizliklərin bir məqsədə istiqamətli olduğunu qavraya bilməkdir. Bunlar zəruri acizliklər deyil, xüsusi olaraq yaradılmışlar. Eyni şəkildə yaşlılıq və onunla birlikdə gələn dəyişikliklər də insana dünya həyatının keçici olduğunu düşünməsi, əksikliklərlə dolu olan dünyaya bağlanmaması və "əsil yurd" olan axirətə yönəlməsi üçün Allahın xüsusi olaraq verdiyi acizliklərdir. Və Allah Quranda insanlar üçün xeyirli olanın axirət olduğunu xəbər vermişdir:

**Dünya həyatı oyun və əyləncədən başqa bir şey deyildir. Müttəqilər üçün isə axirət yurdu daha xeyirlidir. Məgər anlamırsınız? (Ənam surəsi, 32)**

## 91- Quranda keçmiş qövmlərdən bəhs edilməsinin hikməti nədir?

Allah Quranda, tarix boyunca yaşamış bütün xalqlara doğru yolu göstərdiyini və onlara elçiləri vasitəsiylə dünyanın keçiciliyini, əsil yurdun axirət olduğunu xatırlatdığını bildirmişdir. Ancaq yenə Quranda bildirildiyi kimi, insanların çoxu küfr etməkdə israr etmişlər və elçilərin dəvətini qəbul etməmişlər. Bunun üzərinə Allah onları heç gözləmədikləri şəkildə əzabla yaxalamış və bir qismini də yer üzündən tamamilə silmişdir. (http://www.kavimlerinhelaki.com)

Quranda keçmişdə yaşamış qövmlərdən bəhs edilməsinin ən əhəmiyyətli səbəblərindən biri, bu günkü insanların eyni vəziyyətə düşməkdən çəkinmələrini təmin etməkdir. Keçmiş cəmiyyətlərin başına gələn fəlakətlərə və onlara aid arxeoloji qalıqlara, yalnız hər hansı bir tarixi məlumat gözüylə baxmaq və bunlardan ibrət almamaq isə son dərəcə səhv olar. Allah bu cəmiyyətlərin başlarına gələnlərdən öyüd almağı əmr etmişdir:

**Biz onlardan əvvəl özlərindən daha qüvvətli neçə-neçə nəsilləri məhv etdik. Onlar diyarbədiyar gəzib dolaşırdılar. Məgər əzabdan qaçıb qurtara bildilərmi?” Həqiqətən, bunda həssas qəlbi olan, hazır durub diqqətlə qulaq asan kimsə üçün ibrət vardır. (Qaf surəsi, 36-37)**

## 92- Cinlərin yaradılış məqsədləri nədir?

Allah Quranda bir çox ayədə cinlərin varlığından bəhs edir. Cinlər də ibadət etmələri üçün yaradılmış canlılardır. İnsanlardan fərqli bir aləmdə yaşayarlar. Ayələrdə bildirildiyi kimi, insanlar onları görməz, ancaq onlar insanları görə bilərlər. Xalq arasında səhv bir qənaət olaraq cinlərin gələcək haqqında məlumat verə bildikləri zənn edilir, halbuki Quranda belə bir

qabiliyyətlərinin olmadığı xəbər verilmişdir. Həmçinin, ayələrdə cinlərin də Qurandan məsul tutulduqları xəbər verilmişdir. Allah cinlərin də insanlarla eyni məqsədlə yaradıldıqlarını belə bildirir:

**Mən, cinləri və insanları yalnız Mənə ibadət etsinlər deyə yaratdım. (Zariyat surəsi, 56)**

## 93- Mələklər necə varlıqlardır?

Mələklər Allaha qulluqda qətiyyən səhv etməyən və insanlardan ayrı bir aləmdə yaşayan varlıqlardır. Mələklər insanlar kimi imtahan olmaq üçün yaradılmamışlar. Allah onları səhv etməyən varlıqlar olaraq yaratmışdır. Allah hər birini ayrı vəzifələrlə vəzifələndirmişdir və bu vəzifələrini nöqsansız olaraq yerinə yetirirlər. Cəbrayıl, Allahın vəhyini elçilərinə çatdırmaqla vəzifəli olan mələkdir. Hər insanın iki yanında onun hər etdiyini yazan yazıçı mələklər vardır. Ölüm anı gəldiyində insanın canını almaqla vəzifəli mələklər vardır. Zəbanilər isə cəhənnəm əhlinə ən şiddətli əzabı yaşamalarından məsul olan mələklərdir.

Allah mələklərin qulluğunu belə bildirir:

**... Allaha yaxın olan mələklər, Allaha qul olmaqdan əsla özlərinə ar bilməzlər ... (Nisa surəsi, 172)**

**Allah Özündən başqa ibadətə layiq olan məbudun olmadığına şahidlik etdi, mələklər və elm sahibləri də şahidlik etdilər. Allah əbədi olaraq ədalətlidir. Ondan başqa ibadətə layiq olan məbud yoxdur, Qüdrətlidir, Müdrikdir. (Ali İmran surəsi, 18)**

## 94- Zamanı necə təyin edə bilərik?

Zaman, bir anı başqa bir anla müqayisə üsulu olaraq təyin oluna bilər. Bu mövzuya belə bir nümunə verə bilərik: Bir cismə vuranda müəyyən bir səs çıxar. Eyni cismə beş dəqiqə sonra vurduğumuzda yenə bir səs çıxar. İnsan, birinci səs ilə ikinci səs arasında bir müddət olduğunu düşünər və bu müddətə "zaman" deyər.

Halbuki, ikinci səsi eşitdiyi anda, birinci səs yalnız zehnindəki xəyaldan ibarətdir. İnsan, yaddaşında olanı, yaşadığı anla müqayisə edərək zaman qavrayışını əldə edər. Əgər bu müqayisə olmasa zaman anlayışı da olmaz.

## 95- Zamanın nisbi olması nə deməkdir?

Bir az əvvəl də söylədiyimiz kimi, zaman anlayışı, iki hadisəni bir-biriylə müqayisə edərək ortaya çıxar. Halbuki, bu müqayisə, beynimizin içində verilən bir qərardır və buna görə də nisbidir. Bunun ən açıq nümunəsini yuxumuzda yaşayarıq. Yuxuda gördüklərimizi saatlarla davam etmiş kimi hiss etsək də, əslində hər şey bir neçə dəqiqə, hətta bir neçə saniyə davam etmişdir. Bu mövzuyla əlaqədar bir çox nümunə Quran ayələrində də bildirilmişdir. Bəzi

ayələrdə insanların zaman hisslərinin fərqli olduğuna, insanın əslində çox qısa bir müddəti çox uzunmuş kimi qəbul edə bildiyini işarə edilmişdir. Bu mövzudakı ayələrdən biri belədir:

**Allah kafirlərdən: "Yer üzündə neçə il qaldınız?" – deyə soruşacaq. Onlar: "Bir gün yaxud bir gündən də az qaldıq. Sən günləri sayanlardan soruş" – deyəcəklər. Allah deyəcək: "Siz orada çox az qaldınız. Kaş bunu biləydiniz! (Muminun surəsi, 112-114)**

## 96- Qədər nədir?

**Biz, həqiqətən də, hər şeyi qədərincə yaratdıq. Biz bircə dəfə əmr edirik, o da bir göz qırpımında yerinə yetir (Qəmər surəsi, 49-50)**

Qədər, Allahın keçmiş və gələcək bütün hadisələri "tək bir an" olaraq bilməsidir. İnsanların əhəmiyyətli bir hissəsi, Allahın hələ yaşanmamış hadisələri əvvəldən necə bildiyini soruşarlar və qədər həqiqətini anlaya bilməzlər. Halbuki, "yaşanmamış hadisələr" bizim üçün yaşanmamış hadisələrdir. Allah isə zamandan və məkandan münəzzəhdir. Onsuz da bunları yaradan Özüdür. Allah Qatında zaman deyə bir anlayış yoxdur. Bu səbəblə, Allah üçün keçmiş, gələcək və indi hamısı birdir və hamısı olub bitmişdir.

## 97- Allahın təyin etdiyi qədəri insanların dəyişdirməsi mümkün deyil.

Bu, cəmiyyətdə yayılmış olan yanlış qədər anlayışıdır. Məsələn, ölümdən dönən bir xəstə üçün "Qədərini məğlub etdi" kimi cahil ifadələr istifadə edilər. Halbuki, kimsə qədərini dəyişdirə bilməz. Ölümdən dönən adam, qədərində ölümdən dönməsi yazılı olduğu üçün ölməmişdir. "Qədərimi məğlub etdim" deyərək özlərini aldadanlar bu cümləni söyləmələri və o psixologiyaya girmələri də yenə qədərlərindəndir.

Çünki qədər Allahın elmidir. Bütün zamanı eyni anda bilən və bütün zamana və məkana hakim olan Allah üçün hər şey qədərdə yazılmış və bitmişdir. Allah üçün zamanın tək olduğunu Quranda istifadə edilən üslubdan da başa düşürük. Bizim üçün ölümümüzdən sonra yaşanacaq bəzi hadisələr, Quranda çoxdan olub bitmiş hadisələr kimi izah edilir. Allah bizim asılı olduğumuz nisbi zaman ölçüsündən münəzzəhdir. Allah bütün hadisələri zamansızlıqda diləmiş, insanlar bunları etmiş, bütün bu hadisələr yaşanmış və sona çatmışdır.

## 98- Yenidən dirilmə necə olacaq?

Allah sonsuz gücə sahibidir və hər varlığın Yaradanıdır. Şübhəsiz, hər şeyi yoxdan var edən, insanı bir damla sudan yaradan Allah, onları bənzər bir şəkildə yenidən yaratmağa da güc yetirir. Allah insanların bu sualını Quranda belə cavablandırmışdır:

**Bu, ayələrimizi inkar etdiklərinə və: "Məgər biz sür-sümük və ovuntu olduğumuz halda yeni bir məxluq olaraq dirildiləcəyik?" – dediklərinə görə onların cəzasıdır. Məgər onlar görmürlər ki, göyləri və yeri yaradan Allah onlar kimisini də yaratmağa qadirdir? Allah onlar üçün elə bir əcəl müəyyən etmişdir ki, ona heç**

**bir şəkk-şübhə yoxdur. Zalımlar isə küfrdən başqa bir şey qəbul etmədilər. (İsra surəsi, 98-99)**

## 99- Materialist fəlsəfə nə üçün etibarlı deyil?

Materialist fəlsəfə hər şeyin maddədən ibarət olduğunu, kainatın yaradılmış olmadığını, sonsuzdan bəri var olduğunu və sonsuza qədər də varlığını davam etdirəcəyinə iddia edən batil düşüncə sistemidir.

Ancaq əsrimizdə elm sahəsindəki inkişaflar bu fəlsəfənin iddialarının tamamilə əsassız olduğunu ortaya qoymuşdur. Əvvəlcə Quranda 1400 il əvvəl xəbər verildiyi kimi, kainatın bir başlanğıcı olduğu, yəni yoxdan var edildiyi və bir sonunun olduğu elm adamları tərəfindən aydın olmuşdur. Ardından "maddə" dediyimiz şeyin əslinə heç bir zaman çata bilmədiyimiz, bir "hisslər toplusu" olduğu yenə elm tərəfindən ortaya qoyulmuşdur. Bu iki təməl iddianın yıxılması, materialist fəlsəfəni tamamilə etibarsız etmişdir.

## 100- Kainat necə var oldu?

**Göyləri və yeri yoxdan var edəndir ... (Ənam surəsi, 101)**

Bu gün elm çevrələri, kainatın Big Bang adı verilən böyük bir partlayışın ardından yoxluqdan bir anda meydana gəldiyini qəbul etmişlər. Big Bang nəzəriyyəsinin qəti şəkildə qəbul edilməsini təmin edən dəlillər bunlardır:

Kainatın genişlənməsi: 1929-ci ildə Edvin Habl (Edwin Hubble) tərəfindən bütün göy cisimlərinin bir-birlərindən uzaqlaşdığı, digər bir sözlə kainatın gedərək genişlənməsi ortaya qoyuldu. Bu, kainatın tək bir nöqtənin partlamasıyla (Böyük Partlama ilə) var olduğunun qəti dəlilidir.

Kosmik Fon Radiasiyası: Kainat kosmik bir partlayış nəticəsində ortaya çıxdığına görə bu partlayışdan geriyə qalan bir radiasiya olmalı idi və bu radiasiyanın da kainatın hər yerinə bərabər bir şəkildə dağılmış olması lazım idi. Necə ki, 1965-ci ildə lazım olan bu radiasiya tapıldı və sonrakı illərdə peyklər vasitəsilə bəhsi keçən radiasiyanın varlığı qəti olaraq təsdiqləndi.

Kainatdakı hidrogen-helium nisbəti: Big Bang-ın digər bir əhəmiyyətli dəlili isə, kosmosdakı hidrogen və helium qazlarının miqdarı oldu. Dövrümüzdə edilən ölçülərlə aydın oldu ki, kainatdakı hidrogen-helium qazlarının nisbəti Big Bangdan artan hidrogen-helium nisbətinin nəzəri hesablamalarına uyğundur. Əgər kainatın bir başlanğıcı olmasaydı və kainat sonsuzdan bəri var olsaydı, içindəki hidrogen tamamilə yanaraq heliuma çevrilmiş olardı. (http://www.evrenmucizesi.com)

Kainatın yoxdan var olduğu, digər bir sözlə yaradıldığı mənasını verən Big Bang nəzəriyyəsi, materialist fəlsəfənin kainatın sonsuzdan bəri var olduğu iddiasını qəti olaraq yıxmışdır.

## 101- Materialistlər insan ruhunu necə açıqlayır?

Hər şeyin maddədən ibarət olduğunu zənn edən materialistlər, insan ruhunu və şüurunu heç bir şəkildə açıqlaya bilməzlər. Bilindiyi kimi, yer üzündə insan bədəni də daxil olmaqla hər şeyin kökü atomlardır. Yəni canlı-cansız bütün varlıqlar atomların fərqli şəkillərdə bir yerə gəlməsiylə meydana gələrlər. Materialistlərin ən sıxışdıqları nöqtələrdən biri budur.

İnsan şüurlu, iradə sahibi, düşünə bilən, danışa bilən, ağıllı, qərar verə bilən, mühakimə edə bilən bir varlıqdır. Belə bir varlığın, materialistlərin iddia etdiyi kimi özbaşına təsadüflərlə, şüursuz atomların nəzarətsiz bir yerə gələrək ortaya çıxmış olması qeyri-mümkündür. Düşünə bilməyən, ağlını istifadə etməyən, qərar ala bilməyən atomların ani bir qərarla bir yerə gəlib insan ruhunu meydana gətirmələri mümkün deyil. Bu səbəbdən, materialistlərin insanın sahib olduğu ruh ilə əlaqədar hər hansı bir izahları da yoxdur. (www.darwinistpanik.com)

## 102- Təkamül nəzəriyyəsi nəyi iddia edər?

Təkamül nəzəriyyəsi canlılığın təsadüfən meydana gəldiyini iddia edər. Bu səbəbdən, bu elmdən kənar iddiaya görə cansız və şüursuz atomlar bir yerə gələrək əvvəl hüceyrəni meydana gətirmişlər və sonra bu atomlar bir şəkildə digər canlıları və insanı meydana gətirmişlər. Təkamülçülərin bu iddiası ilə əlaqədar bir təcrübə hazırlayaq və təkamülçülərin yüksək səslə dilə gətirə bilmədikləri bir iddianı onlar adına "Darvin düsturu" adıyla araşdıraq:

Təkamülçülər, böyük vedrənin içinə canlılığın quruluşunda olan elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə tapılmayan, ancaq bu qarışığın içində olmasını lazım bildikləri vəsaiti də bu vedrələrə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər (birinin belə təsadüfi meydana gəlmə ehtimalı 10950-də bir olan) zülal doldursunlar. Bu qarışığa istədikləri nisbətdə istilik və rütubət versinlər, inkişaf etmiş cihazlarla qarışdırsınlar. Vedrələrin başında da növbəylə milyardlarla, hətta trilyonlarla il gözləsinlər. Ancaq hər nə edirlərsə etsinlər o vedrələrdən qətiyyən bir insan çıxara bilməzlər. Aslanları, pələngləri, qarışqaları, gülləri, zanbaqları, maqnoliyaları, qırqovulları, ağacdələnləri, balinaları, kenquruları, atları, tutuquşuları, bananları, portağalları, zeytunu, narları, üzümləri və bunlar kimi milyonlarla canlı növündən heç birini meydana gətirə bilməzlər. Nəinki burada bir neçəsini saydığımız bu canlı varlıqları, bunların tək bir hüceyrəsini belə əldə edə bilməzlər.

## 103- Təkamül nəzəriyyəsinin canlıların meydana gəlməsi ilə əlaqədar iddiasının etibarlılığı vardırmı?

Xeyr, təkamülçülərin canlıların təsadüfən meydana gəldiyini irəli sürən iddiaları etibarlı deyil. Təkamül deyə bir proses yaşanmamışdır. Amma yenə də bu mövzuda israrlı olanlar üçün nəzəriyyənin keçərsizliyi ilə əlaqədar dəlilləri açıqlayaq. Təkamülçülərin müəyyən klassik iddiaları vardır. bunlar;

Təbii seleksiya və mutasiya ilə yeni canlı növlərinin meydana gəldiyini iddia edərlər.

Quruluşları təbii şərtlərə uymayan canlıların yox olacağını, uyğun olanlarınsa nəsillərini davam etdirəcəyini iddia edən təbii seleksiya mexanizminin yeni bir növ ortaya çıxarması mümkün deyil. Bu yalnız mövcud növlər arasında azalmaya səbəb olar, yeni bir növ əsla meydana gətirə bilməz. Mutasiyalar isə yalnız DNT-də təxribat edərlər. Mutasiyaların təsiri zərərlidir, yeni bir növ meydana gətirmələri da qətiyyən mümkün deyil.

Canlıların sudan quruya keçdiyini iddia edərlər.

Suda yaşayan bir canlının quruya keçməsi mümkün deyil. Çünki bir canlı bədən ağırlığını, bədən istiliyini, bədənindəki suyun istifadə etmə sistemini, böyrək quruluşunu, tənəffüs sistemini və həyat şəklini dəyişdirərək özünü tam fərqli bir canlıya çevirə bilməz.

Quşların sürünənlərdən təkamül keçirdiyini iddia edərlər.

Belə bir şey də mümkün deyil. Çünki;

Quşların qanadlarının sürünənlərin pullarının dəyişməsiylə meydana gəlməsi qeyri-mümkündür.

Quşların ciyərləri, quru canlıların ağciyərlərindən tamamilə fərqli bir şəkildə işləyər.

Quşların uçmalarında əhəmiyyətli amil olan sümükləri quru canlılarına görə yüngüldür.

Quşların və sürünənlərin əzələ-skelet sistemləri bir-birindən tamamilə fərqlidir.

Məməlilərin də sürünənlərdən təkamül keçirdiyini iddia edərlər.

Bu da tamamilə əsassız bir iddiadır. Çünki, sürünənlərin bədənləri pullarla örtülüdür, soyuqqanlıdırlar və yumurtlayaraq çoxalarlar. Məməlilər isə istiqanlıdırlar, bədənləri tüklərlə örtülüdür və doğaraq çoxalarlar.

## 104- Təkamülü çürüdən digər dəlillər nələrdir?

Bu dəlilləri çox təfərrüatlı sıralamaq mümkündür. Amma müəyyən olan bir neçəsi bunlardır:

Əvvəlcə bu gün elm, qəti olaraq isbat edib ki, cansız maddələrdən canlı maddələr əmələ gələ bilməz.

İndiyə qədər təkamülçülərin canlıların bir-birindən təkamül yolu ilə inkişaf etdiyi iddiasını dəstəkləyən tək bir ara keçid fosili (daşlaşmış qalıntı) belə tapılmamışdır. Normal növlərə aid fosillərin milyonlarla olmasına baxmayaraq, bu günə qədər heç bir yarı sürünən-yarı quş, yarı balıq-yarı sürünən, yarı meymun-yarı insan canlıya aid bir izə rast gəlinməmişdir. Bu günə qədər əldə edilən 250 milyon fosil, təkamülün heç bir zaman yaşanmadığını, canlıların ortaq bir atadan gəlmədiklərini, növlərin bir-birlərinə çevrilmədiklərini isbat etmişdir. Fosil qeydlərinin ortaya qoyduğu həqiqət, hər bir canlı növünün, sahib olduğu bütün xüsusiyyətlərlə bir anda yaradıldığı və nəsli davam etdiyi müddətcə heç dəyişmədiyidir.

Canlılığın təməl daşı olan zülallar təsadüfən yaranmazlar. 500 amin turşulu bir zülalın təsadüfən meydana gəlmə ehtimalı 10 üstü 950-də birdir. Qısacası, ağılın qavrama sərhədlərinin çox üstündə olan bu ehtimalın reallaşma ehtimalı "0" dır.

## 105- Təkamül nəzəriyyəsi canlılığın dünya üzərində birdən ortaya çıxışını necə açıqlayır?

Təkamül nəzəriyyəsi yer üzündə canlıların ortaya çıxışı ilə əlaqədar heç bir açıqlama vermir.

Yer üzü təbəqələri və fosil (daşlaşmış qalıntı) qeydləri araşdırıldığında, yer üzündəki canlı həyatının birdən-birə ortaya çıxdığı görülür. Kompleks canlıların fosillərinə rast gəlinən ən dərin

yer təbəqəsi, 520-530 milyon il yaşında olduğu hesablanan "Kembri" təbəqəsidir. Kembri qayalıqlarında olan fosillər müxtəlif kompleks onurğasız növlərinə aiddir. Maraqlı olan, bir-birindən çox fərqli olan bu növlərin hamısının bir anda və heç bir ataları olmadan ortaya çıxmalarıdır. Buna görə geoloji ədəbiyyatda bu möcüzəvi hadisə, "Kembri partlayışı" olaraq adlanır.

Dünyanın necə olub da belə birdən-birə bir-birlərindən çox fərqli onurğasız növləriylə dolub daşdığı, heç bir ortaq ataya sahib olmayan ayrı növlərdəki canlıların heç bir təkamül mərhələsi keçirmədən necə ortaya çıxdıqları təkamülçülərin əsla cavab verə bilmədikləri suallardır. (http://www.hayvanlaralemi.net)

## 106- Təkamülçülərin xalqı aldatmaq məqsədiylə etdikləri saxtakarlıqlar nələrdir?

Qəzetlərdə, jurnallarda, filmlərdə görülən "meymun adam" ların hamısı əslində təkamülçülərin xəyal məhsulu olan şəkillərdir. Təkamülçülər bəzən tək bir dişə əsaslanaraq, burun, dodaqların quruluşu, saçların şəkli, qaş forması kimi fosil (daşlaşmış qalıntı) izi buraxmayan xüsusiyyətləri öz ağıllarına görə formalaşdırır və yarı meymun-yarı insan görünüşündə təsvirlər hazırlayır, hətta bunların ailələrini və ictimai həyatlarını mövzu edən saxta şəkillər çəkərlər. Bu metoddan istifadə edərək xalqı səhv istiqamətləndirməyə çalışırlar.

Bununla yanaşı, təkamülçülər tapa bilmədikləri qalıqları "hazırlayarlar", yəni saxtakarlıqlar edərlər. Zaman ərzində ortaya çıxan bu saxtakarlıqlardan ən məşhur olan bir neçəsi bunlardır:

Piltdaun adamı: Təkamülçülər insan kəlləsinə oranqutan çənəsi əlavə etdikləri bu saxtakarlıqla elm dünyasını 40 il aldatmışlar. 500 il yaşında insan kəlləsinə, yeni ölmüş bir oranqutanın çənə sümüyünü əlavə etmişlər. Dişləri, insana aid olduğu təəssüratını vermək üçün sonradan əlavə etmişlər, oynaq yerlərini də incəltmişlər. Həmçinin, bütün hissələr köhnə görünməsi üçün kalium-dikromat ilə ləkələndirilmişdir.

Nebraska adamı: 1922-ci ildə təkamülçülər tapdıqları bir azı dişi qalığının insan və meymunların ortaq xüsusiyyətlərini daşıdığını iddia etmişlər. Bu mövzuyla əlaqədar çox dərin elmi tədqiqatlar aparılmış və dişə Nebraska adamı adı verilmişdir. Bu tək dişə əsaslanaraq Nebraska adamının kəlləsinin və bədəninin rekonstruksiya şəkilləri çəkilmişdir. Hətta daha da irəli gedilərək Nebraska adamının, həyat yoldaşının və uşaqlarının təbii mühitdə ailəvi şəkilləri də dərc edilib. Ancaq 1927-ci ildə skeletin o biri hissələri də tapılmış və bu dişin bir qabana aid olduğu aydın olmuşdur.

## 107- "İbtidai insan" anlayışı təkamülçü bir fərziyyədir.

İbtidai insan deyə bir şey yoxdur. Bu mövzudakı bir çox dəlildən bir neçəsi bu cürdür:

1995-ci ildə İspaniyada tapılan insan qalığı "insanın təkamülü" nağılını qəti olaraq yıxmışdır. Atapuerca bölgəsində olan 800 min illik insanın kəllə qutusu fosili, təkamülçülərin yarı meymun canlıların yaşadığını iddia etdikləri dövrə aiddir və dövrümüzdəki insandan fərqi yoxdur. Yəni 800 min il əvvəlki insanla bugünkü insan arasında heç bir fərq yoxdur.

14 Mart 1998-ci ildə New Scientist jurnalında nəşr olunan, "İlk insanlar sandığımızdan çox daha ağıllıydı ..." başlıqlı bir xəbərə görə; təkamülçülərin Homo Erectus olaraq adlandırdıqları insanlar bundan 700 min il əvvəl gəmiçilik edirdilər. Gəmi düzəltmək üçün məlumat və

texnologiyaya və dəniz nəqliyyatını tələb edən bir mədəniyyətə sahib olan bu insanların "ibtidai" sayılması əlbəttə qeyri-mümkündür. (http://www.yasayanfosiller.com)

Təkamülçülərin Neandertal insan olaraq təyin etdiyi insan irqinin, dövrümüzdən on minlərlə il əvvəl geyim-keçim məlumatına sahib olduğunu göstərən 26 min illik iynə qalıqları da tapılmışdır. Bundan aydın olur ki, saxtakarlıqlarla qəsdən meymunabənzər bir görünüş verilən Neandertalların da dövrümüzdəki insanlarından heç bir fərqləri yoxdur.

## 108- Canlılardakı mürəkkəb sistemlərin meydana gəlməsi təkamüllə açıqlana bilərmi?

Xeyr, açıqlana bilməz. Canlılardakı göz, qulaq kimi çox hissədən ibarət olan kompleks sistemlər, ancaq bütün hissələri əskiksiz olaraq bir yerdə olduğunda fəaliyyət göstərə bilirlər. Məsələn, gözün görə bilməsi üçün onu meydana gətirən 40-a yaxın orqanoidin bir yerdə olması zəruridir. Bunlardan tək biri məsələn, gözün tor qişası və ya göz yaşı vəziləri olmazsa, göz görə bilməz. Bu səbəbdən, buradan çıxan nəticə bu cür sistemlərin bütün parçalarının tək bir anda var olmalı olduğudur. Bu da təkamülün etibarsızlığını bir daha ortaya qoyur.

Yaxşı, kompleks bir quruluş, bir anda var olmuşsa bunun mənası nədir? Şübhəsiz, bir çox hissənin eyni anda, eyni yerdə meydana gəlməsi ancaq xüsusi bir yaradılışın nəticəsində ola bilər.

## 109- Təkamül nəzəriyyəsi, elmi baxımdan heç bir etibarlılığı olmadığı halda, niyə bəzi çevrələr tərəfindən bu qədər israrla müdafiə olunur?

Allahın varlığını göz ardı edən, Ona qarşı məsul olduğunu qəbul etmək istəməyən insanlar, bu istəklərini reallaşdıra bilmək və digər insanlara da bu düşüncələrini qəbul etdirə bilmək üçün məqbul bir səbəb axtararlar. Hər şeyin təsadüfən meydana gəldiyini iddia edərək, Allahın açıq-aşkar varlığını inkar etdirməyə və bununla da kimsəyə qarşı məsul olmadıqlarını qəbul etdirməyə çalışırlar. (Allahı tənzih edirik).

Məhz bu nöqtədə, təkamül nəzəriyyəsi, inkarçı fəlsəfələr üçün guya elmi dayaq meydana gətirər. Bundan ötrü Allahı inkar etməkdə israrlı insanlar, elmi bir etibarlılığı olmasa da, doğruluğuna inansalar da, inanmasalar da bu nəzəriyyəni ideoloji və fəlsəfi bir zərurət olaraq müdafiə edirlər.

(http://www.evrimbilimdegildir.com

**... Sən pak və müqəddəssən, bizə öyrətdiklərindən**
**başqa bizim heç bir məlumatımız yoxdur.**
**Həqiqətən, Sən hər şeyi bilən,**
**hökm və hikmət sahibi Sənsən.**
**(Bəqərə surəsi, 32)**

# TƏKAMÜL YALANI

Darvinizm, yəni təkamül nəzəriyyəsi yaradılış həqiqətini inkar etmək məqsədilə irəli sürülmüş, ancaq uğursuzluqla nəticələnmiş elmdən kənar cəfəngiyatdan başqa bir şey deyil. Canlıların cansız maddələrdən təsadüfən əmələ gəldiyini iddia edən bu nəzəriyyə kainatda və canlılarda çox möcüzəvi nizam olduğunun elm tərəfindən sübut edilməsi ilə və təkamül prosesinin əsla baş vermədiyini göstərən 350 milyona yaxın fosilin tapılması ilə süqut etmişdir. Beləliklə, Allah'ın bütün kainatı və canlıları yaratdığı elm tərəfindən də sübut edilmişdir. Bu gün təkamül nəzəriyyəsini dirçəltmək üçün dünya səviyyəsində aparılan təbliğat sadəcə elmi həqiqətlərin təhrif olunmasına, tərəfli şərhinə, elm adı altında söylənilən yalan və saxtakarlıqlara əsaslanır.

Ancaq bu təbliğat həqiqəti gizlətmir. Təkamül nəzəriyyəsinin elm tarixində ən böyük xəta olması son 20-30 il ərzində elm dünyasında getdikcə daha ucadan dilə gətirilir. Xüsusilə 1980-ci illərdən sonra aparılan tədqiqatlar darvinist iddiaların tamamilə səhv olduğunu üzə çıxarmış və bu həqiqət bir çox elm adamı tərəfindən dilə gətirilmişdir. ABŞ-da biologiya, biokimya, paleontologiya kimi fərqli sahələrlə məşğul olan bir çox elm adamı darvinizmin əsassızlığını görür, canlıların mənşəyini artıq yaradılışla açıqlayırlar.

Təkamül nəzəriyyəsinin süqutundan və yaradılış dəlillərindən digər bir çox əsərimizdə bütün elmi təfərrüatları ilə bəhs etmişik və etməyə davam edirik. Ancaq əhəmiyyəti baxımından mövzudan burada da bəhs etməkdə fayda var.

## Darvini məhv edən çətinliklər

Təkamül nəzəriyyəsi tarixi qədim yunanlara gedib çıxan bir təlim olmasına baxmayaraq, XIX əsrdə hərtərəfli şəkildə irəli sürüldü. Nəzəriyyəni elm dünyasının gündəminə gətirən ən mühüm irəliləyiş Çarlz Darvinin 1859-cu ildə nəşr edilən "Növlərin mənşəyi" adlı kitabı idi. Darvin bu kitabda dünyadakı müxtəlif canlı növlərini Allah'ın ayrı-ayrı yaratdığına qarşı çıxırdı. Darvinin fikrincə, bütün növlər ortaq əcdaddan törəmiş və zaman ərzində kiçik dəyişikliklərlə müxtəlifləşmişdilər.

Darvinin nəzəriyyəsi heç bir konkret elmi tapıntıya əsaslanmırdı; özünün də qəbul etdiyi kimi, sadəcə bir məntiq yeritmə idi. Hətta Darvin kitabındakı "Nəzəriyyənin qarşısında duran çətinliklər" başlıqlı uzun bölmədə etiraf etdiyi kimi, nəzəriyyə bir çox mühüm suala cavab verə bilmirdi.

Darvin nəzəriyyəsinin qarşısındakı çətinliklərə inkişaf edən elmin üstün gələcəyinə, yeni elmi kəşflərin nəzəriyyəsini gücləndirəcəyinə ümid edirdi. Bunu kitabında tez-tez

bildirirdi. Ancaq inkişaf edən elm Darvinin ümidlərinin tam əksinə, nəzəriyyənin əsas iddialarını bir-bir əsassız qoydu.

Darvinizmin elm qarşısındakı məğlubiyyətini üç əsas başlıq altında təhlil etmək olar:

Nəzəriyyə həyatın yer üzündə ilk dəfə necə ortaya çıxdığını əsla açıqlaya bilmir.

Nəzəriyyənin irəli sürdüyü təkamül mexanizmlərinin, əslində, təkamül xarakterinə malik olduğunu göstərən heç bir elmi tapıntı yoxdur.

Fosillər təkamül nəzəriyyəsinin iddialarının tam əksini göstərir.

Bu bölmədə bu üç əsas başlığı əsaslı təhlil edəcəyik.

**Keçilməz ilk pillə: həyatın mənşəyi**

Təkamül nəzəriyyəsi bütün canlı növlərinin bundan təxminən 3.8 milyard il əvvəl dünyada fantastik şəkildə təsadüfən meydana gələn bircə canlı hüceyrədən törədiklərini iddia edir. Bircə hüceyrənin milyonlarla kompleks canlı növünü necə əmələ gətirməsi və əgər həqiqətən bu cür təkamül baş vermişsə, nə üçün izlərinin fosillərdə tapılmadığı nəzəriyyənin açıqlaya bilmədiyi suallardandır. Ancaq bütün bunlardan əvvəl iddia edilən təkamül prosesinin ilk pilləsi üzərində dayanmaq lazımdır. Həmin ilk hüceyrə necə ortaya çıxmışdır?

Təkamül nəzəriyyəsi cahilliklə yaradılışı inkar etdiyinə görə, həmin ilk hüceyrənin heç bir plan və nizam olmadan təbiət qanunları çərçivəsində təsadüfən meydana gəldiyini iddia edir. Yəni bu nəzəriyyəyə əsasən, cansız maddə kortəbii təsadüflər nəticəsində ortaya canlı hüceyrə çıxarmalıdır. Ancaq bu, məlum olan ən təməl biologiya qanunlarına zidd iddiadır.

**Həyat həyatdan gəlir**

Darvin kitabında həyatın mənşəyindən heç bəhs etməmişdi. Çünki onun dövründəki ibtidai elm anlayışı canlıların çox sadə quruluşa malik olduqlarını fərz edirdi. Orta əsrlərdən bəri “spontane generation” adlı nəzəriyyəyə əsasən, cansız maddələrin təsadüfən birləşərək canlı varlıq əmələ gətirməsinə inanırdılar. Bu dövrdə həşəratların yemək artıqlarından, siçanların da buğdadan əmələ gəlməsi geniş yayılmış düşüncə idi. Bunu sübut etmək üçün qəribə təcrübələr aparılmışdı. Çirkli əsginin üstünə bir az buğda qoyulmuş və bir müddət sonra bu qarışıqdan siçanların əmələ gəlməsini gözləmişdilər.

Ətin qurdlanması da həyatın cansız maddələrdən törədiyinə dəlil hesab edilirdi. Lakin daha sonra məlum olacaqdı ki, ətin üstündəki qurdlar öz-özlərindən əmələ gəlmirlər, milçəklərin gətirib qoyduğu gözlə görülməyən sürfələrdən çıxırdılar. Darvin “Növlərin mənşəyi” adlı kitabını yazdığı dövrdə isə bakteriyaların cansız maddədən əmələ gəlməsi inancı elm dünyasında geniş şəkildə qəbul edilirdi.

Lakin Darvinin kitabının nəşr edilməsindən beş il sonra məşhur fransız bioloq Lui Paster təkamülə əsas verən bu inancı qəti şəkildə təkzib etdi. Paster apardığı uzun elmi fəaliyyət və təcrübələrdə gəldiyi nəticəni belə şərh etmişdi:

"Cansız maddələrin həyatı əmələ gətirməsi iddiası artıq qəti şəkildə tarixə gömülmüşdür". *(Sidney Fox, Klaus Dose, Molecular Evolution and The Origin of Life, New York: Marcel Dekker, 1977, səh. 2)*

Təkamül nəzəriyyəsinin tərəfdarları Pasterin kəşflərinə uzun müddət qarşı çıxdılar. Ancaq inkişaf edən elm canlı hüceyrəsinin mürəkkəb quruluşunu üzə çıxardıqca həyatın öz-özünə əmələ gəlməsi iddiasının əsassızlığı daha da açıq şəkil aldı.

**XX əsrdəki nəticəsiz səylər**

XX əsrdə həyatın mənşəyi mövzusunu tədqiq edən ilk təkamülçü məşhur rus bioloq Aleksandr Oparin oldu. Oparin 1930-cu illərdə irəli sürdüyü bəzi tezislərlə canlı hüceyrəsinin təsadüfən meydana gələ biləcəyini sübut etməyə çalışdı. Ancaq bu fəaliyyətlər uğursuzluqla nəticələnəcək və Oparin bu etirafı etməli olacaqdı:

"Təəssüf ki, hüceyrənin mənşəyi təkamül nəzəriyyəsinin tamamilə əhatə edən ən qaranlıq nöqtədən ibarətdir". *(Alexander I. Oparin, Origin of Life, (1936) New York, Dover Publications, 1953 (Reprint), səh. 196)*

Oparinin yolunu davam etdirən təkamülçülər həyatın mənşəyi problemini həll etmək üçün təcrübələr aparmağa çalışdılar. Bu təcrübələrin ən məşhuru amerikalı kimyaçı Stenli Miller tərəfindən 1953-cü ildə aparıldı. Miller ibtidai atmosferdə mövcud olduğunu iddia etdiyi qazları bir təcrübədə birləşdirdi və bu qarışığa enerji verərək zülalları təşkil edən bir neçə üzvi molekul (amin turşusu) sintezlədi.

O illərdə təkamüllə bağlı mühüm mərhələ kimi tanıdılan bu təcrübənin əsassız olduğu və təcrübədə tətbiq edilən atmosferin yer şərtlərindən çox fərqli olduğu sonrakı illərdə üzə çıxacaqdı. *("New Evidence on Evolution of Early Atmosphere and Life", Bulletin of the American Meteorological Society, c. 63, Kasım 1982,* səh. 1328-1330)

Uzun sükutdan sonra Millerin özü də tətbiq etdiyi atmosfer mühitinin həqiqi olmadığını etiraf etdi. *(Stanley Miller, Molecular Evolution of Life: Current Status of the Prebiotic Synthesis of Small Molecules, 1986, səh. 7)*

Həyatın mənşəyi problemini açıqlamaq üçün XX əsr boyu göstərilən bütün təkamülçü səylər uğursuzluqla nəticələndi. San Diyeqo Skrips İnstitutundan məşhur geokimyaçı Cefri Bada təkamülçü "Earth" jurnalında 1998-ci ildə dərc edilən bir məqalədə bu həqiqəti belə qəbul edir:

“Bu gün XX əsri arxada qoyarkən hələ də XX əsrin başlanğıcındakı ən böyük həll edilməmiş problemlə qarşı-qarşıyayıq: həyat yer üzündə necə başlayıb”. *(Jeffrey Bada, Earth, Şubat 1998, səh. 40)*

**Həyatın kompleks quruluşu**

Təkamülçülərin həyatın mənşəyi ilə bağlı bu qədər çıxılmaz vəziyyətə düşməsinin başlıca səbəbi ən sadə hesab etdikləri canlıların bu qədər mürəkkəb quruluşa malik olmasıdır. Canlı hüceyrəsi insanın hazırladığı bütün texnoloji məhsullardan daha mürəkkəbdir. Belə ki, bu gün dünyanın ən qabaqcıl laboratoriyalarında belə cansız maddələr birləşdirilərək nəinki canlı hüceyrə, hətta hüceyrəyə aid bircə zülal da hasil etmək mümkün deyil.

Bir hüceyrənin meydana gəlməsi üçün lazımlı şərtlər əsla təsadüflərlə açıqlanmayacaq qədər çoxdur. Lakin bunu açıqlamağa heç ehtiyac yoxdur. Təkamülçülər hələ hüceyrə səviyyəsinə çatmadan çıxılmaz vəziyyətə düşürlər. Çünki hüceyrənin əsasını təşkil edən zülalların təsadüfən sintezlənmə ehtimalı riyazi cəhətdən sıfırdır.

Bunun ən əsas səbəbi budur ki, bir zülalın əmələ gəlməsi üçün başqa zülallar da olmalıdır. Bu səbəb bir zülalın təsadüfən əmələgəlmə ehtimalını tamamilə aradan qaldırır. Ona görə, təkcə bu fakt təkamülçülərin təsadüf iddiasını təkzib etmək üçün kifayətdir. Mövzunun əhəmiyyətini qısaca açıqlayaq:

**- Fermentlər olmasa, zülal sintezlənə bilməz, fermentlər də zülaldır.**

**- Bircə zülalın sintezlənməsi üçün 100-ə yaxın hazır zülal olmalıdır. Ona görə, zülalların olması üçün zülallar lazımdır.**

**- Zülalları sintezləyən fermentləri DNT hazırlayır. DNT olmasa, zülal sintezlənə bilməz. Ona görə, zülalların əmələ gəlməsi üçün DNT də lazımdır.**

**-Zülal sintezləmə prosesində hüceyrədəki bütün orqanoidlərin mühüm funksiyaları var. Yəni zülalların əmələ gəlməsi üçün tam funksional hüceyrə bütün orqanoidləri ilə birlikdə mövcud olmalıdır.**

Hüceyrənin nüvəsində yerləşən, genetik məlumat daşıyan DNT molekulu isə informasiya bankıdır. İnsan DNT-sindəki informasiyanı kağıza köçürmək istəsək, hər biri 500 səhifədən ibarət 900 cildlik kitabxana ortaya çıxar.

Burada çox maraqlı dilemma da var: DNT ancaq bir sıra xüsusi zülalların (fermentlərin) köməyi ilə qoşalaşa bilər. Amma bu fermentlər də ancaq DNT-dəki informasiya əsasında sintezlənir. Bir-birlərindən asılı olduqlarına görə, DNT-nin qoşalaşması üçün ikisi də eyni anda mövcud olmalıdır. Bu isə həyatın öz-özünə meydana gəlməsi ssenarisini çıxılmaz

vəziyyətə salır. San Diyeqo Kaliforniya Universitetindən məşhur təkamülçü prof. Lesli Orcel "Scientific American" jurnalının 1994-cü il oktyabr sayında bu həqiqəti belə etiraf edir:

"Olduqca kompleks quruluşa malik olan zülalların və nuklein turşularının (RNT və DNT) eyni yerdə və eyni zamanda təsadüfən əmələ gəlmələri həddindən artıq ehtimaldan kənardır. Ancaq bunların biri olmadan digərini əldə etmək də mümkün deyil. Ona görə, insan məcburən həyatın kimyəvi yollarla meydana gəlməsinin tamamilə qeyri-mümkün olduğu nəticəsinə gəlir". *(Leslie E. Orgel, The Origin of Life on Earth, Scientific American, c. 271, Ekim 1994, səh. 78)*

Şübhəsiz ki, əgər həyatın kortəbii təsadüflərlə öz-özünə meydana gəlməsi mümkün deyilsə, onda həyatın yaradıldığı qəbul edilməlidir. Bu həqiqət əsas məqsədi yaradılışı inkar etmək olan təkamül nəzəriyyəsini açıq-aydın əsassız edir.

### Təkamülün xəyali mexanizmləri

Darvinin nəzəriyyəsini əsassız edən ikinci əsas cəhət nəzəriyyənin təkamül mexanizmləri kimi irəli sürdüyü iki anlayışın da, əslində, heç bir təkamül gücünə malik olmamasıdır.

Darvin irəli sürdüyü təkamül iddiasını tamamilə təbii seleksiya mexanizmi ilə əlaqələndirmişdi. Bu mexanizmə verdiyi əhəmiyyət kitabının adından da açıq şəkildə başa düşülür: "Növlərin mənşəyi, təbii seleksiya yolu ilə..."

Təbii seleksiya təbii seçmə deməkdir, təbiətdəki həyat uğrunda mübarizədə təbii şərtlərə uyğun və güclü canlıların həyatda qalacağı düşüncəsinə əsaslanır. Məsələn, yırtıcı heyvanlar tərəfindən təhlükəyə məruz qalan bir maral sürüsündə daha sürətlə qaçan marallar həyatda qalacaq. Beləliklə, maral sürüsü sürətlə qaçan və güclü fərdlərdən ibarət olacaq. Amma bu mexanizm maralların təkamül keçirməsinə səbəb olmaz, onları başqa bir canlı növünə, məsələn, atlara çevirməz.

Ona görə, təbii seçmə mexanizmi heç bir təkamül gücünə malik deyil. Darvin də bu həqiqəti anlamışdı və "Növlərin mənşəyi" adlı kitabında: **"Faydalı dəyişikliklər baş vermədikcə təbii seçmə heç bir şey edə bilməz"**, - demək məcburiyyətində qalmışdı. *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 184)*

### Lamarkın təsiri

Bəs bu faydalı dəyişikliklər necə baş verə bilərdi? Darvin öz dövrünün ibtidai elm anlayışı çərçivəsində bu suala Lamarka əsaslanaraq cavab verməyə çalışmışdı. Darvindən əvvəl yaşamış fransız bioloq Lamarka görə, canlılar həyatları boyu keçirdikləri fiziki dəyişiklikləri sonrakı nəslə ötürürlər, nəsildən-nəslə toplanan bu xüsusiyyətlər nəticəsində

yeni növlər meydana gəlir. Məsələn, Lamarkın fikrincə, zürafələr ceyranlardan törəyiblər, hündür ağacların yarpaqlarını yeməyə çalışarkən nəsildən-nəslə boyunları uzanmışdır.

Darvin də buna bənzər misallar çəkmiş, məsələn, "Növlərin mənşəyi" kitabında qida tapmaq üçün suya girən bəzi ayıların tədricən balinalara çevrildiyini iddia etmişdi. (B. G. Ranganathan, Origins?, Pennsylvania: The Banner Of Truth Trust, 1988.)

Lakin Mendelin kəşf etdiyi və XX əsrdə inkişaf edən genetika elmi ilə qəti şəkildə sübut edilən genetika qanunları qazanılmış xüsusiyyətlərin sonrakı nəsillərə ötürülməsi əfsanəsini məhv etdi. Beləliklə, təbii seçmə "təkbaşına" və tamamilə təsirsiz mexanizm olaraq qaldı.

**Neodarvinizm və mutasiyalar**

Darvinistlər isə bu vəziyyətə bir çıxış yolu tapmaq üçün 1930-cu illərin sonlarında müasir sintetik nəzəriyyəni və ya daha geniş yayılmış adı ilə neodarvinizmi ortaya atdılar. Neodarvinizm təbii seçmənin yanına faydalı dəyişiklik səbəbi kimi mutasiyaları, yəni canlıların genlərində radiasiya kimi xarici amillər və ya transkripsiya xətaları nəticəsində əmələ gələn pozulmaları əlavə etdi. Bu gün də elmi cəhətdən əsassız olduğunu bilmələrinə baxmayaraq, darvinistlər neodarvinist modeli müdafiə edirlər. Nəzəriyyə yer üzündəki milyonlarla canlı növünün, onların qulaq, göz, ağciyər, qanad kimi saysız-hesabsız mürəkkəb orqanlarının mutasiyalara, yəni genetik pozulmalara əsaslanan bir proses nəticəsində əmələ gəldiyini iddia edir. Amma nəzəriyyəni çarəsiz qoyan bir açıq elmi həqiqət var: mutasiyalar canlıları təkmilləşdirmirlər, əksinə, hər zaman canlılara zərər verirlər.

Bunun səbəbi çox sadədir: DNT çox mürəkkəb quruluşa malikdir. Bu molekula olan hər hansı təsadüfi təsir ancaq zərər verir. Amerikalı genetik B.G. Ranqanatan bunu belə açıqlayır:

"Mutasiyalar kiçik, təsadüfi və zərərlidirlər. Çox nadir meydana gəlirlər və ən yaxşı halda təsirsizdirlər. Bu üç xüsusiyyət mutasiyaların təkamül xarakterli təsir meydana gətirməyəcəyini sübut edir. Yüksək dərəcədə xüsusiləşmiş orqanizmdə meydana gələn təsadüfi dəyişiklik ya təsirsiz, ya da zərərli olur. Bir qol saatında meydana gələn təsadüfi dəyişiklik qol saatını təkmilləşdirməz. Ona böyük ehtimalla zərər verər və ya ən yaxşı halda təsir etməz. Bir zəlzələ bir şəhəri daha yaxşı hala salmaz, onu məhv edər". *(Charles Darwin, The Origin of Species: A Facsimile of the First Edition, Harvard University Press, 1964, səh. 179)*

Bu günə qədər heç bir faydalı, yəni genetik məlumatı təkmilləşdirən mutasiya müşahidə edilməyib. Bütün mutasiyaların zərərli olması aşkar edilib. Aydın olmuşdur ki, təkamül nəzəriyyəsinin təkamül mexanizmi kimi göstərdiyi mutasiyalar, əslində, canlıları sadəcə məhv edən, şikəst edən genetik hadisələrdir (insanlarda mutasiyanın ən çox rast

gəlinən təsiri xərçəngdir). Əlbəttə, məhvedici mexanizm təkamül mexanizmi ola bilməz. Təbii seçmə isə Darvinin də qəbul etdiyi kimi, tək başına heç bir şey edə bilməz. Bu həqiqət bizə təbiətdə heç bir təkamül mexanizminin olmadığını göstərir. Təkamül mexanizmi olmadığına görə, təkamül deyilən xəyali proses də baş verməyib.

**Fosillər: ara-keçid formalardan əsər-əlamət yoxdur**

Təkamül nəzəriyyəsinin iddia etdiyi prosesin baş vermədiyinin ən açıq göstəricisi isə fosillərdir.

Təkamül nəzəriyyəsinə görə, bütün canlılar bir-birlərindən törəyiblər. Əvvəlcədən mövcud olan bir canlı növü zaman ərzində digərinə çevrilmiş və bütün növlər bu şəkildə əmələ gəlmişlər. Nəzəriyyəyə əsasən, bu çevrilmə yüz milyon illər davam edən uzun dövrü əhatə etmiş və mərhələ-mərhələ irəliləmişdir. Bu təqdirdə iddia edilən uzun çevrilmə prosesi zamanı saysız-hesabsız ara növlər əmələ gəlməli və yaşamalıdırlar.

Məsələn, keçmişdə balıq xüsusiyyətlərini daşımalarına baxmayaraq, bir tərəfdən də bəzi sürünən canlı xüsusiyyətlərini qazanmış yarı-balıq, yarı-sürünən canlılar yaşamalıdır və ya sürünən xüsusiyyətlərini daşıyan, bir tərəfdən də bəzi quş xüsusiyyətləri qazanmış sürünən quşlar ortaya çıxmalıdır. Bunlar bir keçid prosesində olduqları üçün şikəst, yarımçıq, qüsurlu canlılar olmalıdır. Təkamülçülər keçmişdə yaşadığına inandıqları bu nəzəri məxluqları “ara-keçid forması” adlandırırlar.

Əgər, həqiqətən, bu cür canlılar keçmişdə yaşayıbsa, onların sayı və növü milyonlarla, hətta milyardlarla olmalıdır və bu əcaib canlıların qalıqlarına mütləq fosil izlərində rast gəlinməlidir. Darvin “Növlərin mənşəyi”ndə bunu belə açıqlamışdır:

“Əgər nəzəriyyəm doğrudursa, növləri bir-biri ilə əlaqələndirən saysız-hesabsız ara-keçid növləri keçmişdə mütləq yaşamalıdır... Onların yaşadığının dəlilləri də sadəcə fosil qalıqları arasında tapıla bilər”. *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

Ancaq bu sətirləri yazan Darvin ara-keçid formaların heç cür tapılmadığını bilir və bunun nəzəriyyəsi üçün böyük problem olduğunu görürdü. Ona görə, “Növlərin mənşəyi” kitabının “Nəzəriyyənin qarşısında duran çətinliklər” (Difficulties on Theory) adlı bölməsində belə yazmışdı:

“Əgər, həqiqətən, növlər digər növlərdən yavaş dəyişikliklərlə törəyibsə, nə üçün saysız-hesabsız ara-keçid formasına rast gəlmirik? Nə üçün bütün təbiət qarmaqarışıq vəziyyətdə deyil, məhz yerli-yerindədir? Saysız-hesabsız ara-keçid forması olmalıdır, bəs nə üçün yer üzünün çoxsaylı təbəqələrində onları tapmırıq?... Nə üçün hər geoloji forma və hər təbəqə belə qalıqlarla dolu deyil?” *(Charles Darwin, The Origin of Species, səh. 172, 280)*

## Darvinin puç olan ümidləri

Ancaq XIX əsrin ortasından indiyə qədər dünyanın hər tərəfində qızğın fosil araşdırmaları aparılmasına baxmayaraq, ara-keçid formalarına rast gəlinməmişdir. Aparılan qazıntı işlərində və tədqiqatlarda əldə edilən bütün tapıntılar təkamülçülərin gözlədiklərinin əksinə, canlıların yer üzündə birdən-birə, tam və qüsursuz formada ortaya çıxdıqlarını göstərmişdir.

Məşhur ingilis paleontoloq Derek V. Eycer təkamülçü olmasına baxmayaraq, bu həqiqəti belə etiraf edir:

“Problemimiz budur: fosilləri hərtərəfli tədqiq etdikdə növlər və ya siniflər səviyyəsində belə daima eyni həqiqətlə qarşılaşırıq; mərhələli təkamüllə təkmilləşən deyil, birdən-birə yer üzündə əmələ gələn qruplar görürük”. (Derek A. Ager, “The Nature of the Fossil Record”, Proceedings of the British Geological Association, c. 87, 1976, səh. 133)

Yəni fosil qeydlərində bütün canlı növləri aralarında heç bir keçid forması olmadan, tam formada ani surətdə ortaya çıxırlar. Bu, Darvinin fikirlərinin tam əksidir. Habelə, bu, canlı növlərinin yaradıldıqlarını göstərən çox güclü dəlildir. Çünki bir canlı növünün heç bir əcdadı olmadan, bir anda və qüsursuz şəkildə ortaya çıxmasının tək açıqlaması var: o növ yaradılmışdır. Bu həqiqət məşhur təkamülçü bioloq Duqlas Futuyma tərəfindən də qəbul edilir:

“Yaradılış və təkamül yaşayan canlıların mənşəyi haqqında iki yeganə açıqlamadır. Canlılar dünyada ya tamamilə mükəmməl və tam formada ortaya çıxmışlar, ya da belə olmamışdır. Əgər belə olmamışdırsa, bir dəyişiklik prosesi nəticəsində özlərindən əvvəl mövcud olan bəzi canlı növlərindən təkamül keçirərək meydana gəlməlidirlər. Amma əgər tam və mükəmməl formada ortaya çıxıblarsa, onda sonsuz güc sahibi olan bir ağıl tərəfindən yaradılmışlar”. *(Douglas J. Futuyma, Science on Trial, New York: Pantheon Books, 1983. Səh. 197)*

Fosillər isə canlıların yer üzündə tam və mükəmməl formada ortaya çıxdıqlarını göstərir. Yəni “növlərin mənşəyi” Darvinin hesab etdiyinin əksinə, təkamül deyil, yaradılışdır.

## İnsanın təkamülü nağılı

Təkamül nəzəriyyəsinin tərəfdarlarının ən çox gündəmə gətirdikləri məsələ insanın mənşəyidir. Bununla bağlı darvinist iddia bu gün yaşayan müasir insanın meymunabənzər məxluqlardan törədiyini zənn edir. 4-5 milyon il əvvəl başladığı fərz edilən bu prosesdə müasir insan ilə əcdadları arasında bəzi ara-keçid formaların yaşadığı iddia edilir. Əslində, tamamilə fantastik olan bu ssenaridə dörd əsas kateqoriya var:

*Australopithecus*

*Homo habilis*

*Homo erectus*

*Homo sapiens*

Təkamülçülər insanların ilk “meymunabənzər əcdadları”na “cənub meymunu” mənasını verən “australopithecus” adını veriblər. Bu canlılar, əslində, nəsli kəsilmiş meymun növüdür. Lord Solli Zukerman və prof. Çarlz Oksnard kimi İngiltərə və ABŞ-dan iki məşhur anatomun *australopithecus* nümunələri üzərində apardığı hərtərəfli araşdırmalar bu canlıların sadəcə nəsli kəsilmiş meymun növünə aid olduqlarını və insanlarla heç bir bənzərlik təşkil etmədiklərini göstərmişdir. *(Charles E. Oxnard, “The Place of Australopithecines in Human Evolution: Grounds for Doubt”, Nature, c. 258, səh. 389)*

Təkamülçülər insanın təkamülünün sonrakı mərhələsini də “homo”, yəni insan kimi təsnif edirlər. İddiaya əsasən, homo sırasındakı canlılar *australopithecus*lardan daha çox inkişaf ediblər. Təkamülçülər bu fərqli canlılara aid fosilləri ardıcıl düzərək fantastik təkamül sxemi qururlar. Bu sxem xəyalidir, çünki bu fərqli siniflərin arasında təkamül xarakterli əlaqə olması əsla sübut edilə bilməmişdir. Təkamül nəzəriyyəsinin XX əsrdəki ən mühüm tərəfdarlarından biri olan Ernst Mayr: “*Homo sapiens*ə uzanan zəncir halqası, əslində, itib”, - deyərək bunu qəbul edir. *(J. Rennie, “Darwin’s Current Bulldog: Ernst Mayr”, Scientific American, Aralık 1992)*

Təkamülçülər “*ausrtalopithecus > homo habilis > homo erectus > homo sapiens*” ardıcıllığını qurarkən bu növlərin hər birinin daha sonrakının əcdadı olmasını irəli sürürlər. Lakin paleoantropoloqların son kəşfləri *australopithecus*, *homo habilis* və *homo erectus*un dünyanın müxtəlif bölgələrində eyni dövrlərdə yaşadıqlarını göstərir. *(Alan Walker, Science, c. 207, 1980, s. 1103; A. J. Kelso, Physical Antropology, 1. baskı, New York: J. B. Lipincott Co., 1970, s. 221; M. D. Leakey, Olduvai Gorge, c. 3, Cambridge: Cambridge University Press, 1971, səh. 272)*

Habelə, *homo erectus* sinfinə aid olan insanların bir qismi çox müasir dövrlərə qədər yaşayıblar, *homo sapiens neandertalensis* və *homo sapiens sapiens* (insan) ilə eyni mühitdə birlikdə mövcud olmuşlar. *(Time, noyabr 1996)*

Bu isə, əlbəttə, bu siniflərin bir-birilərinin əcdadı olduqları iddiasının əsassızlığını açıq şəkildə ortaya qoyur. Harvard Universitetinin paleontoloqlarından Stiven Cey Quld, təkamülçü olmasına baxmayaraq, darvinist nəzəriyyənin düşdüyü bu çıxılmaz vəziyyəti belə açıqlayır:

“Əgər bir-biri ilə paralel şəkildə yaşayan üç müxtəlif hominid (insanabənzər) sxemi varsa, onda bizim soy ağacımıza nə oldu? Aydındır ki, bunların biri digərindən törəyə bilməz.

Habelə, biri digəri ilə müqayisə edildikdə təkamül xarakterli inkişaf meyli göstərmirlər”. *(S. J. Gould, Natural History, c. 85, 1976, səh. 30)*

Qısaca desək, KİV-də və ya dərsliklərdə verilən bir cür fantastik yarı-meymun yarı-insan canlıların rəsmləri ilə, yəni sırf təbliğat yolu ilə dirçəldilməyə çalışılan insanın təkamülü ssenarisi heç bir elmi əsası olmayan nağıldan ibarətdir. Bu mövzunu uzun illər tədqiq edən, xüsusilə *australopithecus* fosilləri üzərində 15 il araşdırma aparan İngiltərənin ən məşhur və hörmətli elm adamlarından biri olan Lord Solli Zukerman təkamülçü olmasına baxmayaraq, meymunabənzər canlılardan insana uzanan nəsil ağacı olmadığı nəticəsinə gəlmişdir.

Zukerman maraqlı elm şkalası da qurmuşdur. Elmi hesab etdiyi elm sahələrindən elmdən kənar qəbul etdiyi elm sahələrinə qədər şaxəli cədvəl çəkmişdir. Zukermanın bu cədvəlində ən elmi, yəni konkret faktlara əsaslanan elm sahələri kimya və fizikadır. Cədvəldə bunlardan sonra bioloji elmlər, daha sonra sosial fənlər gəlir. Şaxələnmənin ən kənar ucunda, yəni elmdən kənar hesab edilən hissədə isə Zukermanın fikrincə telepatiya, altıncı hiss kimi hissin fövqündə olan qavrama anlayışları və bir də insanın “təkamülü” yerləşir! Zukerman şaxələnmənin bu ucunu belə açıqlayır:

“Obyektiv reallıq sahəsindən çıxıb bioloji elm fərz edilən bu sahələrə, yəni hissin fövqündə olan qavramaya və insanın fosil tarixinin şərh edilməsinə daxil olduqda, təkamül nəzəriyyəsinə inanan bir şəxs üçün hər şeyin mümkün olduğunu görürük. Belə ki, nəzəriyyələrinə qəti şəkildə inanan bu şəxslərin ziddiyyətli bəzi rəyləri eyni anda qəbul etmələri belə mümkündür”. *(Solly Zuckerman, Beyond The Ivory Tower, New York: Toplinger Publications, 1970, səh. 19)*

İnsanın təkamülü nağılı da nəzəriyyələrinə kor-koranə inanan bir sıra insanların tapdıqları bəzi fosillər haqqında qabaqcadan rəy verərək şərh etmələrindən ibarətdir.

**Darvin formulu!**

İndiyə qədər təhlil etdiyimiz bütün dəlillərlə yanaşı, istəyirsinizsə, təkamülçülərin necə cəfəng inanca malik olduqlarına bir də uşaqların belə anlayacağı qədər açıq misalla baxaq.

Təkamül nəzəriyyəsi canlıların təsadüfən əmələ gəldiyini iddia edir. Ona görə, bu iddiaya əsasən, cansız və şüursuz atomlar birləşərək əvvəlcə hüceyrəni əmələ gətirmiş və sonra eyni atomlar birləşərək digər canlıları və insanı meydana gətirmişlər. İndi düşünək, canlıların əsasını təşkil edən karbon, fosfor, azot, kalium kimi elementləri birləşdirdikdə bir yığın əmələ gəlir. Bu atom yığını hansı prosesdən keçirilsə də, bircə canlı belə əmələ gətirməz. İstəyirsinizsə, bununla bağlı bir təcrübə keçirək və təkamülçülərin, əslində, müdafiə etdikləri, amma ucadan söyləyə bilmədikləri iddianı onların adından “Darvin formulu” adı ilə nəzərdən keçirək:

Təkamülçülər çoxlu sayda böyük çənin içinə canlıların əsasını təşkil edən fosfor, azot, karbon, oksigen, dəmir, maqnezium kimi elementlərdən bol miqdarda qoysunlar. Hətta normal şərtlərdə mövcud olmayan, ancaq bu qarışığın içində lazımlı bildikləri maddələri də bu çənlərə əlavə etsinlər. Qarışıqların içinə istədikləri qədər amin turşusu, istədikləri qədər də zülal doldursunlar. Bu qarışıqlara istədikləri nisbətdə temperatur və rütubət versinlər. Bunları istədikləri ən yaxşı texnoloji cihazlarla qarışdırsınlar. Çənlərin başında nəzarətçi kimi dünyanın qabaqcıl elm adamlarını qoysunlar. Bu mütəxəssislər atadan oğula, nəsildən-nəslə ötürülərək növbə ilə milyardlarla, hətta trilyonlarla il fasiləsiz çənlərin başında gözləsinlər. Bir canlının əmələ gəlməsi üçün hansı şərtlərin mövcud olmasını lazım bilirlərsə, hamısını tətbiq etsinlər. Ancaq nə etsələr də, o çənlərdən əsla bir canlı çıxara bilməzlər. Zürafələri, aslanları, arıları, bülbülləri, tutuquşuları, atları, delfinləri, gülləri, səhləb çiçəklərini, zanbaqları, qərənfilləri, bananları, portağalları, almaları, xurmaları, pomidorları, qovunları, qarpızları, əncirləri, zeytunları, üzümləri, şaftalıları, tovuz quşlarını, qırqovulları, rəngarəng kəpənəkləri və bunlar kimi milyonlarla canlı növündən heç birini əmələ gətirə bilməzlər. Nəinki burada sadaladığımız bir neçə canlını, bunların bircə hüceyrəsini belə əldə edə bilməzlər.

Qısaca desək, **şüursuz atomlar birləşərək hüceyrəni əmələ gətirə bilməzlər.** Sonra yeni qərar verərək bir hüceyrəni iki yerə bölüb, sonra ardıcıl başqa qərarlar verib elektron mikroskopunu icad edən, sonra öz hüceyrə quruluşunu bu mikroskop altında tədqiq edən professorları əmələ gətirə bilməzlər. **Maddə ancaq Allah'ın üstün yaratması ilə həyat qazanır.** Bunun əksini iddia edən təkamül nəzəriyyəsi isə ağıla tamamilə zidd cəfəngiyatdır. Təkamülçülərin ortaya atdığı iddialar üzərində bir az düşünmək yuxarıdakı misalda göstərildiyi kimi, bu həqiqəti üzə çıxarar.

## Göz və qulaqdakı texnologiya

Təkamül nəzəriyyəsinin qətiyyən açıqlaya bilmədiyi digər məsələ isə göz və qulaqdakı üstün duyğu keyfiyyətidir.

Gözlə bağlı mövzuya keçməzdən əvvəl "Necə görürük?" sualına qısaca cavab verək. Bir cisimdən gələn şüalar gözdə tor qişaya tərsinə düşür. Bu şüalar buradakı hüceyrələr tərəfindən elektrik siqnallarına çevrilir və beyinin arxa hissəsindəki görmə mərkəzi adlanan kiçik nöqtəyə ötürülür. Bu elektrik siqnalları bir sıra ardıcıl proseslərdən sonra beyindəki bu mərkəzdə görüntü kimi şərh edilir. Bu məlumatdan sonra düşünək: beyin işığa qapalıdır. Yəni beyinin içi qapqaranlıqdır, işıq beyinin yerləşdiyi yerə girə bilməz. Görmə mərkəzi adlanan yer qapqaranlıq, işığın düşmədiyi, bəlkə, heç qarşılaşmadığınız qədər qaranlıq yerdir. Ancaq siz bu zülmət qaranlıqda işıqlı, aydın dünyanı izləyirsiniz.

Üstəlik, bu, o qədər aydın və keyfiyyətli görüntüdür ki, XXI əsrin texnologiyası belə hər cür imkanı olmasına baxmayaraq, bu aydın görüntünü əldə edə bilmir. Məsələn, hal-hazırda oxuduğunuz kitaba, kitabı tutan əllərinizə baxın, sonra başınızı qaldırın və ətrafınıza baxın. Hal-hazırda gördüyünüz aydın və keyfiyyətli görüntünü başqa bir yerdə görmüsünüzmü? Bu qədər aydın görüntünü sizə dünyanın qabaqcıl televizor şirkətlərinin istehsal etdiyi təkmilləşdirilmiş televizor ekranı belə verə bilməz. 100 ildən bəri minlərlə mühəndis bu aydın görüntünü əldə etmək üçün çalışır. Bunun üçün fabriklər, böyük müəssisələr qurulur, tədqiqatlar aparılır, planlar və dizaynlar edilir. Bir televizor ekranına baxın, bir də hal-hazırda əlinizdə tutduğunuz bu kitaba. Arada böyük aydınlıq və keyfiyyət fərqi olduğunu görəcəksiniz. Həm də televizorun ekranı sizə iki ölçülü görüntü göstərir, lakin siz üç ölçülü, dərin perspektivi olan görüntü izləyirsiniz.

Uzun illərdən bəri on minlərlə mühəndis üç ölçülü televizor icad etməyə, gözün görmə keyfiyyətini əldə etməyə çalışırlar. Bəli, üç ölçülü televizor kimi sistem istehsal edə bildilər, amma onu da eynəksiz üç ölçülü görmək mümkün deyil, həm də bu, süni üçölçülü görüntüdür. Arxa tərəf daha bulanıq, ön tərəf isə kağız dekorasiya kimi görünür. Heç bir zaman gözün gördüyü qədər aydın və keyfiyyətli görüntü əmələ gəlmir. Kamerada da, televizorda da mütləq görüntü itkisi olur.

Təkamülçülər bu keyfiyyətli və aydın görüntünü əmələ gətirən mexanizmin təsadüfən əmələ gəldiyini iddia edirlər. İndi birisi sizə otağınızdakı televizorun təsadüflər nəticəsində əmələ gəldiyini, atomların birləşib bu görüntünü əmələ gətirən aləti meydana gətirdiyini desə, nə düşünərsiniz? Minlərlə insanın birlikdə edə bilmədiyini şüursuz atomlar necə etsin?

Gözün gördüyündən daha bəsit görüntünü əmələ gətirən alət təsadüfən əmələ gəlmirsə, gözün və gözün gördüyü görüntünün də təsadüfən meydana gəlməyəcəyi çox açıqdır. Eyni vəziyyət qulağa da aiddir. Xarici qulaq ətrafdakı səsləri qulaq seyvanı vasitəsilə toplayıb daxili qulağa ötürür; daxili qulaq da bu titrəyişləri elektrik impulslarına çevirərək beyinə göndərir. Eynilə görmədə olduğu kimi, eşitmə prosesi də beyindəki eşitmə mərkəzində həyata keçir.

Göz üçün dediklərimiz qulağa da aiddir, yəni beyin işıq kimi səsə də qapalıdır, səs keçirmir. Ona görə, xarici aləm nə qədər səs-küylü olsa da, beyinin içi tamamilə səssizdir. Buna baxmayaraq, ən aydın səslər beyində eşidilir. Səs keçirməyən beyninizdə orkestr simfoniyaları dinləyir, ətraf mühitin bütün səs-küyünü eşidirsiniz. Ancaq həmin anda həssas bir cihazla beyninizin içindəki səs səviyyəsi ölçülsə, burada səssizliyin hakim olduğu məlum olacaqdır. Aydın görüntü əldə etmək ümidi ilə texnologiyadan necə istifadə edilirsə, səs üçün də eyni səylər on illərdən bəri davam etdirilir. Səsyazma cihazları, musiqi mərkəzləri, bir çox elektron alət, səs qəbul edən musiqi sistemləri bu fəaliyyətlərin nəticələrindən bəziləridir. Ancaq bütün texnologiyaya və bu sahədə minlərlə mühəndis və mütəxəssis işləməsinə baxmayaraq, qulağın əmələ gətirdiyi qədər aydın və keyfiyyətli səs əldə edilməmişdir. Ən

böyük musiqi sistemi şirkətinin istehsal etdiyi ən keyfiyyətli musiqi mərkəzini düşünün. Səsi qeyd etdikdə mütləq səsin bir hissəsi itir, az da olsa təhrif olur və ya musiqi mərkəzini işə saldıqda hələ musiqi çalmazdan əvvəl mütləq bir cızıltı eşidirsiniz. Ancaq insan orqanizmindəki texnologiyanın məhsulu olan səslər olduqca aydın və qüsursuzdur. İnsan qulağı heç vaxt musiqi mərkəzində olduğu kimi cızıltılı və ya təhrif olunmuş şəkildə səs eşitmir; səs necədirsə, tam və aydın şəkildə onu eşidir. Bu, insan yaradıldığı gündən bəri belədir. İndiyə qədər insanın istehsal etdiyi heç bir görüntü və səs cihazı göz və qulaq qədər həssas və keyfiyyətli qəbuledici olmamışdır. Ancaq görmə və eşitmə hadisəsində bütün bunların fövqündə duran çox böyük həqiqət də var.

**Beyinin içində görən və eşidən şüur kimə aiddir?**

Beyinin içində parlaq, rəngli dünyanı izləyən, simfoniyaları, quşların civiltilərini dinləyən, gülü qoxulayan kimdir?

İnsanın gözlərindən, qulaqlarından, burnundan gələn siqnallar elektrik impulsu kimi beyinə ötürülür. Biologiya, fiziologiya və ya biokimya kitablarında bu görüntünün beyində necə əmələ gəlməsinə dair bir çox şey oxuyursunuz. Ancaq bu mövzu haqqında ən mühüm həqiqətə heç bir yerdə rast gələ bilməzsiniz: beyində bu elektrik impulslarını görüntü, səs, qoxu və hiss kimi qavrayan kimdir? Beyinin içində gözə, qulağa, buruna ehtiyac hiss etmədən bütün bunları qavrayan bir şüur var. Bu şüur kimə aiddir?

Əlbəttə, bu şüur beyini təşkil edən sinirlər, yağ təbəqəsi və sinir hüceyrələrinə aid deyil. Elə buna görə, hər şeyin maddədən ibarət olduğunu zənn edən darvinist-materialistlər bu suallara heç cür cavab verə bilmirlər. Çünki bu şüur Allah'ın yaratdığı ruhdur. Ruhun görüntünü izləmək üçün gözə, səsi eşitmək üçün qulağa ehtiyacı yoxdur. Eyni zamanda, düşünmək üçün beyinə də ehtiyacı yoxdur.

Bu açıq və elmi həqiqəti oxuyan hər insan beyinin içindəki bir neçə $sm^3$-lik, qapqaranlıq yerə bütün kainatı üçölçülü, rəngli, kölgəli və işıqlı şəkildə sığışdıran uca Allah'ı düşünüb, Ondan qorxub Ona sığınmalıdır.

**Materialist inanc**

Bura qədər təhlil etdiklərimiz təkamül nəzəriyyəsinin elmi kəşflərə zidd iddia olduğunu göstərir. Nəzəriyyənin həyatın mənşəyi haqqındakı iddiası elmə ziddir, irəli sürdüyü təkamül mexanizmlərinin heç bir təkamül gücü yoxdur və fosillər nəzəriyyənin iddia etdiyi ara keçid formalarının yaşamadığını göstərir. Bu təqdirdə, əlbəttə, təkamül nəzəriyyəsi elmə zidd fərziyyə kimi bir kənara qoyulmalıdır. Belə ki, tarix boyu dünya mərkəzli kainat

modeli kimi bir çox düşüncə tərzi elmin gündəmindən çıxarılmışdır. Ancaq təkamül nəzəriyyəsi təkidlə elmin gündəliyində saxlanılır. Hətta bəzi insanlar nəzəriyyənin tənqid edilməsini elmə təcavüz kimi göstərməyə çalışırlar. Axı niyə? Bunun səbəbi təkamül nəzəriyyəsinin bəzi kütlələr üçün əl çəkilməz doqmatik inanc olmasıdır. Bu kütlələr materialist fəlsəfəyə kor-koranə bağlıdırlar və darvinizmi də təbiət haqqında yeganə materialist açıqlama olduğu üçün mənimsəyiblər. Bəzən bunu açıq şəkildə etiraf edirlər. Harvard Universitetindən məşhur genetik və eyni zamanda, qabaqcıl təkamülçülərdən olan Riçard Levontin əvvəlcə materialist, sonra elm adamı olduğunu belə etiraf edir:

“Bizim materializmə bir inancımız var, bu “a priori” (əvvəlcədən qəbul edilmiş, doğru fərz edilmiş) inancdır. Bizi dünya haqqında materialist açıqlama verməyə məcbur edən şey elmi metodlar və qanunlar deyil. Əksinə, materializmə olan “a priori” bağlılığımız səbəbi ilə dünya haqqında materialist açıqlama verən tədqiqat metodları və anlayışlarını uydururuq. Materializm mütləq doğru olduğuna görə də İlahi açıqlamanın səhnəyə çıxmasına icazə verə bilmərik”. *(Richard Lewontin, “The Demon-Haunted World”, The New York Review of Books, 9 Ocak, 1997, səh. 28)*

Bu sözlər darvinizmin materialist fəlsəfəyə bağlılıq uğrunda davam etdirilən bir doqma olduğunun açıq ifadəsidir. Bu doqma maddədən başqa heç bir varlıq olmadığını qəbul edir. Bu səbəbdən də cansız, şüursuz maddənin həyatı əmələ gətirdiyinə inanır. Milyonlarla müxtəlif canlı növünün, məsələn, quşların, balıqların, zürafələrin, pələnglərin, həşəratların, ağacların, çiçəklərin, balinaların və insanların maddənin öz daxilindəki reaksiyalarla, yəni yağan yağışla, çaxan şimşəklə, cansız maddədən əmələ gəldiyini qəbul edir. Əslində isə bu, həm ağıla, həm də elmə ziddir. Amma darvinistlər Allah’ın açıq-aşkar varlığını qəbul etməmək üçün bu ağıldan və elmdən kənar fikri cahilliklə müdafiə etməkdə davam edirlər.

Canlıların mənşəyinə materialist düşüncə ilə baxmayan insanlar isə bu açıq həqiqəti görəcəklər: bütün canlılar üstün güc, bilik və ağıla malik olan Yaradanın əsəridir. Yaradan bütün kainatı yoxdan var edən, ən qüsursuz şəkildə nizama salan və bütün canlıları yaradan Allah’dır.

**Təkamül nəzəriyyəsi dünya tarixinin ən təsirli sehridir**

Burada bunu da bildirmək lazımdır ki, heç bir ideologiyanın təsiri altında qalmadan, sadəcə ağlını və məntiqini işlədən hər insan elm və mədəniyyətdən uzaq xalqların xurafatlarını xatırladan təkamül nəzəriyyəsinə inanmağın qeyri-mümkün olduğunu asanlıqla anlayacaqdır.

Yuxarıda da bildirildiyi kimi, təkamül nəzəriyyəsinə inananlar böyük bir çənin içinə bir çox atomu, molekulu, cansız maddəni dolduran və bunların qarışığından zaman ərzində

düşünən, dərk edən, kəşflər edən professorların, universitet tələbələrinin, Eynşteyn, Habl kimi elm adamlarının, Frank Sinatra, Çarlton Heston kimi aktyorların, bununla yanaşı, ceyranların, limon ağaclarının, qərənfillərin çıxacağına inanırlar. Həm də bu cəfəng iddiaya inananlar elm adamları, professorlar, mədəniyyətli, təhsilli insanlardır. Bu səbəbdən, təkamül nəzəriyyəsi haqqında dünya tarixinin ən böyük və ən təsirli sehri ifadəsini işlətmək yerinə düşər. Çünki dünya tarixində insanların bu dərəcədə ağlını başından alan, ağıl və məntiqlə düşünmələrinə imkan verməyən, gözlərinin qarşısına sanki bir pərdə çəkib çox açıq olan həqiqətləri görmələrinə mane olan başqa inanc və ya iddia yoxdur. Bu, afrikalı bəzi qəbilələrin totemlərə, Səba xalqının Günəşə tapınmasından, hz. İbrahimin qövmünün düzəltdikləri bütlərə, hz. Musanın qövmünün qızıldan düzəltdikləri buzova tapınmalarından daha qorxulu və ağlasığmaz korluqdur. Əslində, bu vəziyyət Allah'ın Quranda işarə etdiyi ağılsızlıqdır. Allah bəzi insanların anlayışlarının bağlı olacağını və həqiqətləri görməkdən məhrum olacağını bir çox ayəsində bildirir. Bu ayələrdən bəziləri belədir:

**Həqiqətən, kafirləri əzabla qorxutsan da, qorxutmasan da, onlar üçün birdir, iman gətirməzlər. Allah onların ürəyinə və qulağına möhür vurmuşdur. Gözlərində də pərdə vardır. Onları böyük bir əzab gözləyir! (Bəqərə surəsi, 6-7)**

**... Onların qəlbləri vardır, lakin onunla anlamazlar. Onların gözləri vardır, lakin onunla görməzlər. Onların qulaqları vardır, lakin onunla eşitməzlər. Onlar heyvan kimidirlər, bəlkə də, daha çox zəlalətdədirlər. Qafil olanlar da məhz onlardır! (Əraf surəsi, 179)**

Allah "Hicr" surəsində də bu insanların möcüzələr görsələr də, inanmayacaq qədər sehrləndiklərini belə bildirir:

**Əgər onlara göydən bir qapı açsaq və oradan durmadan yuxarı dırmaşsalar yenə də: "Gözümüz bağlanmış, biz sehrlənmişik", - deyərlər. (Hicr surəsi, 14-15)**

Bu qədər geniş kütləyə bu sehrin təsir etməsi, insanların həqiqətlərdən bu qədər uzaq saxlanması və 150 ildən bəri bu sehrin pozulmaması isə sözlə ifadə edilməyəcək qədər heyrətli vəziyyətdir. Çünki bir və ya bir neçə insanın qeyri-mümkün ssenarilərə, cəfəng və məntiqsiz iddialara inanmalarını anlamaq olar. Ancaq dünyanın hər tərəfindəki insanların şüursuz və cansız atomların ani qərarla birləşib qeyri-adi mütəşəkkillik, nizam, ağıl və şüur nümayiş etdirərək qüsursuz sistemlə işləyən kainatı, həyat üçün uyğun hər cür xüsusiyyətə malik olan Yer planetini və saysız-hesabsız kompleks sistemdən ibarət canlıları meydana gətirdiyinə inanmasının sehrdən başqa heç bir açıqlaması yoxdur.

Allah Quranda inkarçı fəlsəfənin tərəfdarı olan bəzi şəxslərin etdikləri sehrlərlə insanlara təsir etdiklərini hz. Musa ilə firon arasında baş verən bir hadisə ilə bizə bildirir. Hz. Musa firona haqq dini təbliğ etdikdə firon hz. Musaya öz bilici sehrkarları ilə insanların

toplaşdığı bir yerdə qarşılaşmasını söyləyir. Hz. Musa sehrkarlarla qarşılaşdıqda əvvəlcə onların bacarıqlarını göstərməsini əmr edir. Bu hadisənin danışıldığı ayə belədir:

**(Musa:) "Siz atın", - dedi. Onlar (əsalarını yerə) atdıqda, adamların gözlərini bağlayıb (sehrləyib) onları qorxutdular və böyük bir sehr göstərdilər. (Əraf surəsi, 116)**

Göründüyü kimi, fironun sehrkarları hz. Musa və ona inananlardan başqa insanların hamısını sehrləyə bilmişdilər. Ancaq onların atdıqlarına qarşı hz. Musanın ortaya qoyduğu dəlil onların bu sehrini, ayədəki ifadə ilə uydurduqlarını udmuş, yəni təsirsiz etmişdir:

**Biz də Musaya: "Əsanı tulla!" - deyə vəhy etdik. Bir də (baxıb gördülər ki,) əsa onların uydurub düzəltdikləri bütün şeyləri udur. Artıq haqq zahir, onların uydurub düzəltdikləri yalanlar isə batil oldu. (Sehrbazlar) orada məğlub edildilər və xar olaraq geri döndülər. (Əraf surəsi, 117-119)**

Ayələrdə də bildirildiyi kimi, əvvəllər insanlara sehrləyərək təsir göstərən bu şəxslərin etdiklərinin saxtakarlıq olmasının başa düşülməsi ilə sözügedən şəxslər alçalmışlar. Dövrümüzdə də bir sehrin təsiri ilə elmilik adı altında olduqca cəfəng iddialara inanan və bunları müdafiə etmək üçün həyatlarını qurban verənlər əgər bu iddialardan əl çəkməsələr, həqiqətlər tam mənası ilə üzə çıxdıqda və sehr pozulduqda alçalacaqlar. Belə ki, təqribən 60 yaşına qədər təkamülü müdafiə edən və ateist filosof olan, ancaq sonradan həqiqətləri görən Malkolm Maqeric təkamül nəzəriyyəsinin yaxın gələcəkdə düşəcəyi vəziyyəti belə açıqlayır:

**"Mən özüm təkamül nəzəriyyəsinin xüsusilə tətbiq edildiyi sahələrdə gələcəyin tarix kitablarındakı ən böyük yumor hədəflərindən biri olacağına inandım.** Gələcək nəsillər bu qədər çürük və qeyri-müəyyən hipotezin inanılmaz saflıqla qəbul edilməsini heyrətlə qarşılayacaqlar". *(Malcolm Muggeridge, The End of Christendom, Grand Rapids: Eerdmans, 1980, səh. 43)*

Bu gələcək uzaq deyil, əksinə, çox yaxın gələcəkdə insanlar "təsadüf"lərin ilah olmasının mümkünsüzlüyünü anlayacaqlar və təkamül nəzəriyyəsi dünya tarixinin ən böyük yalanı və ən güclü sehri kimi tərif ediləcəkdir. Bu güclü sehr böyük sürətlə dünyanın hər tərəfində insanlar üzərində təsirini itirməyə başlamışdır. Təkamül yalanının sirrinin öyrənən bir çox insan bu yalana necə aldandığını heyrət və təəccüblə qarşılayır.

**...Sənin bizə öyrətdiklərindən başqa bizdə heç bir bilik yoxdur!**

**Həqiqətən, Sən bilənsən, müdriksən!**

**(Bəqərə surəsi, 32)**